Bu bir xalq qəzetidi
ƏDALƏT

# Daha 7000 nəfərə "Müharibə veteranı" adı verilib



**Müdafiə Nazirliyinin tərkibində fəaliyyət göstərən komissiya tərəfindən 7 000 nəfərdən artıq vətəndaşın da Vətən müharibəsində iştirakı ilə bağlı məlumatlarının araşdırılması yekunlaşdırılaraq sənədləri "Müharibə veteranı" adının verilməsi məqsədilə qərar qəbul edilməsi üçün müvafiq komissiyaya göndərilib.**

Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin rəsmi feysbuk səhifəsi məlumat yayıb.

Arayış-məlumatları göndərilən vətəndaşlar barədə qərar qəbul edildikdən sonra onların da adları "Müharibə veteranı" adının verilməsi üçün "Zəfər" altsisteminə daxil ediləcəkdir.

Bundan sonra onlara da Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün (80 AZN) təyin edilməsi və 2022-ci ilin yanvar ayının 1-dən hesablanaraq ödənilməsi təmin olunacaq.

Qeyd edək ki, bu günədək Vətən müharibəsində iştirak etmiş 76 000 nəfərə "Müharibə veteranı" adı verilib.

# SƏRHƏDLƏRİN AÇILMAMASININ SƏBƏBİ BİLİNDİ

**Adını unutduğum bir alman filosofu başını daşa döyüb yazıb ki, "Allah yer üzünü yaradanda Azərbaycanı cənnət yaratdı. Sonra qorxdu ki, hamı qaçıb Azərbaycana gedəcək, ona görə də hər kəsə öz vətənini şirin elədi".**

İndi fikirləşin, sabah Operativ Qərargah qərar çıxartdı, sərhədləri açdı, aləm dəyəcək bir-birinə. İlan mələməz səhralarda yaşayan, hər gün yanacağın, qazın (yeməli qazın yox ey, yandırılan qazın), enerjinin və qida məhsullarının qiyməti durmadan artan avropalılar, siklonların meydan suladığı, burulğanların şəhər və kəndləri dağıtdığı, fırtınaların baş verdiyi Amerikada yaşayanlar, 50-60 dərəcə istidə bürküdən nəfəs ala bilməyən ərəblər hamısı qaçıb töküləcək Azərbaycana. Hələ mən İranda yaşayan azərbaycanlıları və farsları demirəm. Arağına bol, çaxırına bol, maşallah, şərab zavodlarımız beşillik planı üç ildə yerinə yetiriblər, hamısı sıçrayıb sərhədi aşıb gələcəklər Azərbaycana.

Bir tərəfdən də Ukraynada Rusiya bombalarının altında yaşayanlar, evləri-eşikləri dağılanlar bilirlər ki, biz qonaqpərvərik və Azərbaycan da cənnətdir onlar da üz tutacaq ölkəmizə.

**Ona görə də məcburuq sərhədlərimizi bağlamağa. Hələ imkanımız olsa, dənizin qırağını hasarladığımız kimi, sərhədlərimizi də hasarlayarıq.**

**Aqil ABBAS**

# 15 ölkənin parlament sədri Bakıda toplandı

Bax:səh-2

# Mərkəzi Bankın valyuta ehtiyatları açıqlandı




**Bu günə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 7 milyard 371,9 milyon ABŞ dolları təşkil edib.**

"Report" quruma istinadən xəbər verir ki, bu, iyunun 1-i ilə müqayisədə 2% çoxdur.

AMB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 4,2%, son 1 ildə isə 14,2% artıb.

# SOLOVYOVUN BAŞINDAN BÖYÜK QƏLƏTİ



**Çağırıb verilişinə separatçı rejimin xarici işlər tulasını və onu da "Dağlıq Qarabağ Respublikasının xarici işlər naziri" kimi təqdim edir.**

Və ümumiyyətlə, elə bir verilişi olmaz ki, Azərbaycana söz atmasın. Banqladeşdən danışanda da söhbəti hərləyib-fırlayıb gətirir Azərbaycan-Ermənistan münasibətlərinə və təbii ki, bizi də haqsız çıxarır.

Rusiya Xarici İşlər Nazirliyi də ilana ağ verən bu kərtənkələni yerində oturtmaq istəmir. Ona görə ki, bu elə Rusiya Xarici İşlər Nazirliyinin siyasətidir və Rusiyanın öz siyasətidir.

# Azərbaycan Respublikası Daxili İşlər naziri Vilayət Eyvazov cənablarına



**Çox hörmətli cənab Nazir!**

Sizi və sizin şəxsinizdə Azərbaycanın Daxili İşlər Nazirliyinin bütün kollektivini peşə bayramları - 2 İyul günü münasibəti ilə ürəkdən təbrik edir, əməkdaşların hər birinə can sağlığı və ailə səadəti arzu edirik.

**Cənab general-polkovnik!**

Biz yaxşı bilirik ki, prezidentimiz, Azərbaycan xalqının qarantı olan cənab İlham Əliyevin ölkənin bütün strukturları kimi, Daxili İşlər Nazirliyinə də daim xüsusi diqqət və qayğı göstərib. Məhz onun qayğısının nəticəsidir ki, bu gün Azərbaycan polisinin maddi-texniki bazası, həmçinin əməkdaşların həyat səviyyəsi əvvəlki onilliklərdən xeyli fərqlənir. Bu da hər birimizin güvənc yeri olan polisin daha yaxşı xidmət keçməsinə stimul verir. Məlumdur ki, Azərbaycan polisi torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə xüsusi rəşadət göstərmiş, həmişə ön cəbhədə olmuşdur. Onların qəhrəmanlıqları unudulmazdır. Bu gün də Azərbaycan polisi əsl qəhrəmanlıq nümayiş etdirir.

**Cənab Nazir!**

Prezidentimiz İlham Əliyev cənablarının bəşəri bəla olan koronavirusla bağlı etdiyi çıxışlarda, müraciətlərdə, verdiyi tapşırıqlarda Azərbaycan polisinin əməyi xüsusi qeyd edilir. Bu gün karantin rejimində yaşayan ölkəmizin milli təhlükəsizlik məsələsi olan pandemiyadan qorunmaqda polisimiz ön cəbhədədir. Hər kəs özünü qoruduğu bir anda polis həm də bizi qoruyur. Onların gecə-gündüz etdiyi reydlər, gücləndirilmiş nəzarətlər öz bəhrəsini verir. Biz bunun üçün Sizə və bütün polislərimizə minnətdarıq. Allah xalqımızı və onun bütün təmsilçilərini qorusun!

**Cənab general-polkovnik!**

Bir daha Sizi və bu gün peşə bayramı olan DİN-nin bütün əməkdaşlarını ürəkdən təbrik edirik.

**Hörmətlə:**
**Millət vəkili Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 30 (5967) 2 iyul 2022-ci il
Qiyməti 30 qəpik

# İlham Əliyev: "Zəngəzur dəhlizi artıq reallığa çevrilir"




**Azərbaycan Vətən müharibəsində Qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb.**

**Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev iyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı bildirib.**

**Dövlət başçısı qeyd edib ki, Zəngəzur dəhlizi artıq reallığa çevrilir.**

# Jurnalistlər üçün vergi sistemi mövzusunda təlim keçirildi

**Medianın İnkişafı Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) birgə təşkilatçılığı ilə media nümayəndələri üçün təlim təşkil olunub.**

Medianın İnkişafı Agentliyindən Adalet.az-a verilən məlumata görə, təlimdə 30-a yaxın media nümayəndəsi iştirak edib.

"Vergi sistemi, vergi qanunvericiliyi və inzibatçılığı" mövzusunda keçirilən təlimdə DVX-nin Vergi siyasəti baş idarəsinin Vergi qanunvericiliyi idarəsinin rəisi Rəşad Nuriyev, İqtisadi təhlil və uçota nəzarət baş idarəsinin Sosial sığorta və əmək münasibətlərinə nəzarət idarəsinin rəisi Nigar Vahabzadə və Hüquqi şəxslərin dövlət qeydiyyatı baş idarəsinin şöbə rəisi Leyla Hüseynzadə iştirakçılara təqdimatlar ediblər.

Tədbirdə təlim iştirakçılarına büdcə sistemi, vergi daxilolmalarının büdcə gəlirlərində rolu, vergi qanunvericiliyi və vergi sistemi, əmək münasibətlərinə nəzarət üzrə vergi inzibatçılığı, hüquqi şəxslərin qeydiyyatı sahəsində islahatlar, vergi ödəyicilərinin hüquq və vəzifələri barədə geniş məlumat verilib, müzakirələr aparılıb, jurnalistlərin sualları cavablandırılıb.

**Təlimin sonunda Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva media nümayəndələrinə sertifikatlar təqdim ediblər.**

# ŞUŞAYA GETMƏK İSTƏYƏNLƏR



**Hər gün mənə qəzetlərdən, saytlardan və eləcə də adi vətəndaşlardan nə qədər zəng olur ki, Şuşaya getmək istəyirik, amma bilet tapmırıq. Eləcə də Ağdama, Kəlbəcərə, Laçına, Qubadlıya getmək istəyənlər də müraciət edir və kömək istəyir.**

Hamının da istəyi budur ki, reyslərin sayı artırılsın.

Doğrudanmı bu reyslərin sayını artırmaq mümkün deyil? Yoxsa istəmirlər ki, camaat gedib dağılmış şəhər və kəndini görsün ürəyi bulansın, ağlasın, sızlasın, bunu da çəkib videoda paylaşsın.

Açın yolları, cənablar, açın. Qoyunlara açmısız, insanlara da açın. Deyəcəsəksiz mina var, bəli, var. Amma qoyunlar minaya düşmürsə, təbii ki, insanlar da qayda-qanunlara əməl edib minaya düşməzlər.

**Açın yolları, açın. Xüsusilə Kəlbəcər yolunu açın. 30 ildir cəhənnəmdə yaşayanlar gedib cənnəti görsünlər və xoşbəxt olsunlar. Lap minaya düşsələr də onlar cənnəti görmüş olacaqlar.**

# SÜLHMƏRAMLILAR QARABAĞDA NƏ SÜLƏNİRLƏR VƏ NİYƏ SÜLƏNİRLƏR?

**Onların missiyasının biri odur ki, Dağlıq Qarabağdakı silahlı qüvvələri silahsızlaşdırsınlar. Amma hər gün Qarabağdakı terrorçu qrupların sayı durmadan artır.**

İndi də Ermənistanın Müdafiə Nazirliyi bildirib ki, yeni çağırışçıları Qarabağa göndərəcəklər.

Bir məşhur söz var: "Müharibə istəyirsən, sən onu alacaqsan".

İndi Ermənistan ikinci bir Dəmir Yumruq istəyir və onu alacaq.

# Rusların logistik mərkəzi məhv edildi



**Ukrayna aviasiyası Luqansk istiqamətində rusların mövqelərinə zərbələr endirib.**

Bu barədə Ukrayna Hava Qüvvələri məlumat verib. "Aviasiya rusların logistik mərkəzlərinə zərbələr endirib və Lisiçanskın müdafiəçilərinə böyük dəstək verib. Düşmənin yanacaq məntəqələri, zirehli texnikası və canlı qüvvəsi məhv edilib", - məlumatda qeyd olunub. Hücumda Ukrayna ordusunun Su-25 hücum təyyarələri və Su-24M bombardmançıları iştirak edib.

# ATƏT özü bu qrupu buraxmalıdır

Bax:səh-3



*Vaqif Cəbrayılzadə*

# GÜLLƏLƏYİN DEPUTATLARI

*Bazarda*
*gilasın qiymətinə də*
*bir bəhanə gərək,*
*bir bais gərək.*
*hamısına,*
*hamısına*
*deputatlar bais.*
*Güllələyin deputatları!*

*Koroğlu zəncirdə,*
*Qıratı darda*
*Dəlləklər gəzirlər karetalarda*
*bazarda*
*soğanın qiymətinə də*
*bir bəhanə gərək,*
*bir bais gərək,*
*hamısına,*
*hamısına*
*deputatlar bais.*
*Güllələyin deputatları!*

Allah sənə ömür versin, Vaqif Bayatlı Odər.

# Maaş və pensiyalar yenidən artırılacaq?

**"Maaş və pensiyalara yenidən baxılmasına ehtiyac var".**

Bunu "Unikal"a açıqlamasında deputat Vahid Əhmədov deyib.

Deputat bildirib ki, maaş, pensiya və müavinətlər əhali-



miz üçün vacib məsələlərdən biridir:

**"Büdcədə artımlar daha çox işğaldan azad olunmuş ərazilərdə görülən quruculuq işlərinə ayrıldı. Həmçinin, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün də vəsait ayrılıb. Bunlar da ciddi məsələlərdir. Ərzaq qıtlığının olmaması üçün də işlər görülür. Bununla yanaşı, maaş və pensiyalara yenidən baxılmalıdır", - deyə V.Əhmədov vurğulayıb.**

# QARABAĞLILAR QARABAĞA QAYIDACAQMI?!

**Hər gün mənə müxtəlif kütləvi informasiya vasitələri və saytlar zəng edib sual verirlər. Mən onları qınamıram, bəlkə də torpaq həsrətinin nə olduğunu bilmirlər, ocaq həsrətinin nə olduğunu bilmirlər.**

Təbii ki, mən də hamısına eyni cavablar verirəm. İnsanlar öz doğma yurd-yuvalarına qayıtmaq üçün təşnədilər. Hətta gedib alaçıq qurmağa da razıdılar, təki öz əzizlərinin yatdığı torpağa qayıtsınlar.

**Təbii ki, qayıtmayanlar da ola bilər, amma onlar bizdən deyil.**

# "Azərbaycan Xəzər regionunda təhlükəsizliyin qarantıdır"

Bax:səh-3

# QULAĞI KƏSİLƏN ANDRONİKİN ADAŞI

**Suriyadan qaçıb gələn və Laçının Zabuğ kəndində yerləşən və kəndin icra nümayəndəsi Andronik deyir ki, bizi burdan heç kim çıxara bilməz. Lazım gələrsə silaha sarılacağıq və kəndimizi müdafiə edəcəyik.**

Baban Andronik də belə deyirdi, Soltan bəy qulağını kəsdi və Qarabağdan it kimi qovdu. Darıxma, bu dəfə sənin bir qulağını yox, iki qulağını kəsərlər və Zabuğdan it kimi qovarlar. Heç səni Ermənistan da qəbul etməyəcək, göndərəcək yenidən Suriyaya.

Azərbaycanda belə bir misal var: "İtə bax, tum çırtlamağına bax".

**Qarşında Komandonu görəndə siçan deşiyi axtaracaqsan.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

# ALLAHLAR TƏRƏFİNDƏN SEVİLƏNLƏR CAVAN ÖLÜRLƏR



***Gərək ki, Viktor Hüqonun sözüdü. Bəlkə də Hüqonun bu sözü cavan ölənlərin valideynlərinə təsəlli vermək üçündü. Amma həyatda gördüklərim Hüqonun necə sərrast dediyini və həqiqətən də Allahlar (Allah) tərəfindən sevilənlərin cavan öldüyünün şahidi olmuşam. Görünür, İsa bulağının suyu qədər təmiz, Kəlbəcər dağları kimi vüqarlı, aydan arı, sudan duru olan cavanların cəhənnəmə çevrilmiş bu dünyada yaşamasını, qalıb murdarlanmasını, alçaq adamların qarşısında saflıqlarını, duruluqlarını itirmələrini istəmədiyindən götürüb aparır öz dərgahına.***

***Siz fikir vermisinizmi qəzetlərdə, televiziyalarda, yolboyu düzülmüş şəkillərdəki şəhidlərə. Elə bil hər biri min cavanın içindən seçilib: yaraşıqlı, gözəl, şirin təbəssümlə, hamı bir-birinə oxşayır. Elə bil hamısını bir ata əkib, bir ana doğub. Bu həqiqətdə də belədir - hamısını bir ata əkib, bir ana doğub. Onların atası da, anası da, əkən də, doğan da canlarından artıq sevdikləri VƏTƏN torpağıdı. Analar körpələrinə bir-iki il layla çalarlar, amma Vətən torpağı bu igidləri bağrına basıb min il, milyon il layla çalır.***

***Peyğəmbər əleyhissəlam deyir ki, ya Əli, Cənnət anayın ayaqları altındadı. İndi bu igidlər də analarının ayaqları altında olan Cənnətdədirlər.***

Bax:səh-2

# GÜNÜN LƏTİFƏSİ

Kürəkən qayınanasına sms yazır:

**- Sizin istehsal etdiyiniz məhsul (qızını nəzərdə tutur) zaydır, heç bir işə yaramır. Nə yemək bişirə bilir, nə də paltar ütüləyir.**



Qayınana cavab yazır:

**- Məhsul neçə il bundan əvvəl satıldığına görə istehsalçı məsuliyyət daşımır.**

## DİN-in bir qrup zabitinə polis general-mayoru rütbəsi verilib



**Prezident İlham Əliyev ”Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında” sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncamla Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə polis general-mayoru ali xüsusi rütbəsi verilib:

**polis polkovniki Canpolad Alı oğlu Daanova**
**polis polkovniki Namiq Zirəddin oğlu Həsənova**
**polis polkovniki Vüqar Hidayət oğlu Ələkbərova**
**polis polkovniki Sərdar Süleyman oğlu Səfərova.**

## Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı təltif edilib

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncama əsasən, cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsi, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif ediliblər:

**3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə**

Yusifov Mahmud Şahmurad oğlu - tibb xidməti polkovniki

**”Vətən uğrunda” medalı ilə**

Abbasov Rəşad Vaqif oğlu - polis polkovniki
Aslanov Çingiz Rauf oğlu - polis polkovniki
Həmzəyev Pərviz Mahmud oğlu - polis polkovniki
Qurbanov Elmir Vaqif oğlu - polis polkovniki
Məmmədov Emin Mobil oğlu - polis polkovniki
Nəsirov Zaur Zakir oğlu - polis polkovniki
Sarıyev Bəkir Qəhrəman oğlu - polis polkovniki
Abbasov Zaur Nürəddin oğlu - polis polkovnik-leytenantı
Camalov Vüqar Yahya oğlu - polis polkovnik-leytenantı
Əlizadə Cavidan Gülağa oğlu - polis polkovnik-leytenantı
Kərimov Rəhman Cəbrayıl oğlu - polis polkovnik-leytenantı
Qasımov Ceyhun Həsən oğlu - polis polkovnik-leytenantı
Qasımov Nəvai Becan oğlu - polis polkovnik-leytenantı
Quliyev Elşən Şahlar oğlu - polis polkovnik-leytenantı
Səlimov Murad Rəfayıl oğlu - polis polkovnik-leytenantı
Cəfərov Məhiyəddin Bulud oğlu - polis mayoru
Əliyev Səttar Nizami oğlu - polis kapitanı
Məmmədov Şakir Fərman oğlu - polis baş leytenantı

**”İgidliyə görə” medalı ilə**

Məmmədov Nəsib Sayad oğlu - polis polkovniki
Qaflanov Qurban Oruc oğlu - polis polkovnik-leytenantı
Şıxnəbiyev Rəşad Rəhbər oğlu - polis polkovnik-leytenantı
Nağıyev Kənan İlyas oğlu - polis mayoru
Dadaşov Rəşvin Akif oğlu - polis kapitanı
Mehvalıyev Cəmaləddin Teymur oğlu - polis baş leytenantı
Həbibullayev Rasim Fərman oğlu - polis kiçik leytenantı.

## *Ərdoğandan Yunanıstanın Baş nazirinə xəbərdarlıq*

**"NATO Zirvəsində bütün liderlərin "Vasitəçi olaq, sizi Yunanıstanla bir araya gətirək" təklifi oldu. Biz isə "Üzrlü sayın, hələlik buna ayıracaq vaxtımız yoxdur" dedik".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İspaniyanın paytaxtı Madriddə keçirilən NATO sammitindən sonra türkiyəli jurnalistlərin suallarını cavablandırarkən bildirib.

"Yunanıstanın başında duran zatın münasibəti artıq bəlli olub. Bu münasibətə qarşısında da bəzi vasitəçiləri işə salırlar", - dövlət başçısı söyləyib. Türkiyə liderinin sözlərinə görə, Yunanıstanın Egey dənizindəki adaları silahlandırması ortadadır:

"Digər tərəfdən, hava məkanımızı daim pozurlar. İndi bizimlə razılaşmaq istəyən hava məkanımızı pozaraq bizi təxribata çəkərmi? Hələ üstəlik adalara da gedir. Oradan beton sığınacaqlar tikərək, çuxurlar qazaraq siqnal verməyə çalışır. Onun yaxşı niyyəti yoxdur. Əgər yaxşı niyyəti olsaydı, bu addımları atmazdı. Bütün bunları o etdiyi üçün, üzrlü saysın, biz bu il Yüksək Səviyyəli Strateji Şuranın iclasını keçirə bilmərik və keçirməyəcəyik. O artıq indi Türkiyədəki prosesləri gözləməlidir. Qoy özünə çəki-düzən versin. Özünü yığışdırmayandan sonra bir araya gəlməyimiz mümkün deyil".

## *XİN-dən Ermənistan Baş Qərargah rəisinin müavinin fikirlərinə reaksiya*

**Ermənistan KİV-də ölkənin silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavininə istinadən yayılan bu məlumat, birmənalı şəkildə Ermənistan rəsmiləri tərəfindən Azərbaycan ərazilərinə qanunsuz hərbi birləşmələrin göndərilməsi ilə bağlı edilən növbəti etirafdır.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini Saak Saakyanın hərbi xidmətə çağırılan vətəndaşların valideynləri ilə görüşdə Azərbaycanın Qarabağ bölgəsində erməni müddətli hərbi xidmətçilərinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları ilə əvəzlənəcəyinə dair məlumatını şərh edərkən bildirib."Bu, Ermənistan tərəfindən 9/10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının kobud şəkildə pozulmasıdır. Xatırladırıq ki, sözügedən bəyanatın 4-cü maddəsinə istinadən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılır və paralel olaraq bu ərazilərdə Rusiya sülhməramlı kontingenti yerləşdirilir. Tərəfimizdən, bundan öncə dəfələrlə Ermənistan tərəfinin üçtərəfli bəyanatın müddəalarını pozduğu, o cümlədən qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazilərindən tam çıxarmadığını bəyan etmişik.

Hazırda Azərbaycan tərəfindən münaqişə sonrası mərhələdə münasibətlərin normallaşması və sülh quruculuğu istiqamətində addımlar atıldığı bir vaxtda, Ermənistan tərəfinin belə bir yanaşması, sonuncunun bölgədə sülh yox, gərginlik yaratmaq marağını açıq şəkildə nümayiş etdirir. Ermənistan rəsmilərinin bu açıqlaması Ermənistan tərəfinin sülhdən danışmasının riyakarlıqdan başqa bir şey olmadığını göstərir.

Bu, həmçinin Ermənistan tərəfinin təcavüzkar siyasətinin bir daha açıq şəkildə təcəssümüdür", - XİN rəsmisi vurğulayıb.

# 15 ölkənin parlament sədri Bakıda toplandı

**Bakıda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransı çərçivəsində nümayəndə heyəti rəhbərlərinin iclası keçirilib. Bakı konfransı ”Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunub. İclası giriş sözü ilə açan Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova gündəlik barədə məlumat verib.**

BMT-nin Baş Assambleyasının 76-cı sessiyasının sədri Abdulla Şahidin videomüraciəti nümayiş etdirilib. O bildirib ki, qlobal çağırışlar fonunda Qoşulmama Hərəkatı və Parlament Şəbəkəsinin rolu xüsusi önəm kəsb edir. O deyib: ”Biz mövcud problemləri yalnız bir beynəlxalq səylər nəticəsində birgə həll edə bilərik. Bu işdə parlamentlər də öz sözünü deməlidir. Qlobal problemlərə qarşı səylərimizi birləşdirməliyik”.

Sonra Parlamentlərarası İttifaqın Prezidenti Duarte Pachecon və Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqun videomüraciəti təqdim olunub.

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada nüfuzunun artdığını diqqətə çatdıran Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop ölkəmizin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə də uğurla sədrlik edəcəyini vurğulayıb: ”Azərbaycan çox bacarıqlı və müdrik siyasət yürüdür. Ərazi bütövlüyünü bərpa edən Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün bütün səylərini ortaya qoyur. Koronavirusla mübarizə zamanı çoxtərəfliliyin nə qədər vacib olduğunu bir daha gördük. Qlobal məsələlərlə qlobal işbirliyi şəklində mübarizə aparılmalıdır. Terror bu gün bütün dünyanın gündəmində duran əsas məsələdir”.

Azərbaycanın otuz il ərzində uzun yol qət edərək öz siyasi kursunu uğurla yürütdüyünü və regionun əsas oyunçusuna çev-



rildiyini vurğulayan Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani bildirib ki, dünyanın aparıcı təşkilatlarından biri olan Qoşulmama Hərəkatı beynəlxalq arenada bölünmələrə və qütbləşməyə qarşı öz təsirini davam etdirir və dünya ölkələrini sülhün, əməkdaşlığın təmin olunmasına təşviq edir: ”Müasir dünya qloballaşma, qarşılıqlı əlaqə və əməkdaşlığa doğru sürətlə irəliləyir. Eyni zamanda, dünya ölkələri müharibələrin yalnız həyat və əmlakın məhv edilməsi olduğunu öyrənməyə davam edir. Hamımız münaqişələri sülh yolu ilə həll etməyə çalışmalıyıq. Pakistan qlobal sülh, çiçəklənmə və inkişaf naminə əməkdaşlığı hər zaman dəstəkləyib”.

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva isə çıxışında qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı konfransının məqsədi xalqlara sülh bəxş etmək və suverenliyimizi qorunmaqdır. Bildirilib ki, Bakı konfransı vasitəsilə Qoşulmama Hərəkatına üzv ölkələri narahat edən məsələlərə çarə tapmağa, mexanizmlər işləməyə çalışacağıq. Türkmənistan Milli Gengeş Məclisinin sədri Gulşat Mamedovanın sözlərinə görə, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi dialoq mədəniyyətini inkişaf etdirməyə, bununla da sülhə və sabitliyə töhfə verməyə imkan yaradacaq. O, həmçinin Bakı Bəyannaməsinin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına da mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

İordaniya Nümayəndələr Palatasının sədri Əbdül Kərim Əl Deqmi qeyd edib ki, bu gün Rusiya-Ukrayna fonunda dünyanın yenidən bloklara bölünməsinin şahidi oluruq: ”Biz Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin bu böhranın həllinə töhfə verəcəyini gözləyirik. Digər tərəfdən, İordaniya dünyanı Suriya və İraqın ərazi bütövlüyünün qorunmasına çağırır. Dünyada və Yaxın Şərqdə sülhün açarı Fələstin probleminin ədalətli həllidir”.

İclasda, həmçinin digər çıxış edənlər - Misir Senatının sədri Abdel Vahab Abedel Rzaeq, Cibuti Milli Məclisinin sədri Məhəmməd Əli Houmed, Mərakeş Nümayəndələr Palatasının sədri Raçid Talbi El Alami, Əlcəzair Milli Assambleyasının sədri Brahim Buqali və Ərəb Parlamentinin Prezidenti Adel Əl-Asumi ölkələrinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətini dəstəklədiyini vurğulayıblar. Onlar Parlament Şəbəkəsinin sülhə və inkişafa xidmət göstərəcəyinə inandıqlarını söyləyiblər.

Dünyada baş verən hadisələrdən bəhs edən parlamentarilər Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin beynəlxalq aləmdə sülhə və təhlükəsizliyə töhfə verəcəyinə ümidvar olduqlarını bildiriblər. Parlament Şəbəkəsinin Bakı konfransında iştirakçıların sayının çoxluğunun üzv ölkələrin Şəbəkənin fəaliyyətinin effektiv olacağına inamının ifadəsi kimi dəyərləndiriblər.

Vurğulanıb ki, vaxtında yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi mütərəqqi bir parlament mexanizmi olacaq.

Qonaqlar Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransını yüksək səviyyədə təşkil etdiyi üçün Azərbaycana minnətdarlıqlarını ifadə ediblər.

**Qeyd edək ki, iki gün davam edən tədbirdə dünyanın 40-dan çox ölkəsinin parlament nümayəndə heyətlərinin, 9 beynəlxalq parlament təşkilatının təmsilçiləri iştirak ediblər. Nümayəndə heyətinin tərkibində 15 ölkənin parlament sədri də yer alıb.**

**Nicat Novruzoğlu**

# RUSLAR QIRILIB QURTARIB, ÜMİD ERMƏNİLƏRƏ QALIB

**Seyran Səxavətin ”Ağdamda Qədir Rüstəmovla atüstü söhbət” yazısında, özü də qeyri-adi yazısında, jurnalistikanın dərsliyinə salınmalı yazısında, daha dəqiq desək, müsahibəsində çox şeylər var. Biri də odur ki, Qədirə sual verir ki, uşaqlara arvad qohumlarının adını qoymusan?**

Qədir də cavab verir: ”Bizimkilər qırılıb qurtarıb ki?!”

İndi deyəsən, Rusiyada ruslar qırılıb qurtarıb ona görə də ümidləri ermənilərə qalıb. Bütün filmlərində müsbət qəhrəmanların hamısı ermənidi. Olsun, cəhənnəm. Hətta almanlarla müharibədə də ermənilər xüsusi rol oynayıblar. Hər gün televiziyalarında verilən canlı yayımlarında əsas fiqurlar ermənilərdi. Başqa millətlər yox kimidi. Düzdür, Stalinin vaxtında gürcülər önə çəkilirdi, indi onlar da yoxdu.

Deyəsən, ruslar Qədir Rüstəmovun dediyi kimi, qırılıb qurtarıb ki, ümid simonyanlara, keosayanlara, şahnazaryanlara, nə bilim daha hansı yanlara və yaxud da zadulyanlara və daha kimlərə-kimlərə qalıb.

Hansı kanalı açırsan bunlardı. Ağızlarına gələn ”kaka”ları edirlər.

Sabah ermənilər Rusiyanın çıxılmaz vəziyyətini başa düşən kimi dönüb olacaqlar ingilis, alman, fransız. Neujeli, Rusiya bunu başa düşmür? Ola bilməz başa düşməsin, sadəcə olaraq, Ermənistan onlar üçün bir ”qandondu”. Ağıllı ermənilər bunu başa düşür, amma gic ermənilər bunu başa düşmür. Hətta Paşinyan da başa düşür ki, o da, onun xalqı da Rusiya üçün ”qandondu”. Yəni ”qandon”un nə olduğunu bilməyənlər üçün deyirəm, birdəfəlik istifadə. Amma Ermənistan Rusiya üçün birdəfəlik yox, çoxdəfəlik ”qandondu”.

Çox təəssüf ki, həm Ermənistan, həm də onun baş naziri Paşinyan bilə-bilə Rusiyanın bütün oyunlarına gedir.

**Bu yaxınlarda Rusiya kanallarında atom fizikası ilə bağlı çox maraqlı veriliş oldu. Deyəsən, ”1-ci” kanaldaydı. Belə məlum oldu ki, Rusiyada atom fizikasının baniləri ermənilərdi. Verilişdə danışanların hamısı da Ermənistanın keçmiş prezidenti Sərkisyan olmaqla (2018-2021) hamısı ermənileriydi. Yəni ya Kurçatov, ya kim hamısı boş söhbətdi. O boyda rus xalqını bu qədər aşağılamaq kimə və nəyə lazımdı? Ermənini sevirsən sev də, amma öz xalqını aşağılama.**

**Aqil ABBAS**

# Deputat AŞPA-da sayıqladı: "Qədim şəhərimiz"ə "Şuşa" deyirlər, kilsələrimizi dağıdıblar...

**Xəbər verdiyimiz kimi ötən həftə Rusiya mətbuatına istinadən xəbər verir ki, bu dəfə Rusiya Erməniləri İttifaqının rəhbəri Ara Abramyan sarsıntı təsirindən nə danışdığının fərqində olmayıb. Abramyan Rusiya Prezident Administrasiyasına və Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinin direktoruna narazılıq məktubları yazıb. Jurnalist Aleksandr Buzaladzenin süjetinin Qarabağda baş verən hadisələrin natamam mənzərəsini təqdim etdiyini idda edən Abramyan ermənilərin Gövhər Ağa məscidinin taleyindən narahat olduğunu da dilə gətirib.**

Oxucularım və bütün dünya bilir ki, Şuşadakı Gövhər Ağa məscidi Qarabağ xanının qızı tərəfindən tikilib və erməni işğalı zamanı - 28 il fars məscidi kimi Qarabağa gələn turistlərə təqdim edilirdi. Yəni 200 ildir Azərbaycanın ərazisində azərbaycanlılara məxsus olan və müsəlman möminlərin ibadət yeri sayılan məscidə görə ermənilər niyə narahatlıq keçirir , bunun məntiqini anlaya bilmədik.

***Bu dəfə isə Şuşadakı Gövhər Ağa məscidini Ermənistan parlamentinin deputatı Vladimir Vardanyan gündəmə gətirib.***

***Adalet.az erməni mediasına istinadən bildirir ki, deputat AŞPA-da sərsəm çıxış edərkən deyib ki, Azərbaycan tərəfi erməniləri Şuşadakı müxtəlif obyektləri dağıtmaqda ittiham edir, lakin ermənilər şəhərdəki məscidi bərpa ediblər.***

Vardanyanın ittihamı bununla bitməyib. O ”qədim erməni şəhəri Şuşi”nin adının dəyişdirilərək Şuşa qoyulmasına da, Qarabağda Azərbaycan tərəfin ”kilsələri dağıtmasına” da münasibət bildirib: ”Siz deyirsiniz ki, ”bu işğal illərində siz bunu-filanı dağıtdınız”, amma biz Şuşada qədim və çox mühüm məscidi bərpa etdik. indi kilsələri dağıdan, şəhərin adını dəyişməyə çalışan azərbaycanlılardır”.

Sözünü bitirəndən sonra unudub ki, qarşısındakı xəstə təxəyyüllü ermənilər deyil, Avropalı





senatorlar, siyasətçilər, regionşünaslar və rəsmi şəxslərdi. Burada heç kim Vardanyanı ”üfürdüklərinə” görə alqışlamayacaq, ona ”qəhrəman” deməyəcək. AŞPA -dakılar susaraq bu erməni yalançısından danışdığı söhbətlə bağlı foto - video fakt və sənədlər tələb edəcəklər. Təbii ki, Vardanyanda Azərbaycan tərəfindən ”dağıdılmış” heç bir kilsənin fotosu yoxdu. Azərbaycan kilsə dağıtsaydı ilk öncə Azərbaycanın paytaxtında Bakının göbəyindəki erməni kilsəsini dağıdardı.

Qaldı da ”qədim erməni şəhəri Şuşi” mövzusuna, artıq bütün dünyaya düz 30 ildir aydındır ki, dağlar başında o möhtəşəm şəhəri yalnız igid türk sərkərdəsi və xanı tikdirə bilərdi və tikdirib. Yəni faktsız danışan Vardanyanın çərənləməsi bizi o qədərdə narahat etməməlidir. Çünki, Azərbaycan tərəfi işğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidənin 67 -sinin müsəlman məscidi, 144-ü məbəd, 192-si ziyarətgahdır.

Həmin tarixi və dini abidələrin böyük bir qisminin necə dağıldığını, digər hissəsinin də təhqir olunduğnu video və foto faktlarla beynəlxalq təşkilatlara göndərib.

Yeri gəlmişkən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsbit olunmuş siyahıya əsasən Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb.

***Qeyd edək ki, haqqında müzakirələr açılan ”Yuxarı Gövhər ağa” məscidi 1883-1884-cü illərdə İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayı Səfixan Sultanhüseyn oğlu Qarabaği tərəfindən inşa edilib.***

***Tarix boyu Şuşada əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edib. (Bu fakt Çar Rusiyası dövründə, 1897-ci ildə əhalinin siyahıyaalınması zamanı təsdiqlənib).***

Abidə 1992-ci il may ayının 8-dən etibarən Ermənistanın Respublikası Hərbi Qüvvələrinin işğalına məruz qalıb.Həmin vaxt məscid dağıdılaraq yerlə yeksan edildi və məscidin bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumşaq inventarları qarət edilərək Ermənistan Respublikasına aparıldı. Məscid 2018/19-cu illər ərzində abidə ”fars mədəniyyətinin” nümunəsi kimi qeyri-qanuni təmir edildi.

***Oxşar hal: Bu ilin əvvəlində Ermənistanda səfərdə olan Azərbaycan Milli Məclisinin deputatları Tahir Mirkişili və Soltan Məmmədov paytaxt İrəvanda Göy məscidi ziyarət ediblər.***

***Deputat Tahir Mirkişili ”Facebook hesabında paylaşdığı fotoya və yazdığı şərhə( ”Divarlarında başqa dövlətə aid yazılar olsa da, amma divarları, arxitekturası, ruhu sırf bizə aiddir. Biz bu doğmalığı hiss etdik, inanıram ki, məscid də. İnanırıq ki, bu məsciddə əsl sahibləri tezliklə öz dualarını edəcəklər. Azərbaycanlıların duaları isə daim xeyirxah olur və yekunda da qəbul olunur) cavab gəlib.***

İranın Ermənistandakı səfirliyi azərbaycanlı deputatların Göy Məscidi ziyarət etməsinə münasibət bildirib və ”Twitter” hesabında paylaşım edib: ””İran mədəniyyətinin simvolu olan Göy Məscid son üç onillikdə yenidən Ermənistanda müsəlmanların ibadət və toplaşma yerinə və turistlərin diqqət mərkəzinə çevrilib. Çox sevindirici haldır ki, onun çoxəsrlik fars epiqrafiyası qorunub saxlanılıb”.

**Ermənilərə ağını bir ilan vermir, min ilanın zəhəri bunların xirtdəyindədir və yeri gəldikcə o zəhəri ətrafa səpələyirlər .**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# *ALLAHLAR TƏRƏFİNDƏN SEVİLƏNLƏR CAVAN ÖLÜRLƏR*

*Gərək ki, Viktor Hüqonun sözüdü. Bəlkə də Hüqonun bu sözü cavan ölənlərin valideynlərinə təsəlli vermək üçündü. Amma həyatda gördüklərim Hüqonun necə sərrast dediyini və həqiqətən də Allahlar (Allah) tərəfindən sevilənlərin cavan öldüyünün şahidi olmuşam. Görünür, İsa bulağının suyu qədər təmiz, Kəlbəcər dağları kimi vüqarlı, aydan arı, sudan duru olan cavanların cəhənnəmə çevrilmiş bu dünyada yaşamasını, qalıb murdarlanmasını, alçaq adamların qarşısında saflıqlarını, duruluqlarını itirmələrini istəmədiyindən götürüb aparır öz dərgahına.*

*Siz fikir vermisinizmi qəzetlərdə, televiziyalarda, yolboyu düzülmüş şəkillərdəki şəhidlərə. Elə bil hər biri min cavanın içindən seçilib: yaraşıqlı, gözəl, şirin təbəssümlə, hamı bir-birinə oxşayır. Elə bil hamısını bir ata əkib, bir ana doğub. Bu həqiqətdə də belədir - hamısını bir ata əkib, bir ana doğub. Onların atası da, anası da, əkən də, doğan da canlarından artıq sevdikləri VƏTƏN torpağıdı. Analar körpələrinə bir-iki il layla çalarlar, amma Vətən torpağı bu igidləri bağrına basıb min il, milyon il layla çalır.*

*Peyğəmbər əleyhissəlam deyir ki, ya Əli, Cənnət anayın ayaqları altındadı. İndi bu igidlər də analarının ayaqları altında olan Cənnətdədirlər.*

*Heç fikir vermisinizmi, bütün şəhid anaları, şəhid ataları da hamısı bir-birinə bənzəyir. Onları bir-birinə bənzədən çəkdikləri dərddi, ağrıdı. Adamları ağrılar da, dərdlər də təkcə birləşdirmir, yavaş-yavaş bir-birlərinə oxşadır. Buna da səbəb eyni dərd, ağrıları çəkmələridir.*

*Muğam müsabiqəsinə baxırsınızmı? Şəhid valideynləri oturub muğama qulaq asır. Birini göstərmək kifayətdir ki, hamısını görə biləsən. Onları ora niyə çağırırlar, bilmirəm. Onsuz da öz dərdləri özlərinə bəsdi, təzədən "Segah"a, "Zabul segahı"na, "Mirzə Hüseyn segahı"na qulaq asdırıb onları ağlatmaq nəyə lazımdı?*

*Mən özüm "Segah"a, "Zabul segaha", "Mirzə Hüseyn segahı"na qulaq asanda ağlayıram.*

*Dünən, yəni cümə axşamı muğam müsabiqəsində "Segah"a qulaq asanda özümdən asılı olmayaraq, gözlərim yaşla dolmuşdu. Oğlum soruşdu ki, nə olub? Dedim ki, yorulmuşam, gözlərimdən su axır. O da uşaq deyil, hər şeyi anladı.*

*Rəmişin gözəl bir sözü var. O, "Segah"ı bəlkə on-iyirmi dəfə çalsa da hamısı bir-birindən fərqlənirdi. Bir dəfə bunun səbəbini Rəmişdən soruşdum. O savadsız Rəmiş bilirsiniz nə dedi? Dedi ki, Aqil, mən bir dəfə çalanda gözümün qabağına oğlunu itirmiş ana gəlir. İkinci dəfə çalanda həyat yoldaşını itirmiş gəlir. Üçüncü dəfə çalanda atasız uşaqların göz yaşları gəlir. Dördüncü dəfə çalanda sevgilisini itirmiş hansısa bir xanım gəlir. Beşinci dəfə çalanda Arazın o tayındakı bacı-qardaşlarımız gəlir. Mən nəyi görürəm, onu çalıram.*

*İndi bütün şəhid analarını, atalarını eyni dərd, eyni ağrı birləşdirdiyinə görə onlar hamısı bir-birinə oxşayır.*

*Bütün şəhid valideynlərinin bir sözü var: "Təki Vətən sağ olsun". Təbii ki, Vətənin sağ olmağına səbəb onların övladlarıdır.*

*Onların övladlarının sağ olması da dövlətdən, hökumətdən və bizdən asılıdır. Mən bir dəfə yazmışam: "Ana, bağışla, mən şəhid olmadım".*

*Şəhidlər Allahın dərgahındadı, qazilər isə bizim yanımızdadı. Şəhidlərdən Allah muğayat olur, bəs, biz qazilərdən muğayat oluruqmu?!*

*Sual budur, bu!*

*Trollar dərhal yazacaqlar ki, oluruq. Bəli, dövlət onları qoruyur, amma məni bir məsələ maraqlandırır. O qazi niyə gedib Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qapısını qırmalıdı, niyə polis onu qucaqlayıb öpməlidi və niyə onun istəyi ondan sonra həll olunmalıdı?*

*Bu suala cavab verən tapılacaqmı?*

*Bu yerdə soruşa bilərsiz ki, Allah Cüneyt Arkını sevmirdi ki, ona 85 il ömür verdi? Allah müəyyən adamlara uzun ömrü ona görə verir ki, onların üstünə müəyyən missiyalar qoyur, get bunu həll elə. Həll edirlər, həll edə bilmirlər, bu ayrı məsələdi. Cüneyt Arkının da üstünə missiya qoyulmuşdu ki, sən türkçülüyü təbliğ elə. O da bunu edə bildi.*

*Yəni cüneytarkınlar və başqaları müəyyən missiyaya görə çox yaşayırlar. Məsələn, Allah Anara, Qəzənfər Paşayevə, Elçinə, Vaqif Bayatlı Odərə, Ramiz Rövşənə, Zakir Fəxriyə ona görə uzun ömür verib ki, hələ onlar öz missiyalarını axıra qədər çatdırmayıblar və sair və ilaxır. Deyə bilərsiniz ki, Allah pis əməl sahiblərinə də bəzən uzun ömür verir. Onu da ona görə verir ki, bizlər onlara baxaq, pis əməllərdən uzaq olaq.*

*Amma neyləyək ki, ola bilmirik. Biz yaxşı əməl sahiblərinin arxasınca getməkdənsə çox zaman pis əməl sahiblərinin arxasınca gedirik. Ona görə də dünya kəllə-mayallaqdı.*

*Məhz ona görə də Allahlar tərəfindən sevilənlər cavan ölürlər.*

## *Ermənilər "Rusiya xəyanətkardır", Paşinyan isə "Rusiya günahkardır" deyir...*



**44 günlük müharibədən sonra ”erməni xalqına ən böyük xəyanət məhz Putinin Rusiyaya rəhbərlik etdiyi dövrdə baş verdi” kimi fikirlər erməni mediasının gündəmindən düşmür.**

Hətta Ermənistanın rəsmi şəxsləri, məsələn erməni millət vəkili Azad Arşakyan ”Lragir” qəzetinə verdiyi açıqlamada da bunu təsdiq edib.O, bildirib ki, Rusiya bizə xəyanət etdi: ”Birinci həftədən sonra məlum oldu ki, biz döyüş meydanında təkik. Yəni müttəfiq seçərkən səhv etdik. Ən kritik məqamda, Ermənistanı mühasirəyə aldıqda, təcavüzə məruz qaldıqda və bu sənədləri imzalayanda əmin olduq ki, müttəfiimiz tək əsgərlərimiz olub. Rusiya müharibə əraziləri üzərində suverenliyini itirən Ermənistana qarşı idi. Müttəfiqlərimiz bizi tərk etdi və təhlükəsizliyə zəmanət vermədi.

Yadınızdadırsa, ötən il Keçmiş qondarma rejimin nümayəndəsi Vaan Badasyan erməni mətbuatına verdiyi müsahibədə bir sıra diqqət çəkən fikirlər səsləndirmiş ”Rusiya həmişə bizə xəyanət edir” demişdi. Bu ilin aprel ayında Rusiya sülhməramlıları mümkün təxribatların qarşısını almaq üçün erməni deputatların Qarabağa daxil olmasına icazə vermədiyi üçün ermənilərin məlum fikirləri daha geniş şəkildə deyilməyə başlayıb. Adalet.az erməni mediasına istinadən xəbər verir ki, ötən gün İrəvanda onlayın keçirilən iclasda Ermənistanın Baş naziri Nikol Paşinyan bir sıra maraqlı açıqlamalar edib. O bildirib ki, erməni hərbçilərinin Azərbaycan tərəfinə əsir düşməsində Rusiya günahkardır: ” Erməni hərbçilərin 90 faizindən çoxu Rusiya sülhməramlılarının yerləşdirilməsindən sonra və onların məsuliyyət zonasında əsir düşüb”.

**Qeyd edək ki, 44 günlük müharibədən sonra Ermənistanın paytaxtında Rusiyaya qarşı mitinqlər təşkil olunmuş, ”Rusiya satqındır”, ”Rusiya xəayanətkardı” plakatları boy göstərib.**

**Əntiqə Rəşid**

# Dünyaya açılan pəncərə

## I Beynəlxalq Tibb Forumu çox möhtəşəm keçirildi




**18-21 iyun 2022-ci il tarixlərində Azərbaycanda ilk dəfə keçirilən "I Beynəlxalq Tibb Forumu" uğurla başa çatdı.**

Forum Azərbaycan Tibb Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Azərbaycan Endoskopik-Laporoskopik Cərrahlar Assosiasiyası İctimai Cəmiyyətinin birgə təşkilatçılığı ilə canlı formatda təşkil edilib. Forumda rəsmi şəxslər, Naxçıvan Muxtar Republikası Ali Məclisinin sədri cənab Vasif Talıbov, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Azərbaycan Endoskopik-Laporoskopik Cərrahlar Assosasiyası İctimai Birliyinin sədri Müşfiq Həsənli, dost.dr. Seymur Talıbov, dost.dr. Rauf Bəylərov, Ankara Universitetinin rektoru Necdet Ünüvar, Gazi Universitetinin rektoru Musa Yıldız, Yeditepe Universitetinin rektoru Canan Aykut Bingöl, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Universitetinin Bakı filialının rektoru Əziz Əliyev, Bakı Sağlamlıq Mərkəzinin direktoru Asiman





Həsənov, dekan Elsevər Əsədov, AELCD-nin İnvaziv Endoskopiya Bölümünün sədri Aqil Atakişiyev, Türkiyə, Almaniya, Rusiya, Özbəkistan və bir sıra ölkələrdən dəvət edilmiş mütəxəssislər, rektorlar, ölkəmizdə fəaliyyət göstərən dövlət və özəl xəstəxanalarının həkim heyəti, tibb cəmiyyətləri, kursantlar və ictimaiyyət nümayəndələri daxil olmaqla 400-dən çox şəxs iştirak edib. Onlar forum boyunca davam edən müxtəlif panel müzakirələrinə və ikitərəfli işgüzar görüşlərə qatılıblar.

Tədbirin keçirilməsində məqsəd səhiyyənin inkişaf etdirilməsi, dünya təcrübəsinə əsaslanan elmi-tibbi yeniliklərin ölkəmizdə tibb sahəsinə tətbiqinin genişləndirilməsi, eləcə də dünyanın bir sıra ölkələri ilə məhsuldar əməkdaşlıq qurmaq, tibbin müasir standartlarında inkişafına töhfə verməkdir. Forumda cərrahiyyə, pankreas xəstəlikləri, plastik estetik və rekonstruktiv cərrahiyyə, endokrinologiya, virus hepatitləri, HCC, qaraciyər transplantasiyası, qastroenterologiya, onkologiya, oftalmologiya, pediatriya, infeksion xəstəliklər, stomatologiya və digər tibb sahələri üzrə çox aktual mövzularla bağlı yerli və xarici



mütəxəssislərin çıxışları dinlənilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Gələcəkdə bu səpkidə silsilə tədbirlərin keçirilməsinin labüdlüyü vurğulanıb, iştirakçılara və tədbirin ərsəyə gəlməsində göstərdikləri dəstəyə görə dövlət və özəl şirkətlərə təşəkkür edilib.

**Onu da qeyd edək ki, Naxçıvanda keçirilən I Beynəlxalq Tibb Forumu sosial şəbəkə istifadəçilərin də böyük marağında olub və həmin tədbirlə bağlı onlar öz fikirlərini və düşüncələrini yayımlayıblar.**

**Faiq QİSMƏTOĞLU**




*ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri dəyişib. Beş ildir bu vəzifəni tutan və onun ən azı iki il yarımını məcburi məzuniyyətdə keçirən Endryu Şoförü Dövlət Departamentinin Qafqaz Məsələləri və Regional Münaqişələr Bürosunun direktoru Laura Okla əvəz eləyib. Xanım Oklanın Dövlət Departamentindəki vəzifəsini və bir müddət öz ölkəsinin Tiflisdəki səfirliyində də işlədiyini nəzərə alsaq onun bölgəni yaxşı tanıdığına şübhə yeri qalmır.*

*Azərbaycan prezidenti İlham Əliyevin sözü gedən qrupun bölgədəki 30 illik fəaliyyətinə verdiyi qiymət də həmin təyinatla eyni günə təsadüf etdi. Qoşulmamaq Hərəkatı Parlament şəbəkəsinin Bakı konfransında çıxış edən dövlər başçısı dedi: "2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısındakı çıxışımda qeyd etmişdim ki, biz ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Biz bunları bərpa edə bilməməyin, başqalarından asılı olmağın nə olduğunu yaxşı bilirdik. Biz uzun illər, təqribən 30 il ərzində bunu gözləyirdik... Bu gün Azərbaycanın münaqişəni həll etməsindən, işğala son qoymasından, özünün ərazi bütövlüyünü hərbi-siyasi yollarla bərpa etməsindən sonra Minsk qrupuna ehtiyac yoxdur. Biz Minsk qrupuna artıq əlvida demişik. Təəssüflər olsun ki, Ermənistan və digərləri onu həyata qaytarmağa çalışır. Lakin bu, mümkünsüzdür. O, artıq ölüb. İşğaldan əziyyət çəkmiş ölkə kimi biz bunu açıq şəkildə bəyan edirik. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda, regionda mümkün sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".*

*44 günlük müharibədən sonra bu qrupun 30 illik fəaliyyətinin bütün pərdəarxası məqamları, daha doğrusu, paxırı açıldı. Bir vaxtlar davranışlarında hiss olunan nüansları açıq-aydın dillərinə gətirməkdən belə çəkinmədilər. Məlum oldu ki, vasitəçilərin biri münaqişənin birdəfəlik həllində yerlidibli maraqlı deyil, digər ikisisə, necə deyərlər, əlbir olub Dağlıq Qarabağı*

# ATƏT özü bu qrupu buraxmalıdır

*Azərbaycandan qopartmaq arzusundadır. Bir-birinin təkrarı olan "Madrid prinsipləri", "Lavrov planı" və bu qəbildən olan dırnaqarası təşəbbüslərin məqsədi həll modeli tapmaq yox, prosesi sonsuzluğa, yəni Azərbaycanın öz torpaqlarını unudacağı vaxta qədər uzatmaqdan ibarət idi. Yəni, nəsillər dəyişəcək, milli yaddaş itəcək, Qarabağın nəinki dağlıq hissəsini, ola bilsin, hətta işğal olunmuş aranını da "ərköyün bala"ya bağışlamaq mümkün olacaq. 2020-ci ilin avqustu isə başqa reallıqları üzə çıxardı. Ölkənin demək olar ki, bütün hərbi komissarlıqlarının qarşısında böyük izdihamlar yaşandı. Bu, torpaqları azad eləmək üçün könüllü olaraq cəbhəyə getmək istəyən, mütləq əksəriyyətinin yaşı Qarabağın işğal yaşından qat-qat az olan gənclərin və yeniyetmələrin izdihamıydı. Və bu izdiham göstərdi ki, Vətən hissi, qan yaddaşı nəinki zamanla unudulmaz, daha da alovlanar.*

*Xatırlayırsınızsa, Minsk qrupunun Amerikalı həmsədri Riçard Xoqlandın 44 günlük müharibədən az sonra bu qrupun fəaliyyəti haqqında geniş bir yazı yazmışdı. Yazı məqalədən çox nekroloqa oxşadığı üçün elə güman etmək olardı ki, bu formatın öz ömrünü başa vurduğunu Vaşinqtonda da*



*anlamağa başlayıblar. Həmsədrliyi pensiya vəzifəsi adlandıran R. Xoqland yazırdı ki, biz həm bölgəyə, həm də Avropanın siyasi mərkəzlərinə çoxsaylı səfərlərimiz vaxtı beşulduz otellərin xüsusi apartamanlarında qalır, ən yaxşı restoranlarda qidalanır, barlarda əylənirdik. Amma açığını desək, nizamlama məsələlərində olduqca az şeyə nail olurduq.*

*Lavrov Madrid prinsiplərinin təkrarı olan öz prinsiplərini masaya yatırdandan sonra Amerikalı həmsədr bütün tərəflərin bu plana "hə" deyəcəyi təqdirdə Kremlin onun reallaşmasına razı olub-olmayacağıyla bağlı Rusiyalı həmkarı Popova sual verəndə "əlbəttə, yox" - deyə çox ilginc bir cavab eşidir. "Onda mən başa düşdüm ki, Dağlıq Qarabağ sadəcə, Ermənistanla Azərbaycan arasındakı ikitərəfli problem deyil, Rusiyanın həlledici rol oynadığı üçtərəfli problemdir" - deyə həmsədr öz fikrini yekunlaşdırır. Ancaq onun bu müşahidəsi dəqiq olsa da, yarşmçıqdır.*

*Rusiyanın münaqişənin həllində maraqlı olmaması lap başlanğıcdan heç kim üçün sirr deyildi. Digər həmsədr ölkələlərə, yəni ABŞ və Fransaya gəlincə isə, onları münaqişənin həllində maraqlı olmamaqda ittiham eləmək ədalətsizlik olardı. Bu ölkələr münaqişənin həllinin istəsələr də yalnız iki həll variantını - Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsini və yaxud ayrıca dövlət olmasını məqbul sayırdılar. Dildə deməsələr də əməldə buna çalışırdılar. Təkcə "Azadlığa Dəstək" Aktına 907-ci düzəliş bu superdövlətin problemə qərəzli münasibətinin bariz nümunəsidir. Fransadan isə danışmağa dəyməz. Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra isə üç həmsədr ölkə arasında qarşıdurma və rəqabət açıq düşmənçilik müstəvisinə keçdi. İndi onların ən yüksək səviyyədəki rəsmi şəxsləri belə bir-birləri haqqında danışarkən nəinki formal siyasi-diplomatik etiketlərə əməl etmirlər, hətta küçə jarqonundan istifadə edirlər.*

*Məsələn, bir müddət əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirmişdi ki, Fransa və ABŞ Qarabağ münaqişəsinin həlli üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin "üçlük"ü çərçivəsində Rusiya Federasiyası ilə əməkdaşlıqdan imtina ediblər. Bunun ardınca isə onun mətbuat katibi Mariya Zaxarova eyni bir platformada çalışdığları tərəf-müqabilləri haqqında olduqca sərt və təhqiramiz tonda danışmışdı: "Biz Brüsselin ən yüksək səviyyədə Rusiya-Ermənistan-Azərbaycan razılaşmalarının mövzusunu və ATƏT-in Minsk qrupunun həmsədrlərinin ötən il təklif etdiyi gündəliyi mənimsəmək üçün həyasız cəhdlərini qeydə almışıq".*

*Bu gün Ermənistan Minsk qrupunun vasitəsiylə Dağlıq Qarabağa status almaq xülyasına düşüb. Amma paradoks ondadır ki, hazırda formal mövcudluğunu güc-bəla qoruyub saxlayan bu qrupun heç özünün konkret bir statusu yoxdur. Onun mandatına daxil olan məsələlərin böyük bir qismini Azərbaycan təkbaşına gerçəkləşdirib, qalanını da tədricən həyata keçirəcək. Yuxarıda adını çəkdiyimiz Amerikalı həmsədr R. Xoqland da qrupun öz missiyasını başa çatdırdığına eyham vurararaq onun ömrünü uzatmaq istəyənlərə maraqlı məsləhət verir: "Məsələn, ATƏT dağıdılmış ərazilərin bərpa edilməsində iştirak eləyə, Dünya bankı, Benəlxalq valyuta fondu və Avropa bankı vasitəsilə bu işlərin maliyyələşməsini təşkil edə bilər". Hərçənd, cənab Xoqland bu fikirlərinin ardınca dərhal onu da qeyd eləyir ki, Türkiyənin və İranın bölgədəki maraqları fonunda bu missiyanı gerçəkləşdirmək o qədər də asan olmayacaq.*

*Bir sözlə, hansı tərəfdən yanaşırsan yanaş fərqi yoxdur, bu meyiti diriltmək cəhdləri iflasa məhkumdur. Ona görə də nə qədər gec deyil ATƏT özü təşəbbüs qaldıraraq bu qurumu buraxmalı və öz tarixinin bu rüsvayçı səhifəsini könüllü olaraq birdəfəlik qapatmalıdır.*

***Adalet.az***

## *Maşınlarda daşınan ot bağlamaları təhlükə törədir*

**Son vaxtlar müxtəlif yük maşınları ilə açıq və bağlama şəklində respublikanın avtomobil yollarında ot daşınır. Və bu ot daşınma zamanı bir çox sürücülər tərəfindən təhlükəsizlik qaydaları pozulur, müəyyən olunmuş standartlara uyğun hərəkət edilmir.**

Xüsusən də açıq şəkildə həddindən çox maşınlara yüklənən otlar daha böyük təhlükə törədir. Belə ki, küləkli havada onlar yollara



səpələnir və bəzən də yük daşıyan maşın küləyə tab gətirməyərək yükü ağır olduğu üçün aşır. Üstəlik də həmin otlar açıq şəkildə aparıldığına görə maşından çıxan qığılcım nəticəsində yanmaq təhlükəsi də var. Ona görə də yol polisi bu cür sürücülərə xəbərdarlıq edərək bildirib ki, onlar açıq və bağlama şəklində ot daşıyarkən yükdaşıma qaydalarına əməl etsinlər, küləkli havalarda ehtiyatlı olsunlar. Çünki qaydaları pozan belə sürücülərin bir neçəsi inzibati qaydada cərimə edilib. Və hətta onlar bundan nəticə çıxarmazlarsa, cinayət məsuliyyətinə də cəlb oluna bilərlər.

**Emil FAİQOĞLU**

# "Azərbaycan Xəzər regionunda təhlükəsizliyin qarantıdır"

**"Azərbaycan Xəzər regionunda da təhlükəsizlik və əməkdaşlıq istiqamətində praktik addım atan ölkələrdən biridir". Bunu deputat Könül Nurullayeva bildirib. Millət vəkilinin sözlərinə görə, ölkəmiz hər zaman Xəzər dənizində dialoq, əməkdaşlıq və sabitlik mühitinin formalaşdırılması üzrə səylər göstərir: "Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı da təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmlənməsi işində daha bir addımdır. Prezident İlham Əliyevin zirvə toplantısında qeyd etdiyi kimi, Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində iş başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək. Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər də bağlanıb. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq bu regionda sabitliyə və təhlükəsizliyə əlavə töhfə verir.**

Hövzə dövlətləri qarşılıqlı faydalı əməkdaşlıq sayəsində həm iqtisadi dividendlər əldə edir, eyni zamanda investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması istiqamətində çalışır. Eyni zamanda nəqliyyat sahəsində bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələr Xəzər regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaradır.

2018-ci ildə Aktauda imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya isə tarixi əhəmiyyət kəsb edir və bu sənədin tezliklə qüvvəyə minməsi yeni imkanlar və əlverişli hüquqi baza yaradacaq. Bu sənən həm də təhlükəsizlik üçün cari və potensial təhdidlərin qarşısını almaqla yanaşı hövzə dövlətləri araında qarşılıqlı etimadın güclənməsini təmin edir".

Deputat vurğulayıb ki, huquqi status üzrə ümumi razılaşmanın əldə edilməsi Azərbaycanın Xəzər dənizi üzrə sərgilədiyi strategiyanın məqsədyönlü və əsaslı olduğunu təsdiqləyir: "Ümumiyyətlə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra aparılmış uzaqgörən siyasət nəticəsində Xəzər dənizində neft yataqlarının işlənilməsi və hasilatın pay bölgüsü haqqında müqavilələrin imzalanmasına nail olunub. "Əsrin müqaviləsi"nin imzalanması Xəzər dənizinin mineral sərvətlərindən istifadə üçün dünyanın aparcı neft şirkətlərinin və xarici investisiyaların cəlb edilməsi üzrə çox mühüm siyasi addım oldu, bu istiqamətdə ilk dəfə olaraq Xəzər dənizində beynəlxalq əməkdaşlığa yol açıldı. Azərbaycan həm də Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ilk təşəbbüs göstərən ölkələrdən biridir. Bu, dənizdə bölgü məsələləri üzrə bütün sahilyanı ölkələrin mövqelərinin yaxınlaşdırılmasına və ümumi razılığın əldə edilməsinə xidmət edib. Xəzər dənizində bölgü məsələləri üzrə sahilyanı ölkələr arasında dialoq üçün ikitərəfli və çoxtərəfli formatlara üstünlük verilib. Bu çərçivədə 29 noyabr 2001-ci il tarixində "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Saziş", 23 sentyabr 2002-ci il tarixində "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Saziş" və 14 may 2003-cü il tarixində "Azərbaycan Res-



publikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında Saziş"in imzalanmasına nail olunub.

21 yanvar 2021-ci il Aşqabadda imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbhidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu" da tarixi hadisə idi. Bu sənəd Xəzərdə dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etməklə yanaşı Azərbaycanın neft-qaz strategiyasının inkişafında böyük əhəmiyyətə malikdir. Bu, Azərbaycanın neft-qaz hasilatı, nəqli, ölkəmizin enerji potensialının daha da yüksəldilməsi istiqamətində yeniliklərdən biridir. Yataqdan hasil olunacaq neft və qaz Azərbaycanın müasir standartlara malik infrastrukturu və ixrac kəmərləri vasitəsilə daşınacaq. Beləliklə, neft və qaz ixracatçısı olan Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti artacaq, ölkəmizin nəqliyyat-tranzit potensialının möhkəmlənməsi üçün əlverişli şərait yaranacaq.

Sənədin imzalanması Azərbaycanla Türkmənistan arasında energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın daha da genişlənməsinə rəvac verir. Həmçinin Xəzər dənizinin dibinin bölünməsi üzrə dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir.

Təbii ki, layihənin beynəlxalq və regional əhəmiyyəti də kifayət qədərdir. Bu sazişin imzalanması həm də Xəzərin sülh və əməkdaşlıq hövzəsi olduğunu təsdiqləyir, əməkdaşlıq və qarşılıqlı etimad mühitinin gücləndirilməsinə töhfə verir. Bununla Xəzər regionunda enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi və xarici investorların bu layihələrə cəlb edilməsi üçün yeni imkanlar yaranır.

Təsadufi deyil ki, dünyanın fövqəlgücləri də enerji təhlükəsizliyi ilə bağlı məqsədlərə çatmaq üçün vacib olan şaxələndirmədə Azərbaycanı regional səylərdə əsas rol oynayan güc kimi qəbul edir. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malik ölkə kimi dəyərləndirlir.

Xəzəryanı ölkələrin qarşılıqlı fəaliyyətində əsas prioritelərdən biri də tərəflərin maraqlarının nəzərə alınması, hövzə dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləridir. Bu da əsrlər boyu qonşu kimi yaşamış xalqları birləşdirən dəniz kimi Xəzərin statusunu daha da möhkəmləndirir.

Bu gün Xəzər regionu inkişaf etmiş infrastruktura malik böyük beynəlxalq nəqliyyat qovşağına çevrilib. Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə Azərbaycan ərazisindən keçməklə yükdaşımaların, həmçinin Xəzər dənizinin Şərq hissəsindən daxil olan müraciətlərin sayı artır. Yeni inşa olunan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı isə Xəzərdə nəqliyyat-logistika infrastrukturunun inkişafı işinə Azərbaycanın daha bir mühüm töhfəsidir. Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biri kimi Xəzəryanı dövlətlərin potensialından maksimum istifadə etməyə əlverişli imkan yaradır.

**44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar həm də hövzə dövlətləri üçün yeni imkanlar yaradır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni beynəlxalq bir yol olacaq. Bu səbəbdən Zəngəzur dəhlizi bizim üçün və qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq. Bu da Azərbaycanın işğaldan azad etdiyi ərazilərin həm də Xəzər regionu üçün əhəmiyyətini göstərir".**

**Nicat Novruzoğlu**
**Parlament müxbiri**

# Gevondyanın, Seyranyanın və Mnatsakanyan yekdil fikri: "Artsax"artıq yoxdur"

**Cənubi Qafqaz regionunda siyasi gərginliyin pik həddə olması heç kəsin gözündən yayınmır. Dəmək olar ki, bütün dünya nəfəsini tutaraq prosesləri diqqətlə izləyir, hansı dövlətin daha qərəzli, məkrli gedişlər etdiyinin də fərqindədir.**

Bütün bunlara baxmayaraq, bəzi Qarabağ gerçəkləri də var ki, Ermənistanda çox az sayda olan ağıllı adamlar artıq bunun fərqindədir.

O, gerçəkliyin də biri həmin ağıllı ermənilərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi "statusun cəhənnəmə vasil olması"nı görməsi, "gorbagor olmasını" təsdiqləməsidi. Yəqin ki xatırlayırsınız politoloq Alen Gevondyan ötən aylarda "Artsax" dan danışmağın artıq məsələ olduğunu bildirməsi, nə olub -bitdiyini hələ də anlamayan, daha doğrusu anlamaq istəməyən separatçı - revanşist ermənilərə şillə effekti oldu:

"Artsax məsələsi artıq yoxdur və gözlənilən qeyri-sabitlik hətta bölgənin xəritəsini dəyişə bilər" deyə, açıqlama verib.

Eyni fikirləri Ermənistanın keçmiş təhsil naziri, Daşnaksütyun partiyasının üzvü Spartak Seyranyan hələ 2021-ci ilinəvvəlində söyləmişdi: "Azərbaycan ordunu gücləndirəndə bizimkilər rəqs edir, flaşmob keçirirdilər.



Nəticə göz qabağındadır. İndiyə qədər "Qars nə oldu", "Sarıqamış nə oldu", "dənizdən dənizə Ermənistan nə oldu" deyirdik, bundan sonra "Qarabağ nə oldu" da əlavə olundu.

Artıq Qarabağ yoxdur, biz dənizdən-dənizə Ermənistan haqqında danışırıq". Görünən odur ki, bu gerçeyi artıq ermənilər anlamağa başlayır.

Adalet.az Aysor.am-a istinadən xəbər verir ki, erməni siyasi şərhçi Romella Mnatsakanyan hazırkı durumu şərh edərkən bildirib ki, artıq "artsax" yox oldu, növbə Ermənistanındır:

"Türkiyə NATO-da ikinci güclü dövlətdir və böyük nüfuza malikdir. Rusiya ilə arasında genişmiqyaslı müharibə başlasa, NATO Ankaraya tam dəstək olacaq. Buradan isə Ermənistanda da revaşist qüvvələr qalib gəlsə, bu, bizim dövlətin sonu olacaq. Ermənistan da "artsax"ın arxasınca məhvə məhkumdur. Biz Azərbaycanın növbəti qalibiyyətinin şahidi ola bilərik. Rusiyanın isə Ermənistan vecinə olmayacaq, çünki başı özünə qarışacaq".

Qeyd edək ki, ötən aylarda İrəvanın mərkəzində Rusiyaya qarşı "satqın Rusiya" pankartı açıb, aksiya keçirənlər haqqında tanınmış politoloq Qriqori Trofimçuk 1 in.am erməni portalına müsahibəsində bu sözləri söyləmişdi:

"Rusiya əlini üstündən çəksə, Ermənistan postsovet xəritəsindən silinəcək. Özü də təkcə Ermənistan yox".

***P.S.** Bu o deməkdir ki, Ermənistan sadəcə Rusiyaya lazımdır. Rusiya isə dünyada nüfuzu sürətlə aşağı düşən, çökdürülən, çökən bir ölkədir. Yəni, Ermənistan artıq heç Rusiyaya da lazım deyil... Nəhayət " Ermənistan heç kimin vecinə deyil" gerçəyini ağlı olan ermənilər anladılar...*

**Əntiqə Rəşid**

## *Piyadalar qaydaları pozur*



**Bu gün əksər piyadalar Bakı şəhərində yol hərəkəti qaydasını kobud surətdə pozurlar. Onlar təyin olunmuş yerlərdən, yerüstü və yeraltı keçidlərdən deyil, avtomobillərin sıx hərəkət etdiyi yollardan keçirlər. Xüsusən də gecə saatlarında yollar yaxşı işıqlandırılmayanda piyadaların bu cür qayda pozuntusu onların vurulması ilə nəticələnir.**

Heç kimə sirr deyil ki, son zamanlar Bakı şəhərində piyadavurma halları xeyli artıb. Onun bir günahı sürücülərdə isə, digər günahı piyadalardadır. Son bir neçə ayda yol hərəkəti qaydasını pozan və təyin olunmuş yerdən keçməyən minlərlə piyada 20 manat civarında cərimə olunub. Bu isə o deməkdir ki, piyadalar yol hərəkəti qaydasını pozmaqda davam edirlər. Yol hərəkəti qaydasının pozulması isə bir çox halda ölümlə nəticələnir.

**Emil FAİQOĞLU**

*Emin Piri*



# Niyə elə demişdi?

***Bəzən keçmişdən xatirələr boylanır. Ya da hansısa keçmişdən söz insanın qulaqlarında pıçıldanır.***

***Səbəbini bilməsən də, uzun illər sonra çözməsən də.***

***Məktəb şəkillərinə baxırdım. Bir hadisə yadıma düşdü. Doqquncu sinifdə oxuyanda mənə aşağı qiymət yazılanda bir qız mənə görə müəllimlə dalaşırdı.***

***Səbəbini bilmədiyim halda həmişə hər yerdə tərifləyirdi məni.***

***Həmin zamanlar "Tusi" klubumuz vardı. Mənsə kapitanı idim. Yarışlara gedərdik.***

***Həmin sinif yoldaşım qızsa getdiyimiz bütün yarışlara azarkeş kimi gələrdi.***

***Qəzetdə şeirim çıxardı, kimsə almazdı, heç özüm də almazdım. Amma o alardı, hətta gətirib nümayişkərcəsinə sinifdə oxuyardı. Sırf mən görəndə.***

***Anlaya bilmirdim, niyə belə edir. Doqquncu sinfin sonunda səbəbi soruşdum ki, niyə belə edir. Bu tariflər, məni müdafiələr, şeirim çıxan qəzeti almaq, yarışlara tək azarkeş kimi getmək, bütün bunlar nə üçündür?***

***Mənə baxdı və hamının içində dedi;***

***Emin, bəlkə də böyük adam olassan, amma sən eşşəksən, eşşək də qalacaqsan...***

***Doqquncu sinfin sonunda sinifdən çıxdı necəsə. Səbəbini yenə bilmədim. Onuncu sinfi yrı sinifdə oxudu.***

***Şəklə baxdım yadıma düşdü, onun etdikləri və sonda dediyi söz.***

***Hələ də düşünürəm ki, niyə elə demişdi?***

---

# Təhsilimiz deputatın gözü ilə: "Georgi lenti", "Xomeyni" mahnısı, cəzasızlıq...

**Yəqin unutmamısınız: Ötən ay paytaxdakı 164 nömrəli orta məktəbdə şagirdlərin sinəsinə "Georgi lenti" yapışdırılaraq 9 may tədbiri keçirildi. "Georgi lenti" bugünkü gündə Rusiyanın imperiya simvollarından biri hesab edilir.**

Məlum oldu ki, məktəbin direktoru Kəmalə Ənvər qızı Qədirovadır. "O, "Tərəqqi" medalı almış, Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirovun həyat yoldaşıdır. Hətta məktəb 2010-cu ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "Ən yaxşı məktəb" müsabiqəsinin qalibi olub.



Olayla bağlı adıgedən məktəbdə cəzalandırılan, "xəbərdarlıq", "töhmət" alan "gül üzünə püff" deyilən bir məsul şəxs olmadı.

Bir sözlə, "Georgi lenti" ilə bağlı məktəbdə heç bir tədbir də baş vermədiyi üçün məsələ tezliklə unuduldu. ( Olsaydı ictimaiyyətdən gizli qalmazdı)

Daha sonra Mərkəzi Aran Regional Təhsil İdarəsi Yevlaxda - 1 saylı orta məktəbdə müəllimin şagirdlərə dini mahnı oxutduğu görüntülərlə bağlı sosial şəbəkələrdə böyük bir ajiotaj yarandı.

Məlum oldu ki, məktəbin riyaziyyat müəllimi dərsdən sonra 4 uşağa İranın ali dini lideri Xameneyiyə həsr olunan dini mahnı oxudaraq onları videolentə alıb. Məsələ ilə bağlı araşdırma aparılıb və məktəbdə təlim-tərbiyə prosesini, idarəetməni düzgün təşkil etmədiyinə görə təhsil müəssisəsinin direktoruna töhmət verilib.

Həmçinin tədris proqramına və fənninə aid olmayan materialları təbliğ etdiyinə görə müəllimə sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.




Hər iki hadisə Azərbaycan ictimaiyyətinndə narahatlıq doğuran , onu qıcıqlandıran nüanslardı. "Georgi lenti" in mahiyyəti də İranın ali dini lideri Xameneyiyə həsr olunan dini mahnı qədər təhlükəlidir.

Etiraf edək ki, birinci olayın qarşısı alınmadı deyə , ikinci olay da baş verdi.

Sual olunur: 164 nömrəli orta məktəbin müdiriyyəti niyə cəzalandırılmadı ki, Yevlax 1 saylı orta məktəbdəki hadisə o cəzasızlığın təzahürü kimi ortaya çıxdı. 164 saylı məktəbin müdiriyyətinə niyə töhmət verilmədi?Axı problemin özəyi məhz ordan qaynaqlanır...

Adalet.az modern.az-a istinadən xəbər verir ki, məsələ ilə bağlı Milli Məclisin deputatı Etibar Əliyev iradlarını bildirib. "Azərbaycan məktəbləri əsl poliqona çevrilib" deyən

E.Əliyev qeyd edib ki, uşaqlarla "Georgi lenti" tədbirindən sonra dini mahnıların oxudulmasına başlanılıb: "Nazirlik Bakı şəhəri 164 nömrəli məktəbin direktorunu alqışladı, Yevlax şəhər 1 nömrəli məktəbin direktoruna isə töhmət verildi.

Bunlar təsadüfən qeydə alınanlardır. Məktəbə yaraşmayan hərəkətlərin sayı-hesabı yoxdur. Məktəb monopolistlərinin hər biri öz direktorunu qoruyur.

Bakı məktəb direktorlarının bildirdiyi kimi bir məktəb monopolisti də var, lakin onu gizlədirlər.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müavini Xəyalə Əhmədzadə. Yuxarıdakı dost və aşnalarına arxalanaraq idarə içində idarə yaradıb. Bağça monopoliyası da ona verilib. Deyirlər ki, kəsdiyi başa zaval yoxdur. Direktor təyinatı məsələsini anındaca həll edir Fuad Babayevlə rəqabətdə irəli də keçə bilib".

"Məktəbi dağıdanlardan qoruyaq!", - deyə deputat sonda çağırış edib.

Qeyd edək ki, məktəblərdə tez-tez bıçaqlanma və intihar hadisələri, eyni zamanda müəllim-şagir d arasında insidentlər baş verir.

Ötən ay Təhsil Nazirliyinin mətbuat katibi Cəsarət Valehov Binə qəsəbəsində yerləşən 218 saylı orta məktəbdə, bundan əvvəl isə müxtəlif təhsil ocaqlarında baş verən bıçaqlanma hadisələrinin olduğunu vurğulayıb.

**C.Valehov həmçinin Zəngilan rayonu 35 nömrəli məktəbdə musiqi müəlliminin VIII sinif şagirdini döyməsini də təəssüflə qeyd edib.**

**Əntiqə Rəşid**

---

# Azərbaycan polisinin işıqlı siması...

## Sınaqlardan çıxan ömür...

**Mənim də bir tərəfim laçınlıdı - Rahib Qarayev tərəfimi deyirəm. O Rahib Qarayev ki, polis nəfəri olub, polis leytenantı olub, polis polkovniki olub, amma bir tərəfi həmişə şeir, poeziya olub. Qələmi deyirəm, elə mənim də könlümü, taleyimi bağladığım qələm.**

... Ötən ilin bir gecəsindəki tanışlıq "Ötən ilin son gecə"sinə qədər gətirib çıxardı bizi, polkovnik!

İsti avqust günlərinin birində işdən evə gələndə həyətimizdə məni sən qarşıladın. Heç ağlıma gəlməzdi ki, uşaqlığımdan bəri adı evimizdə böyük sevgi, ehtiramla çəkilən, imzası evimizdə mənə ən doğma guşə olan kitabxanamızdan üzümə təbəssüm edən Rahib Qarayev bir gecə qapımızı döyəcək. Özü də təsadüfən. Təsadüfən deməyimə baxma, əslində, təsadüflərə inanmıram. Taleyimdən bircə ona görə razıyam ki, yaxşı adamları tanımaq şansını mənə əsirgəməyib. Bəzən elə bilirəm bütün yaxşı adamları mən tanımışam, başqalarına kimsə qalmayıb.

### *Bir yaşdan sonra insan ürəyinin üstündə cib axtarır...*

Adam tanıyıram, bütün gücünü səfərbər edib özündən şair yaradıb, adından şeir yazdırıb, adam görmüşəm pulu var, bilmir hara xərcləyə, nasir olub, hekayə yazdırıb, roman çap etdirib. Polkovnik də tanıyıram cibindən şeir çıxır. Zamanla qəzetdən oxuyub bəyəndiyin şeirləri kağıza köçürüb cibində saxladığını bilirəm. Hə, bir dost diliylə desək, bir yaşdan sonra insan ürəyinin üstündə cib axtarır, polkovnik...

Bizim redaktor müavini səni tanıyanda "mənə elə gəlir polkovnikin iki ürəyi var"- demişdi. Doğrudan da... biri ən çətin situasiyalarda asayişin keşiyində polis kimi dayanmağa köklənir, digəri isə daim söz, sənət eşqi ilə çırpınaraq səni hər kəsə doğma bir insana çevirir.

Sən cibindən çıxan solğun sətirləri oxuduqca düşünürürəm, polis hara, şeir hara? Həm də düşünürəm, polis şeir oxumazmı? Oxuyar, amma polis həm də soyuqqanlı olar. Polisin şeiri də, poeziyası da, hekayə, povesti də hadisədi axı. Polis də var şeir onun üçün hadisədi - sənin kimi, Qarayev.

Axı Sən təkcə yaxşı adamlara yox, yaxşı misralara də tapıntı kimi baxırsan.

### *Həyat belədi... hər şeyin cibi var, ürəkdən başqa*

Hər dəfə internetdə ürək videolarına baxanda təəccüblənmişəm: "Aaa, ürək budur? Bir əlçimdi ki..." demişəm. Dağ boyda bildiyim ürəyi ovuc içi boyda görmüşəm. Sənin kimi adamları görəndə isə əksini düşünmüşəm, ovuc içi qədər ürəyi dağ boyda görüb, "bu boyda ürək olar?" demişəm...

Olanda olur, polkovnik. Ürəyin cibi yoxdur dedim, amma bəzi adamların ürəyinin də cibi var deyəsən. O "cib" ki orda 30 illik həsrətlə bərabər, həyata, insana, insanlığa, təbiətə, sözə, sənətə, qələmə sevgi həmahəng



olub. Sevgin də, həsrətin də bir ürəkdən qat-qat böyükdü sənin.

Hər dəfə gözün yol çəkdikcə, görən deyər, bəs bir polis polkovniki ürəyindəki Mikayıl Müşfiq küçəsindən elə indicə sola buruldu... Elə asta yeriyirsən, elə bil cibində gəzdirdiyin misralar gizli pasport kimi indicə üstündə tutulacaq...

Bəli, adam var şeir onun ikinci "pasport"u - gizli kimliyi, çoxunun sezə bilmədiyi tərəfidi. Bax, biz həm də o tərəfdən qohumuq, polkovnik. Necə ki, ruhuna doğma adamları "qəlb yoldaşım" deyib çağırırsan. Necə də haqlısan. Bizim kimi adamlara arxayın olunmaz, hər an cibimizdə şeirlə tutula bilərik...

### *Sevginin ömrü bir an, qalanı xatirədi...*

Rahib Qarayevin kimliyin tanıyan çoxdu, sənin ölkə üçün hansı nüfuz sahibi olduğunu çoxu yaxşı bilir... Ona görə də onları yazmayacam, səni hamının tanıdığı tərəfindən yazmaq istəmirəm.

Qarayev olsan da, üzü ağ adamsan Sən. Keçmişinin qarşısında o qədər üzüağsansa qələmin həmişə xatirələrdən yazır. Hər dəfə "525"də yazıların oxuduqca elə bil kimsə qulağıma astaca pıçıldayır ki, bu solan yarpaqların qalanı xatirədi. Laçından qaçqın düşən xatirələr, yenidən Laçına qayıdıb yerini-yurdunu tapmayan xatirələr.

"Laçına getmişdim" yazırsan. "Laçına getmişdim"i oxuduqca təəssüf edirəm ki, Laçına getmisən, amma Laçına qayıda bilməmisən.

Getdiyin Laçında "Taksi Nəcəf" yoxdu. Deməк, səni qarşılayan da yoxdu heç. Bahadur dayını axtarırsan, məlum olur ki, Bahadur dayı "Kəndə gec-gecə gəlirsən a, bacıoğlu" deməyəcək sənə... Məlum olur ki bu Laçın o Laçın deyil. Laçın qocalıb, gənc polis işçisini hər dəfə fərəh, sevinclə qarşılayıb əlini sıxan Laçının gözü yol çəkir indi...

Mən yarpaqların dilini bilirəm, - deyir.

Məsələn, "xış-xış",

yə'ni "aman ayrılıq əlindən!"

Sən hər yerdən rütbəylə qayıdırsan; dostluqdan, etibardan, sədaqətdən...

İndi fikir verdim ki, bütün xitablarım "Siz"lə başlayır. Geri qayıdıb hamısını bir-bir "Sən" eləmişəm. Özünü qələmə doğma bilən adama özünü yad bilməyəsən deyə... Axı bizimki həm də qələmdaşlıqdı...

Qələmdaşlıq deyirəm, amma səndə nəsə ayrı bir kəramət var. Fariz müəllim hər dəfə təəccüblənir.

Deyir, polkovnik hamıya ayrı-ayrılıqda diqqət göstərir, dağların, dərələrin, təbiətin hər guşəsinə bələd olduğu kimi, insan duyğularının da hər sətirinə bələddir. Adam dəniz kimidir, sahilə təbəssüm atan hər dalğasıyla həyata sevgi oyadır. O qədər qayğı, nəvaziş göstərir ki, deyirsən, mən niyə belə ola bilməyim?

Çobanoğlu haqlıdı. Deyirik, amma ola bilmirik. Çünki səndə ulduz işığı var, polkovnik - polis poqonundakı ulduz işığı... O qədər duru, aydın, işıqlı adamsan ki, bir göz qırpımında doğmalaşmağı bacarırsan. Atatürkün türk polisinə sözdən biçdiyi qiyafə necə də əyninədir sənin. "Polis əsgər qədər disiplinli, hüquqçu qədər ədalət adamı, bir ana qədər şəfqətli olmalıdır" deyirdi Atatürk.

Hə, eynən sənin kimi... Hər istəyimizə dediyin "baş üstə"lər kədərləndirir məni. Başım da ağrıyanda istəyirəm yazam, başım ağrıyır, başıma tapşırasan məni. Ürəyim ağrıyanda istəyirəm zəng vurub bir zənginlə ürəyimə tapşırasan məni. Xətrimə nəsə dəyəndə istəyirəm daxili nömrəsini yığıb kövrəkliyimə tapşırasan məni...

Hüquqşünassan, polkovniksən, DİN-in Şəxsi Heyətlə İş İdarəsinin sabiq rəisisən, jurnalist, qələm adamı, yazıçısan, daha ötəsi, sən qohumsan. Gör adama nə qədər doğma tərəfin var. Amma mənim üçün sən dostsan, yəni bütün bu sadaladıqlarımın fövqündəsən. Dostluq yeganə libasdır ki, dünyanın ən usta dərzisi də o libası insanın üstünə biçə bilməz...

Sən dost adamsan, polkovnik... hardan bilirəm? Yeni ilin ilk günüydü. Atam qarşısına qoyulan yeməyin yanına kiçik bir badə qoydu. Fikirləşdim yəqin kiminsə sağlığına içəcək.

...İçdi, amma deyəsən, sağlığına yox. Çünki qəribsəmişdi... Mənsə atamın dost itirən yaşına təəssüflənib dost itirməyə düşməyən yaşıma sevindim açığı.

Atam dünyadan köçən dostlarını xatırlayıb badəni qaranəfəs başına çəkəndə "bir dostun yoxdumu ki, sağlığına içəsən?" zarafatımdan qalmadım. Mən o biri otağa keçib qayıdanda atam Sənlə danışırdı. Özü də sağlığına içə-içə. Demək, mən dost deyəndə atamın yadına Sən düşmüsən.

Hə, polkovnik, məsələ belədi ki, indi mən də dost deyəndə yadıma Sən düşürsən. Xatirələrindən danışanda, "əsgərlikdən rütbəylə qayıtdım", deyirsən. Sən hara getsən rütbəylə qayıdırsan; dostluqdan, etibardan, sədaqətdən... Bunlar hərəsi bir sınaq körpüsüdür və indi sənə sınaqlardan çıxmış ömür də demək olar...

...Düzü, haqqında hələ aylar öncə yazdığım bu yazını çapa vermək üçün bir bəhanə axtarıb doğum gününü gözləsəm də, açığı, bir tərəfdən də yazını çapa verməyə tərəddüd edirdim. Hələ tamamlamadığım yazımın ilk oxucusu həmişəki kimi həmkarım Çobanoğlu oldu. Nə yaxşı ki, yazıda işıq gördü və sanki duyğularım, qələmim bir az da işıqlandı. Bir daha əmin oldum ki, mən elə doğrudan da işıqlı bir aləmdən, işıqlı bir insandan yazmışam. İndi bir sual da beynimi məşğul edir. Axı insanı sevdirən nədir görəsən? Bir az fikirləşsəm, bir çox keyfiyyət, xarakterin bir çox təzahürünü sadalaya bilərəm. Amma bütün bunlar kiçik görünə bilər. Axı daha böyükləri var - insanı sevdirən şücaəti, mərdliyi, vətənpərvərliyi, şərəfi, fədakarlığı...

Polkovnik, sən həm də bir mənəviyyat insanı olaraq bütün bu uca keyfiyyətlərə sahibsən. Sənin ən böyük var-dövlətin, elə ən böyük silahın da bunlardır. Qarşılaşdığın hər bir adamı özünə dost edə bilirsən. Mənə elə gəlir ki bunun üçün öncə bizi əhatə edən hüdudsuz həyatın özü ilə dost olmaq, ona qırılmaz sevgi bağlarilə bağlanmaq gərəkdir. Nə xoş sənə ki, həyatı nə qədər sevirsənsə, həyat da səni bir o qədər sevir.

Biz də bu həyatın bir parçasıyıq. Bu sevgidə, bu istəkdə bizim də payımız var. Bir günəş qədər, heç bir ay qədər olmasın, bir ulduz işartısı qədər olsun; hər halda, bu böyük sevginin, bu böyük dostluğun bir zərrəsidir. Bu düşüncə zərrələri sözə çevrilib qələmimdən keçəndə mən də xoşbəxt oluram. Bəzən bir anın xoşbəxtliyi bir ömrün xoşbəxtliyinə səbəb ola bilir...

**Bu gün sənin günündür. Elə sabah da sənin günündür, polis baba. Sən 62 yaşını qeyd edirsən, Azərbaycan polisi isə 104-cü yaşını. Nə xoş sənə ki, Azərbaycan polisinin 104 illik fəaliyyətinin 35 ilində adın, xidmətin, əməyin, fədakarlığın, özümüzü belə əmin-amanlıqda hiss etməyimizdə böyük payın var...**

**Təranə Əlizadə**

---

# *Mərkəzi Kitabxanada "Vətəni yaşadan oğullar" adlı tədbir keçirilib*



**İyunun 24-də Sumqayıt Regional Mədəniyyət idarəsinə tabe olan Səməd Vurğun adına Mərkəzi kitabxana və AYB-nin Sumqayıt bölməsinin birgə təşkilatçılığı ilə 26 İyun Silahlı Qüvvələr Gününə həsr olunan "Vətəni yaşadan oğullar" adlı tədbir keçirilib. AYB-nin sədri Gülnarə Cəmaləddinin aparıcılığı ilə keçirilən tədbirdə şəhid ailələri, şəhərimizin tanınmış şairi, yazar qazilər iştirak edib. Tədbir dövlət himnimizin səslənməsi ilə başlanıb. Sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Gülnarə Cəmaləddin 26 İyun Silahlı Qüvvələr Günü ərəfəsində keçirilən bu tədbirin nə qədər önəmli olduğunu, bu günün sevinc hissi ilə qarşıladığımıza görə şəhidlərimizə, qazilərimizə bir ömür boyu minnətdar olacağımızı qeyd edib.



Tədbirdə iştirak edən şəhid anası və qazilərimizə söz verilib.

İlk olaraq söz Sumqayıt Regional Mədəniyyət İdarəsinin inspektoru və şəhid anası Ceyran Həsənovaya verilib. Ceyran xanım çıxışında qeyd edib ki, biz şəhid anaları üçün nə qədər ağır olsa da məhz igid oğullarımızın sayəsində 30 illik həsrət qaldığımız torpaqlara qovuşduq. Ceyran xanım dövlətinin qayğısını hər zaman hiss etdiyini, şəhid və qazilərimizə göstərilən diqqəti də qeyd edib.

I Qarabağ müharibəsinin qazisi mayor Vüsal Nəzərov, şəhid analarından Nazif Mədinovun , Rüfət Mustafayevin, Abdullah Əhmədovun, Elmar Nəsibovun və başqaları xatirələrini bölüşüblər.Şəhid anaları diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

Sumqayıt şəhəri 16 nömrəli tam orta məktəbin direktor əvəzi Sevil Behbudbəyli isə çıxışında 44 günlük müharibə sübut etdi ki, döyüş ruhu olmayan orduya uğur qazanmaqda ən müasir silahlar deyil, ordunun döyüş ruhu, hərbi vətənpərvvərlik əhval -ruhiyəsi yüksək səviyyədə olması gərəkdi. Məhz Azərbaycan Ordusunun yenilməzliyi, qorxmazlığı sayəsində qələbə bizimlə olduğunu qeyd edib. Sevil müəlllimə arzu edib ki, bu qələbəmizi daim qoruyub sxlaya bilək.

Tədbirdə II Qarabağ müharibəsinin qaziləri Emin Piri, Həsən Yaqubov, Elvin İntiqamoğlu və Azərbaycan Yazıçılar İttifaqının üzvü şair, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, pofessor, Rafiq Yusifoğlu iştirak ediblər.

Yazar qazilər tədbir boyunca vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər.

Sonda Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Yeganə Əhmədova tədbir iştirakçılarına öz təşəkkürünü bildirib.

**Tədbirin sonunda şəhid anaları üçün hazırlanan kiçik hədiyyələr onlara təqdim olunub.**

**Emin Piri**

---

# *"Azərkosmos"un ixracdan əldə etdiyi gəlir açıqlanıb*

**2022-ci ilin yanvar-may aylarında "Azərkosmos" ASC tərəfindən 10,8 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib.**

Trend-in İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın iyun sayına istinadən məlumatına görə, "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 87 faizini təşkil edib.

2022-ci ilin may ayında isə "Azərkosmos" ASC dünyanın 31 ölkəsinə 2,3 milyon dollar dəyərində xidmət ixrac edib.

**2022-ci ilin yanvar-may ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 2,8 milyon dollar ilə Böyük Britaniya, 2,2 milyon dollar ilə Fransa, 1,8 milyon dollar ilə Lüksemburq, 1,1 milyon dollar ilə BƏƏ və 0,6 milyon dollar ilə Pakistan qərarlaşıb.**

---

# «Azıx mağarasını şagirdlərimdən çox özüm görmək istərdim»

***Həmsöhbətimiz İmişli rayonu, Vətən Novruzov adına Sarıxanlı tam orta məktəbinin tarix müəllimi Aysel Ağamalıyevadır.***

**- Adətən xanımlar arasında tarix fənnini tədis edənləri barmaqla sayılacaq qədər az görürük. Səbəb nə ilə bağlıdır? Tarixin çətinliyi, ya tarixin xanımlar tərəfindən maraqsız görünməsi?**

- Məncə də çətinliyi. Düşünürəm ki, bu fənni sevən insanlar xaraktercə möhkəm, iradəli, həmçinin də vətənpərvərlik hissləri güclü olan insanlardır.

**-Bəzən deyirlər müəllimlərçün məktəb repetitor hazırlığına uşaq yığmaq üçün "bazar" rolunu oynayır.**

-Xeyr, belə deməzdim. Məktəb təlim-tərbiyə ocağıdır, bazarla da heç bir əlaqəsi yoxdur və olmamalıdır da. Məktəbin bu cür müqayisəsi heç də xoşagələn deyil. Biz müəllimləri oxuduğumuz universitetlər deyil məktəb formalaşdırır, bir müəllim kimi yetişdirib cəmiyyətə təqdim edir. Repititor hazırlığına gəldikdə isə görərik ki, çox vaxt şagirdlər onlara məktəbdə dərs keçən savadlı müəllimlərin deyil, digər müəllimlərin hazırlığına üstünlük verirlər. Bu da daha çox həmin müəllimlərin "özünü reklam"larının güclü və dost-tanışlarının çox olmasından irəli gəlir.

**- Bu ildən "Zəfər tarixi" tədris olunur. Tarix müəllimi olaraq o dərsliyə nələri əlavə etmək istərdiniz?**

-Bu dərs ilində 9-cu siniflərə mən tədris etdim həmin fənni və deyərdim ki, əlavə edəcəklərim və əksildəcəklərim çox olardı bu dərslikdə. Dərsliyin yarıdan çox hissəsi Azərbaycan tarixi dərsliyində olan mövzulardır. Bu qədər təkrarçılığa ehtiyac yox idi. Onsuz da şagirdlər o mövzuları əksəriyyətini oxuyublar, məlumatlıdırlar və 10-11-ci siniflərdə də həmin mövzular yenidən onlara təkrar tədris ediləcək. Əlavə edəcəklərimsə ondan ibarət olardı ki, Vətən müharibəsində şəhid olanların hər biri haqqında qısa məlumat verilərdi, ən azından adları, doğum tarixi və şəhid olduqları tarix yazılardı. Məncə bu elə çətin deyildi və dərslikdə çox yer də tutmazdı. Həmçinin daha böyük qəhrəmanlıqlar göstərən şəhid və qazilərimizin hər birinin keçdiyi döyüş yolu haqqında da mövzular əlavə edilməli idi. Dərslik gələcək illərdə yenidən nəşr olunanda bütün bunları nəzərə alarlar yəqin.

**- Şəhər məktəblərində sinifdə şagirdlərin çoxluğundan şikayətlənirlər. 45 dəqiqə ərzində hər bir şagirdlə məşğul olmaq, maraqlanmaq, üstəgəl digər məsələlərə vaxt çatmır. Siz bu prosesi necə idarə edirsiniz? Sizin məktəbdə durum necədir? Düşünürəm ki, az şagirdli məktəblər kənd şagirdləri üçün bir çox məsələlərdə əla şansdır.**

-Əlbəttə, kənd məktəblərində hər sinifdə bu qədər çox şagird olmur. Bizim ata-analarımızın dövründə olub, o da ki o zaman hər ailədə ən azından 7-8 nəfər uşağın olması ilə bağlıdır ki siniflərdə də şagirdlərin sayı 40-ı keçirdi. İndi isə belə deyil. Mən dərs keçdiyim siniflərdə şagirdlərin sayı 18-25 nəfər arası olur. Bəli, bunu bir şans saymaq olar şagirdlər üçün.



**- Elmi öyrənməyin iki yolu var. Praktiki və nəzəri. Praktiki yaddaşa həkk olunur. Məsələn, düşünürəm ki, Soyqırımdan danışanda Qubaya səfər etmək, arxeloji qazıntılardan danışanda qazıntılar aparıldığı yerə getmək və ya Qobustana səfər( hələ Azıx mağarası da işğaldan azad olunub) daha effektiv olar. Ümumiyyətlə, turlar olurmu?**

-Bəli, düzgün vurğuladınız. Praktiki daha yadda qalan olur. Mən də bir tarix müəllimi ki, çox istərdim bu cür turlar təşkil olunsun. Amma hələ ki, bu baxımdan geri qalır çox zaman kənd məktəbləri. Azıx mağarasını isə şagirdlərimdən çox özüm görmək istərdim deyərdim. Çünki mən də şagirdlərim kimi həmişə kitablardan, dərsliklərdən məlumat almışam bu mağara haqqında. Ümumiyyətlə, bütün işğaldan azad olunan ərazilərimizi əyani şəkildə gəzib görmək hamımızın arzusudur.

**-Ölkənin dili, tarixi ixtisasdan, təhsildən aslı olmayaraq hər kəsin müəyyən hadisələri bilməsi labüddür. Amma elə insanlar görürük ki, hətta yaxın tariximizdə baş vermiş Qarabağ həqiqətlərindən belə xəbərsizdir. Burda günahkar məktəblərdir, yoxsa kim?**

-Fikrimcə Qarabağ həqiqətlərini bilməyən insanlar o qədər də çox deyil. Xəbərsiz olanların da günahı heç kimdə yox, özlərindədir. Çünki indiki dövrdə, bu qədər informasiya vasitələrinin olduğu bir zamanda ən yaxın tariximiz olan Qarabağ həqiqətlərini bilməmək eyib olar, nəinki günah.

**-Təbii ki, minillikləri bir dərslik kitabıyla başa salmaq öyrətmək mümkün deyil. Digər vəsaitlərdən istifadə edir, şagirdlərə hər hansı mənbələr tapşırırsınız?**

-Bəli, əlavə mənbələrdən də istifadə edirəm və şagirdlərə evə tapşırıq verərkən də əlavə mənbə kimi digər tarixi mövzularda yazılmış kitablardan, internetdən araşdırmalar aparıb təqdimat hazırlamaqlarını tapşırıram.

**-Test üsulu şagirdlərdə məntiqi deyil, sırf nəticəyə hesablanan, universitetə daxil olmaq, qiymət almaq rolunu oynayır.**

**Xüsusən də praktikaya gələcəyə hesablanmayan qısamüddətli əzbərçilik. Eynilə müəllimlər də işinin rahatlığı və ya digər amillərə görə test üsuluna qaçır. Bu barədə fikriniz nədir, nələr məsləhət görərdiniz?**

-Deməzdim bütün test tapşırıqları əzbərçilik tələb edir. Baxır testin necə tərtib edilməsinə. Summativlərdə məntiq tələb edən qapalı və açıq testlərdən, xəritələrdən, cədvəllərdən stiuasiya tipli testlərdən də istifadə edirik.

Əslində summativ keçirərkən yalnız test üsulundan deyil, digər üsullardan istifadə edilməlidir.

**Söhbətləşdi:**
**Emin Piri**

---

# *Norveç imtina edir, Rusiya təhdid edir*

**Norveç Şimal Buzlu okeanının Şputsberqen arxipelaqına Rusiya yüklərinin göndərilməsinə icazə vermir. Moskva onu cavab tədbirləri görəcəyi ilə hədələyir. Ekspertlərin fikrincə bu Kalininqrad vilayətinə qarşı tədbiq edilən blokadaya bənzəyir.**

"Rusiyanın "Artikuqol" da mədənləri şirkətinə Norveçin materik hissəsindən Şputsberqen arxipelaqına yük daşımalarına icazə verilmir. Norveçin NRK telekanalının məlumatına görə, 15 iyun 2022-ci il tarixli Rusiyanın "Surqutsk" sərhəd buraxılış məntəqəsinin rəsmi müraciətinə baxılmaqdan imtina edilib. Rusitadan göndərilən yüklər adada məskunlaşan rusiyalıların - baş konsulluğun və trestdə fəaliyyət göstərən işçilərin normal yaşamaları üçün lazım olan məhsullardan, eyni zamanda lazımi avadanlıqlardan ibarətdir. Bu arxepelaq əslində Norveçə məxsus olsa da, 1930-cu ildən bu ərazilərdə daş kömür yataqlarının tapılması ilə əlaqədar iki qəsəbdə rusiya vətəndaşları məskunlaşıb və bu günədək orda yaşayırlar. Bu qəsəbələrdən ən böyüyü - 500 nəfər yaşayan Barentsburq qəsəbəsidir və baş konsulluq da Şpitsberqen deyilən ərazidə yerləşir. Daha bir qəsəbə - Piramidada elmi təhqiqatla məşğul olan, təxminən 30-40 adam yaşayır.

Aprel ayının sonundan Rusiyaya qarşı sanksiyalar tədbiq edən Norveç hökuməti, Şpitsberqen üçün güzəşr olunacağını vəd etmişdi.

**Bu arxipelaqa qarşı qadağalar tədbiq olunması ilə bağlı Norveçin Rusitadakı səfiri Solveyk Rossebe xarici işlər nazirliyinə çağrılıb və ona qarşılıqlı cabab tədbirinin çox sərt olacağı barədə xəbərdarlıq edilib. Yəni Rusiya adəti üzə Norveç hökumətini hədələyib.**

**Rüstəm Hacıyev**

# Şuşaya qayıdışın bələdçiləri

**İndi sizə təqdim etdiyim xatirələrin izi 2020-ci il noyabr ayının 6-na gedib-çıxır. Həmin gün 44 günlük Zəfər müharibəmizin iştirakçısı və şahidi kimi Şuşaya doğru dumanın qaranlığını yarıb-gedən oğulların önündə onlar addımlayırdı. Bu adamlar Şuşanın həsrətini 30 ilə yaxın ürəklərdə daşımış, ona qovuşmaq üçün hər an döyüşə hazır olmuş və bir də yorulmaq bilmədən əllərini Allaha açıb, dualar etmişdilər. Və Allah da onların duasını eşitmiş, Ali Baş Komandanımız da 2020-ci il sentyabr ayının 27-də torpaqlarımızın işğaldan azad edilməsi üçün qətiyyətli addım ataraq özünün tarixi əmrini vermişdi...**

Müharibə başlayan kimi xalqımız çağırış məntəqələrinə, hərbi hissələrə, Ali Baş Komandana müraciətlər ünvanladı. Hamı döyüşə getmək, hamı torpaqlarımızın azadlığında iştirak etmək istəyirdi. Xalq öz sərkərdəsi ilə, öz ordusu ilə birlikdə dayanmışdı. Bax, həmin o məqamda indi barəsində söhbət açacağım, əslində isə onların dediklərini sizə çatdıracağım qəhrəmanlar da tam hazırlıq vəziyyətində idilər. Çünki...

Orduxan Kərimovu qarabağlılar, şuşalılar yaxşı tanıyır. O, Şuşada polis şöbəsinə rəhbərlik edib. Necə deyərlər, Şuşanın bütün çığırlarını, bütün giriş-çıxışlarını ovcunun içi kimi tanıyır. Məhz buna görə də döyüş ərəfəsində onu DİN-in rəhbərliyi bu döyüşlərdə bələdçi kimi iştirak etməyə dəvət etdi. Belə bir dəvəti böyük məmnuniyyətlə qəbul edən Orduxan Kərimov, həmçinin onunla birlikdə Azərbaycanın Milli Qəhrəmanı Mövsum Məmmədov, Səməd Məhərrəmov, Vüqar Xuduyev, Faiq Salahov, İlqar Rüstəmli də onunla birlikdə Şuşaya girəcək hərbçilərimizə bələdçilik etmək üçün Şuşa rayon Polis Şöbəsinə toplaşdılar. Burda onu da vurğulayım ki, dəvət edilənlərin hamısı Birinci Qarabağ müharibəsində və yaxud da 2016-cı ilin aprel döyüşlərində iştirak etmişdilər. Həm döyüş təcrübələri, həm də Şuşanı yaxşı tanıdıqları üçün onlara etimad göstərib belə bir tapşırığın icrası üçün üzərlərinə məsuliyyət qoymuşdular.

Bu günlərdə ehtiyatda olan polis polkovniki Orduxan Kərimovla həmsöhbət olduq. O, həmin günləri özünəməxsus bir tərzdə, həm də ömrünün ən yaxşı xatirəsi kimi mənimlə bölüşdü...

***- Mən özümə və Şuşaya gedənlərə bələdçilik edən dostlarıma göstərdiyi etimada görə cənab nazirimiz Vilayət Eyvazova BTİ-nin rəisi Oqtay Rəhimova qrupumuz adından təşəkkürümü bildirirəm. Məhz onların təşəbbüsü ilə Şüşaya getmək, Şuşanın bələdçisi olmaq missiyası bizə nəsib oldu. Deməli, həmin gün, yəni, noyabr ayının 6-da mənim, eləcə də bayaq adlarını qeyd etdiyim dostlarımı Şuşanı yaxşı tanıdığımıza görə Şuşa rayon Polis Şöbəsinə dəvət etdilər. Bizə tapşırıq verildi ki, səhər sübhdən Horadiz şəhərində olaq. Biz ora gələndə qrupumuza Bakı Baş Mühafizə İdarəsindən İlham Kərimov və Cəlilabad rayon Polis Şöbəsindən Əvəz, eləcə də başqa bir təhqiqatçı da qoşulmalı idi. Lakin qrupun təşkilatçıları, yəni, rəhbərlik belə məsləhət gördü ki, əvvəlcə biz beş nəfər bələdçi kimi Şuşaya gedək. Təbii ki, rəhbərliyin qərarı qəbul olundu. Həmin vaxt Şuşa ətrafında döyüşlər gedirdi. Noyabr ayının 7-də komandanlığın tapşırığı ilə mən qrupa rəhbər təyin edildim və Horadiz şəhərindən Şuşa istiqamətinə yola düşdük...***

Yol boyu gördüklərimiz, şahidi olduqlarımız bizi dəhşətə gətirirdi. Düşmən işğal altında olmuş Füzulini, onun kəndlərini elə bir vəziyyətə salmışdı ki, sanki bu yerlər yüzilliklərin xarabalıqları idi. Hətta qəbiristanlıqlar da dağıdılmışdı. Bizi Hadrut qəsəbəsində DİN-in nümayəndəsi təlimatlandırdıqdan sonra qarşımıza konkret tapşırıq qoyuldu. Bildirildi ki, Şuşa ətrafında döyüşlər gedir. Bizim üzərimizə düşən vəzifə ordumuzun Şuşaya itkisiz və vaxtında daxil olmasına kömək etməkdir. Bunun üçün biz şəhərə düşmənin gözləmədiyi yerlərdən daxil olub, orda əsgərlərimizin mövqe tutmasına köməklik göstərməliyik. Qeyd etdiyim kimi, noyabr ayının 7-də günorta Kirs dağının ətəyindən Zarıslı kəndinin üst tərəfində artıq yerləşmiş daxili qoşunlarımız və xüsusi təyinatlılarımız şəhərə girmək üçün tam hazır idilər. Necə deyərlər, həmin mövqelərdən Şuşaya bir nəfəslik yol qalırdı. Hava dumanlı olduğundan biz Şuşaya tərəf nisbətən sərbəst getmək imkanı qazanmışdıq. Amma qəflətən duman çəkildi, belə bir gözlənilməzlik Mahir və Orduxan üçün müəyyən çaşqınlıq yaratdı. Çünki onların gözlərinin qarşısında Şuşa dayanmışdı. Onlar şəhərlə göz-gözə baxırdılar. Özlərinin də dediyi kimi, durduqları yerdən baxanda Daşaltı ayaqlarının altında qalırdı.

Yeri gəlmişkən, xatırladım ki, Orduxan da, Mahir də Şuşada yaşadıqlarından, işlədiklərindən, həmçinin Birinci Qarabağ müharibəsində Şuşanın müdafiəçiləri sırasında olduqlarından bu doğma yerlərin hər qarışı onlar üçün təkcə tanış yox, həm də ömrün bir parçası idi. Ona görə də hələ müharibədən əvvəl - 1982-1990-cı illərdə Şuşa milisinə rəhbərlik etmiş Orduxan Kərimov da özünü bir anlıq həmin o şuşalı günlərdə hiss etdi. Və özündən asılı olmadan kiminləsə danışırmış kimi dedi:

***- Biz gəlmişik, Şuşa! Mən gəlmişəm, Şuşa!***

O, qeyri-ixtiyari səsləndirdiyi bu sözlərin ardınca Şuşada şəhid olan dostlarını da, yaxınlarını da gözünün önünə gətirdi. Özündən asılı olmadan gözləri yaşardı... Bu arada düşmənin minomyot və artilleriyası işə düşdü.



Güllələrdən yayınmaq üçün özlərini yaxınlıqdakı fermaya çatdırdılar. Burda gecənin düşməsini gözləmək lazım idi. Yolun yorğunluğunu çıxarmaq, bir az dincəlmək də pis olmazdı. Amma Şuşa ilə nəfəs-nəfəsə olduqları üçün heç birinin gözünə yuxu getmirdi. Nəhayət, daxili qoşunlar və xüsusi təyinatlılar irəli atılmaq üçün hərəkətə gəldilər. Həmin xüsusi təyinatlıların arasında Səbuhi adlı cavan bir oğlan da var idi. Ermənilər ordumuzun Şuşaya yaxınlaşdığını sanki hiss etmişdilər. Ona görə hər tərəfi aramsız atəşə tutub, elə bil mərmilərlə şumlamağa çalışırdılar. Bu vaxt xüsusi təyinatlılarla birlikdə gələn "Kamaz"ın sürücüsü yaralandı. Biz Sığnaq kəndinə daxil olanda komandan bildirdi ki, Orduxan Kərimov, Zəfər Əliyev və sürücü yolu tam bələdləmək üçün Şuşaya girib-çıxmalıdılar. Bu, təhlükəsizlik üçün, yəni, düşmənin həmin yerlərdə mövqeləri olub-olmamasını dəqiqləşdirmək üçün lazım idi. Noyabrın 8-də gecə Orduxan Kərimov 1992-ci il may ayının 8-də tərk etdiyi şəhərə daxil oldu. Artıq Şuşada olan qrup onlara verilmiş tapşırığa uyğun olaraq ratsiya ilə xüsusi təyinatlıların Şuşadakı kilsədəki alt qatında olduqlarını komandanlığa bildirdilər. Orduxan Kərimovun evi də elə kilsənin yanında olduğundan o, bir anlıq evinə doğru getmək istədi. Amma verilmiş əmri pozmaq olmazdı. Ona görə də xüsusi təyinatlılarla görüşəndən sonra məruzə edildi ki, şəhərə girmək üçün yollar, cığırlar təmizlənib. Öz evinin beş addımlığında dayanan Orduxan görüşdüyü xüsusi təyinatlılara da, onunla birlikdə Şuşaya daxil olanlara da deyirdi ki, tezliklə sizi bu 32 mənzilli binadakı evimə qonaq aparacağam. Elə bu vaxt ona yaxınlaşan hərbçi dedi:

***- Cənab polkovnik. Məni tanımadınız? Mənəm, Səbuhi. Dünən gecə sizi qaranlıqda gördüm, səsinizdən tanıdım.***

Orduxan Kərimov da onu tanıdı. Qollarını açıb qucaqlayaraq, mən də səni tanıdım, - dedi. Əhd etmişdim. Artıq arzuma çatmışam. Şuşa şəhər İcra Hakimiyyətinin binasına bayrağı özüm sancacağam! - deyən Səbuhi sevincindən yerə-göyə sığmırdı.

Şəhərdə döyüş gedirdi. Demək olar ki, erməni tör-töküntüləri, necə gəldi, pərakəndə şəkildə güllə yağdırmaqla xilas olmağa çalışırdılar. Xüsusi təyinatlılarımız və daxili qoşunun nümayəndələri onlara göz açmağa imkan vermirdi. Bu səhnəni soydaşlarımız televiziya yayımlarında yəqin ki, izləyiblər. Görüblər ki, ən ağır döyüşlər şəhər qalasının ətrafında "Kolxozstroy", tar fabriki, "Əjdaha bulağı" yaxınlığında gedib. Bax, elə həmin o döyüşlər gedən vaxtı şəhərə bələdçi kimi daxil olmuş qrup öz gəldikləri yola müəyyən işarələr qoymaqla geri qayıtdı. Çünki onları gözləyirdilər.

Və işarələri də yolların açıq və təhlükəsiz olduğunu göstərmək üçün qoyurdular. Orduxan Kərimov qrup üzvlərinə təkrar-təkrar bildirirdi ki, elə etmək lazımdır ki, bizim qoyduğumuz işarələri düşmən görsə, heç nə anlamasın. Gecənin qaranlığında onlar şəhərdən çıxdılar. Artıq saatın əqrəbləri gecə saat 3-ü göstərirdi. Bu vaxt şəhərə girəcək orduya rəhbərlik edən generalın maşınında Orduxan Kərimov əyləşmişdi. Digərləri isə başqa maşınlarda yer tutaraq Şuşaya doğru hərəkətə başladılar. Hərəkət edən maşınların işıqları söndürülmüşdü. Necə deyərlər, təhlükəsizlik, düşmən diqqətini çəkməmək üçün edilən bu hərəkət böyük risk idi. Ona görə ki, yollar bərbad gündə, qaranlıq, duman da ki bir yandan. Belə bir vəziyyətdə qəzalar da baş verə bilərdi. Bir tərəfdən də ki ermənilər dayanmadan atəş açırdılar. Necə deyərlər, gələn səsləri, eşidilən hər hansı bir səsi də düşmən atəşə tuturdu. Bu vaxt yaxınlıqda pulemyot səsi eşidildi. Bir-birinə baxan Orduxan və Mahir- ikisi də eyni anda dedi:

***- Bizimkilərdir!***

Saat dörd radələrində ay işığı görünməyə başladı. Bu vaxt meşədən çıxan karvan surəti daha da artırdı və Topxanaya doğru yaxınlaşdı. Özündən asılı olmadan Orduxan Kərimov generala dedi:

***- Cənab general. Əla oldu. Əsas yeri keçdik. Bu döngəni və enişi keçməklə biz Daşaltı çayına düşəndə artıq hava alatoran olacaq. Ermənilərin bizi aydın görməməsi üçün surəti bir az artırmalıyıq. Bacardıqca kəndə tez çatmalıyıq ki, itki verməyək.***

Bu vaxt düşmənin PUAları göründü. Generalın əmri ilə karvan surətini bir az da artırdı. Kəndin kandarında düşmən maşınlarımızdan birini vurdu, birini də gecə meşəyə çatanda vurmuşdular. Amma artıq onlar bizə heç nə edə bilməyəcəkdilər. Çünki şəhərə girmişdik. Artıq Şuşada idik. Bir saat ərzində şəhərin beş nöqtəsində postlar qoyuldu. Birinci post Şuşanın aşağı girişində, ikinci Gəncə qapısında, üçüncü bürcdə, dördüncü Qırxpilləkən tərəfdə, beşinci isə Üçmıxda quruldu. Postlar qurulandan sonra rəhbərliyə tapşırığın yerinə yetirilməsi məruzə olundu.

Noyabrın 9-u bütün günü Şuşaya Xan kəndi, Kərkicahan, Daşkənd və Laçın istiqamətindən artilleriya, qrad, minomyot və digər silahlar susmadan şəhərə mərmilər yağdırmağı da davam etdirdi. Lakin ordumuz, xüsusilə, daxili qoşunlarımız və xüsusi təyinatlılarımız şəhəri erməni işğalçılarından azad etmişdi, bayrağımız Şuşada dalğalanırdı. İndi burdan bizi kimsə çıxara bilməzdi.

Bəli, həmin məqamları xatırlayan Orduxan Kərimov onu da vurğuladı ki, həyatımın ən gözəl və ailəmin nəslinin tarixinə yazılacaq anlarını mən həmin gecə yaşadım. Mən Şuşaya qayıtdım. Şuşanın bələdçisi oldum. Bir də ona sevindim ki, qrupumuzda tələfat olmadı, əksinə, göstərdiyimiz xidmətə görə daxili işlər nazirliyinin rəhbəri qrupumuza təşəkkürünü bildirib, bizə geri qayıtmağı tapşırdı.

Hə, bir də bu xidmətimizə görə Ali Baş Komandanımızın əmri ilə Orduxan Kərimova "Vətən uğrunda", Səməd Məhərrəmov, Mahir Əliyev, Faiq Salahov və Vüqar Xudiyevə "İgidliyə görə" medalları verildi. Bunun özü də Şuşaya qayıdışımızın həyatımızdakı ən gözəl nişanəsidi...

**Bəli, Şuşaya qayıdışa bələdçilik etmiş qrupa rəhbərlik etmiş istefada olan polkovnik Orduxan Kərimovun xatirə söhbəti məni də məhz Şuşanın azad edildiyi günə çəkib-apardı. Çünki bu xatirələr hər birimizin ömründə Şuşanın qayıdışı ilə yaşayır.**

**Əbülfət MƏDƏTOĞLU**

*Eminquey*

# "Ətdən tank"ların altında əzilən xalq



***Xalq sevir də, qadanızı alım.***
***Min ildir efirdədir, radiodadır.***
***Xalq öz dilində danışan, davranan bütün teveşniklərə hörmət bəsləyir.***
***O biri Zauru da, bu biri Zauru da, Xoşqədəmi də, Elgizi də, hətta o erməni-budaq danışan tiktoker Natinizi də, gecə kimi, gündüz kimi, qarpız kimi, cızbız kimi sevir sevir, sevir!***
***Hünərin var, biraz ədəbi dildə danış, ya lağa qoyulacaqsan, ya da başa düşülməyəcəksən.***
***Zauru heç kim maliyyələşdirmir, Zaurun cibi xalqdır.***
***Zaurun arxasında heç kim durmur, Zaurun arxasında xalq durur.***
***Zaur layihədir, Zaur, proyektdir, Zaur maşındır.***
***90-cı illərdə gördüyünüz dəmir tanklar indi ətə çevrilib. Ətdən tanklar keçir bu xalqın üstündən.***
***Bu xalq ona zülm verən hər şeydən və hər kəsdən "kayf" tutmaqla barışıb.***
***Biz azərbaycanlıdan çox stokholmluyuq.***
***Biz Hacıbəyovdan çox Mehdizadəliyik.***
***Biz Cavanşir Quliyevdən çox Cavanşir Məmmədovuq.***
***Biz Nadir Əzimovdan çox, Nadir Qafarzadəyik.***
***Zaurun "nur"(çu)una aşiqdir bu xalq.***
***O avtobusda dombalaq aşan xaladır Zaurun fanatları.***
***Evinizin içini qoruya bilirsinizmi bu ətdən tanklardan? Yox!***
***Məktəbdə uşaqlarınıza fars "şipyon"ları İranın ağasına aid mərsiyə soxuşdurur, qoruya bilirlərsinizmi? Yox!***
***İranlılara etiraz Zaurun "nur"(çuluğ)undan gəlir.***
***Siz də Zaura etiraz edirsiniz, amma sabah heç nə olmamış kimi oturub Zaura baxırsınız. Bəs Zaur?***
***O sizi yaxşı tanıyır, çox yaxşı. Sevəcəksiniz!***
***Qatillərinizi, zalımlarınızı, zındıqlarınızı...***

# Osmanlının ən "qüdrətli" xanı Əbdülhəmid!



*Osmanlı imperatorluğunu 33 il təkbaşına saraydan idarə edən Əbdülhəmid xan!*

*İnsanlar onu Türkiyə seriallarında görüb və sevir.*

*O, bir qəhrəmandır!*

*Öz dövründə Rumelini, Balkanları, Kipri və bir çox bölgələri əlindən itirən qəhrəman.*

*1901-ci il.*

*Taxtda Əbdülhəmiddir. Osmanlının daxili və xarici borcları xirtdəyəcəndir.*

*Borclu olduqları arasında iki fransız bankir var - Tubini və Lorando.*

*Milyonlarla qızıldan ibarət borcunu ödəyə bilməyən Osmanlı imperatorluğunu İstanbuldakı fransız səfirliyinə şikayət edirlər.*

*Bu şikayətdən sonra fransız donanması Osmanlıların olan Midili adasını işğal edir.*

*Gömrük daxil, adanın bütün gəlirlərinə əl qoyur.*

*Əbdülhəmid borcu ödəyən kimi donanma geri çəkilir.*

*1878-ci il.*

*Rusiya ilə müharibə var, Osmanlı uduzur. Rus ordusu Şərqdə Qars, Ərzurum kimi şəhərləri ələ keçirir.*

*Plevnenin müdafiəsini yarıb İstanbulun qapısına dirənir.*

*Bugünkü adı Yeşilköy olan Ayastefanosa gəlir və orada beşmərətəbə hündürlüyündə olanda bir zəfər abidəsi inşa edir.*

*Bu abidə 1914-cü ildə (İttihad Tərəqqi dövründə) partladılır, yerlə bir edilir.*

*Əbdülhəmid qorxusundan çarəsiz vəziyyətdədir.*

*İstanbuldakı ingilis səfirliyinə müraciət edir, ingilislər donanmasını İstanbula yollayır, ingilislər rus ordusunu qovur.*

*1908-ci ildə II Məşrutiyyət elan edilir, Əbdülhəmid tərəfindən 33 il əvvəl bağladılan Məclis açılır, 1909-cu ildə taxtdan endirilir və Selanikə sürgün olunur.*

*Hazırladı: Eminquey*
*Mənbə: Sözçü qəzeti*

# Hər uşaq bir az dahi və hər dahi bir az uşaqdır...

**Hər şey uşaqlığımızdan başlayır. Uşaqlıq illəri hər kəsin həssas və kövrək mövzusudur. Uşaqlıq haqqında o qədər bədii əsərlər, rəsmlər və filmlər var ki, bitib tükənmir. Azərbayacan kino tarixində də "Uşaqlığın son gecəsi", "Asif, Vasif, Ağasif" adlı çox uğurlu filmlərimiz var.**

QanunlaInsan hüquqları qanunu 18 yaşdan aşağı olan hər bir insanı uşaq kimi müəyyən edir. 2005-ci ildə YUNİSEF dünyadakı uşaqların ümumi sayının 2,2 milyard olduğunu hesablamışdır. Avropadakı uşaqların sayının bu rəqəmin 1/10-ə bərabər olduğu - təxminən 200 milyon - ehtimal edilir.



Uşaqlar da insandır, buna görə də onların da böyüklər kimi eyni insan hüquqları vardır. Lakin uşaqlar xüsusi qayğı və yardıma ehtiyacı olan biriləri kimi tanınırlar və bu səbəbdən onların "öz şəxsi" insan hüquqları üzrə sazişi - Uşaq Hüquqları Konvensiyası (UHK) vardır.

Uşaq Hüquqları Konvensiyası1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş və 1990-cı ilin 2 sentyabr tarixində qüvvəyə minib. Onu qəbul etmiş ölkələrdə 18 yaşdan aşağı olan bütün uşaqlar üçün tətbiq edilir. Demək olar ki, bütün ölkələr bu sənədi qəbul edib. Yalnız Amerika Birləşmiş Ştatları və Somali dövləti bu Konvensiyanı qəbul etməyib.

İndi isə uşaqlar haqqında bir sıra bəzi maraqlı faktlaıı sizin nəzərinizə çatdırmaq istərdim. Müxtəlif zamanlarda aparılmış araşdırmalara görə orta hesabla uşaqlar gün ərzində 400 dəfə gülürlər. Təxminən 1-3 aylıq körpələr ağlayarkən gözlərindən yaş gəlmir. Hər bir 6-7 aylıq körpə eyni zamanda həm nəfəs ala, həm də udquna bilir. Böyüklər bunu edə bilmirlər. Planetimizdə ən çox kürən uşaqlar Şotlandiyada dünyaya göz açır. Oğlan uşaqları əsasən gündüz, qızlar isə gecə saatlarında dünyaya gəlirlər. Biryumurtalı əkizlərin barmaq izləri tam fərqlidir. Bütün uşaqlar dünyaya gələrkən daltonik olurlar. Yəni onlar yalnız ağ və qara rəngi seçə bilirlər. Qeyri-adi ad verilən oğlan uşaqlarının gələcəkdə psixoloji problemlərlə üzləşmə ehtimalı 50 faizdir. Qızlarda isə belə bir asılılığa rast gəlinməyib.

**Hər zaman uşaqlar - gələcəyimizdir deyirik. Mütləq şəkildə çalışmalıyıq ki, uşaqlara yetərincə sevgi verək ki, gələcəyimiz də sevgi və gözəllik içində bizi gözləsin. Hər birinizə uşaq paklığı qədər paklıq və uşaq sevinci qədər sevinc arzu edirəm.**

**Bünyamin BÜNYADZADƏ**

## *Çauşyan "coşdu": "Aqavnolular burdan çıxmayacaq, sərsəm Paşinyan isə ..."*

**Ötən yazılarımızda xəbər verdiyimiz kimi Livanlı erməni biznesmenlər 2013-cü ildə Gorus-Xankəndi avtomobil yolunun üzrərindəki Azərbaycan kəndi olan Zabuxda qanunsuz olaraq yeni qəsəbə saldılar. Zabux çayının sahilində yerləşən bu kənd Rusiya sülhməramlılarının nəzarət etdiyi "Laçın dəhlizi"ndədir. Ermənilər Zabuxu "Aqavno" adlandırırlar. Hazırda burada 300-ə yaxın erməni qeyri-qanuni şəkildə yaşamağa davam edir. Bunlar əsasən Livan, Suriya, Rusiya, İraqdan köçüb gəlmiş ermənilərdi. Livanlı erməni biznesmenlərə məxsus "Ari" fondunun maliyyəsilə salınan qəsəbədə 150-dən çox ev tikilib. Bir neçə gün əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan İrəvanda onlayn keçirilən mətbuat konfransında Zabuxda məskunlaşmış erməniləri "cin atı"na mindirən açıqlama verdi: "Laçın dəhlizinə alternativ yolun inşası başa çatdıqdan sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən kənarda yerləşən ərazilər Azərbaycana qaytarılacaq"**



Paşinyan hətta bildirdi ki, Azərbaycana təhvil veriləcək Laçın şəhəri və Zabux kəndinin sakinləri mənzillə təmin olunacaq.

Çünki, "Laçın dəhlizi"nə alternativ olan yeni yolun inşası Rusiya, Ermənistan və Azərbaycan arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda öz əksini tapıb. Sənədə görə, Laçından yan keçən və Qarabağın dağlıq hissəsini Ermənistanla birləşdirən yeni yol bu ilin yayında hazır olmalıdır. Yol hazır olandan sonra Rusiya sülhməramlı kontingenti "Laçın



dəhlizi"ndən çıxacaq və yeni marşruta yerləşdiriləcək. Yəni "Aqavno" tamamilə boşalacaq və Azərbaycanın ixtiyarına veriləcək. Adıgedən kənddəki icmanın "rəhbəri" Andranik Çauşyan əvvəllər bu haqda sussa da, artıq susmur və etiraz edir.

Adalet.az Armenia today-a istinadən xəbər verir ki, Andranik Çauşyan deyib ki, "artsax xalqı" evlərini tərk etməyəcək, lazım gəlsə bizi evdən çıxartmağa çalışan Ermənistan hökümətinə qarşı özünümüdafiə taktikasına keçəcəyik:" "Biz Nikol Paşinyanın sərsəm fikirlərindən, danışıqlarından bezmişik. İndi o, bizə evlərin tikiləcəyini və bizim bu kənddən köçürüləcəyimizi bəyan edib. Biz isə bir nəfər kimi buna narazıyıq. Biz burada qalacayıq. İrəvan üstümüzə polis, hərbiçi göndərsə, kənd camaatı özünümüdafiə taktikasını keçəcək. Biz Ermənistanın nəzarəti altında gələcəyimizi görmürük. Biz Paşinyana təslim olmayacayıq",

**Qeyd edək ki, ötən həftə "Hraparak" qəzeti yazdı ki, Xankəndidən Zabuxa gələn vəzifəli bir "məmur" erməni sakinləri ailələri ilə birlikdə kəndi tərk etməyə razı salmaq üçün icma rəhbərilə görüşüb. Köçün bu yaxınlarda gerçəkləşəcəyi gözlənilir.**

Əntiqə Rəşid

# Vəkillər Kollegiyası yeni uğura imza atdı



*Gülşən Salmanova, Bakı şəhər "Mərkəz" Vəkillər Bürosunun direktoru*

**Azərbaycan Respublikasının Vəkillər Kollegiyası qeyri-dövlət,müstəqil,özünüidarə edən və bütün vəkillərin daxil olduğu təşkilat olmaqla,qeyri-kommersiya məqsədilə yaradılmışdır.Azərbaycan Respublikasının Vəkillər Kollegiyası,Azərbaycan SSR-nin 13 noyabr 1980-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan SSR vəkilliyi haqqında Əsasnamə" ilə fəaliyyət göstərmiş Vəkillər Kollegiyasının hüquqi varisidir. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının əsas vəzifəsi hər bir şəxsin hüquq və azadlıqlarının,qanunla qorunan mənafelərinin müdafiə edilməsindən,onlara peşəkar,yüksək keyfiyyətli,vicdanlı hüquqi yardım göstərilməsini təmin etməkdən,vəkillik peşəsinin nüfuzunu yuksəltməkdən ibarətdir. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının təşkili və fəaliyyəti "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu və ona müvafiq olaraq qəbul edilmiş Vəkillər Kollegiyasının Nizamnaməsi ilə müəyyən edilir.**

Car il may ayının 13-də İrlandiyanın paytaxtı olan Dublin şəhərində keçirilən Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasının (CCBE) plenar iclasında Azərbaycan Respublikasının Vəkillər Kollegiyası həmin təşkilata üzv qəbul edildi.Qeyd olunmalıdır ki, CCBE Avropa Şurası və Avropa İttifaqına üzv olan bütün ölkələrin vəkillər kollegiyalarını birləşdirən ən nüfuzlu təşkilatdır. 4 illik məsuldar fəaliyyətin nəticəsi olaraq Azərbaycan Respublikasının Vəkillər Kollegiyası CCBE tərəfindən müstəqil peşə birliyi olaraq rəsmən tanınmış və gərgin müzakirələrin nəticəsində böyük səs çoxluğu ilə təşkilata üzv qəbul olunmuşdur.

Qeyd edilən təşkilat Avropa Şurası və Avropa İttifaqına üzv olan 46 ölkənin vəkillər kollegiyalarını və 1 milyondan çox vəkili birləşdirir. Vəkillər Kollegiyasının CCBE-yə qəbul edilməsi beynəlxalq əlaqələrin qurulmasında böyük əhəmiyyətə malikdir.

Vəkilliyin müstəqil təsisat kimi formalaşması və təşəkkülü Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.Ulu Öndər Heydər Əliyevin 28 dekabr 1999-cu ildə imzaladığı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunla vəkillik tam müstəqil,hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisat kimi formalaşmışdır. 3 noyabr 2004-cü ildə isə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası təsis olunmuşdur.

### *22 fevral 2018-ci il tarixdə*

qəbul olunmuş "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının müvafiq binalar ilə təmin olunması,dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılması və bu sahənin inkişafı ilə bağlı digər məsələlər öz əksini tapmışdır.

***Vəkilliyin müstəqilliyinin tərəqqisi məhz Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində tarixə imza atdı.Ölkə başçısı zati-aliləri,möhtərəm İlham Heydər oğlu Əliyev tərəfindən "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı buna bariz nümunədir.Sözügedən Sərəncamdan önə çıxan bir çox layihələr və tədbirlər icra olunmaqdadır.Sərəncamın mahiyyəti,onun başlıca vəzifəsi,vətəndaşların hüquqlarının müdafiəsinin yüksək və əhəmiyyətli dərəcədə təmin olunmasını təşkil edir.Bu baxımdan Sərəncam dövlət başçısının vəkillərin peşə fəaliyyətinə göstərdiyi diqqət və qayğının əyani nümunəsi kimi qəbul olunur.***

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasında ölkədə vəkillik institutunun inkişafı ilə bağlı aparılan islahatlar kifayət qədər öz bəhrəsini verməkdədir.

2019-cu ildə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə Birləşmiş Krallığın vəkillər birliyi olan Hüquq Cəmiyyəti arasında əldə olunmuş razılığa əsasən Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvləri Böyük Britaniyada vəkilliyə qəbul üzrə müvafiq imtahanı verməklə İngiltərə və UELS ərazisində vəkillik fəaliyyəti ilə məşğul ola bilər.

Avropa Şurası və Avropa İttifaqına üzv olan ölkələrin vəkillər kollegiyalarını və 1 milyondan çox vəkili birləşdirən CCBE-nin fəaliyyətinin əsas məqsədi vəkil peşəsini tənzimləyən normativ qaydaların qəbulu vasitəsilə qanunun aliliyi,insan haqqları və demokratik dəyərlərin müdafiəsini təşkil etməkdir.Bu təşkilata üzvlük Azərbaycan vəkillərinin avropalı vəkillər və hüquq cəmiyyətləri ilə əmkdaşlıq imkanlarının genişləndirilməsi,onların peşə hazırlığının artırılması,avropalı həmkarları ilə təcrübə mübadiləsinin aparılması imkanlarının artmasına şərait yaradacaq.

### *Bu uğura aparan yol*

Azərbaycanda həyata keçirilən ardıcıl hüquqi islahatlar,vəkillik institutunun təkmilləşdirilməsi istiqamətində dövlət səviyyəsində atılan ciddi addımlar və mütərəqqi təcrübəyə söykənən səmərəli fəaliyyətlə müşayiət olunur. Vəkillər Kollegiyasının CCBE kimi nüfuzlu beynəlxalq quruma üzvlüyə qəbul olunmsı böyük diplomatik uğurdur.Bu uğurun əldə edilməsində, 2017-ci ilin dekabr ayından Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri seçilən,hörmətli Anar Bağırovun yüksək idarəçiliyi ilə həyata keçirilən mütərəqqi islahatların əvəzedilməz rolu var. 2017-ci ilin sonundan başlayaraq Vəkillər Kollegiyası sürətlə inkişaf edən,daxili və beynəlxalq nüfuzunu artıran bir qurum olaraq yenidən formalaşmağa başlamışdır. Artıq üzv ölkələrin iştirakı və Bolqarıstan Ali Vəkillər Kollegiyası Şurası(BAVKŞ)-nın ev sahibliyi ilə ,22-24 iyun 2022-ci il tarixlərində CCBE Komitələrinin iclasları keçirilmişdir. Azərbaycan Respublikası Vəkillər Kollegiyasını isə,sədr Anar Bağırov,Rəyasət Heyəti üzvü Elçin Usub və Aparat rəhbəri Bayram Orucov tərəfindən təmsil olunmuşdur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin vəkillik təsisatına verdiyi önəm,göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası öz işini müasir beynəlxalq standartlar səviyyəsində qurulması üçün,bütün imkan və bacarıqlarını cəmləyərək fəaliyyət göstərir.Ötən 4 il ərzində məsuldar və əzmkar fəaliyyət zəmnində,hörmətli Anar müəllimin zər dəqiqliyi ilə apardığı islahatların nəticəsi olaraq, Azərbaycan Vəkillər Kollegiyası CCBE-yə üzvlüyü reallaşdı.CCBE-yə üzvlük statusu Azərbaycan Respublikasında vəkil təsisatının zamanın tələblərinə uyğun qurulmasının,ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qazanılan böyük nailiyyətdir.Bu sahədə həyata keçirilən mütərəqqi islahatların dünya birliyi tərəfindən tanınması və təqdir edilməsinin məntiqi nəticəsi olaraq Azərbaycan Respublikasının Vəkillər Kollegiyası bu uğura imza atdı.

**Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasına üzvlük,bütövlükdə Azərbaycan Vəkillərinin uğurudur.Bu əlamətdar və müstəsna əhəmiyyətə malik tarixi hadisə münasibətilə bütün Azərbaycan vəkillərini təbrik edir,bu yolda hər kəsə şərəfli peşə fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzu edirəm.**



Əbülfət MƏDƏTOĞLU

# Günahlarımızın şəriki çiçəkləri

## Sabir Abdinlə çözdüyüm bir günahın mənzərəsi

**Səhərin gözü yenicə açılmışdı. Radio dalğasında tanış bir musiqi dinlədim. Həmişəki kimi müğənni Eyyub Yaqubov yenə üzünü Xəzərə tutmuşdu və yenə deyirdi ki, mənə dəniz verin. Şeirin müəllifi, daha doğrusu ifa edilən nəğmənin sözlərini yazan şair dostum, tələbəlik yoldaşım Sabir Abdindir. Ona görə də bu mahnını dinləyən kimi həmişə özümdən asılı olmadan mobil telefona əlimi uzadıram. Amma bu dəfə çox erkən olduğundan Sabiri yuxudan oyatmaq istəmədim. Onu düşünə-düşünə iş otağımın qapısını açdım. Kitab rəfimdən Sabir Abdinin "Adını sən seç..." kitabını götürdüm. Dəfələrlə oxuduğum, barəsində yazdığım bu kitabın bir şeiri məni dayanmağa, düşünməyə məcbur etdi. Mən də könüllü şəkildə bu məcburiyyətə təslim oldum və Sabirin "Sənə deyəcəyim sözüm qalmadı" şeirinin ovqatına köklənərək Səni düşündüm, Səni gözlərimin önünə gətirdim. Ölməz şairimiz Mikayıl Müşfiqin təbirincə desək, ağlımdan gəlib keçdi ki, yenə o günlər olaydı və yenə o günlərin bir filmə bənzəyən səhnələrini səninlə baş-başa qalıb yaşayaydım. Amma...**

Bəli, o düşüncələrin içərisində mənimlə yol yoldaşlığı edən Sabir Abdin özünəməxsus şeir oxumaq tərzi ilə mənə üz tutdu. O səs o andan qulaqlarımdadı. Sabir şeir oxuyurdu:

***Əllərim titrədi, soldu çiçəklər,***
***Baxıb gözlərimə doldu çiçəklər,***
***Görüş yerimizdə qaldı çiçəklər,***
***Sənə deyəcəyim sözüm qalmadı.***

Şairin bir az qətiyyəti, bir az kəskin, amma bir az da duyğusal bir tərzdə dediyi, yəni verdiyi qərar mənim də ürəyimdən idi. O deyirdi ki, "sözüm qalmadı", amma bu bir şair yalanı idi. Çünki sevgidə söz qurtarmır və Sabir Abdin də sadəcə olaraq oxucusunu, indiki məqamda isə məni yerimdən oynadırdı, məni dindirirdi. Mən də dost sözünün ip ucundan tutub havalandım və bir də gördüm ki, qoşulmuşam ona. İndi də mən deyirəm, Sabir dinləyir. Deyirəm ki:

***Səbri böyük Allahım,***
***Onun çəkdiyi ahın***
***Yaz, Sən mənə günahın -***
***çəkim can bahasına!***

Hə, Allahın böyük səbri yaşadığım sevgi günahımı boyuma biçib. O günah iki başlı, iki canlıdı. Yarısı mənim payıma düşür, yarısı da Sənin. Amma mən sənin payına düşən günahı da canla, başla çəkməyə hazıram. Axı sənin sevgin yaşadır, sənin sevgin qanadlandırır və ən vacibi sənin sevgin mənə ayaqda durmaqda köməkçidi. Odur ki, Allahım özü izn verər və mən də sənin payına düşən günahı da çəkərəm, hətta canım bahasına olsa da. Çünki məndə bu inamı yaradan səbəblərdən biri də elə Sabirin güya deməyə qalmayan sözüdü! O söz ki, Sabir onun ardını əvvəlkindən də gözəl deyir. Deyir ki:

***Günəşin üzünü örtdü buludlar,***
***Yalqız çiçəkləri gördü buludlar,***
***Qaldırdı çiyninə dərdi buludlar,***
***Sənə deyəcəyim sözüm qalmadı.***

Görürsünüz, "sözü qurtaran" şair nələrə üz tutdu, nələrə əl uzatdı, nələri sözə çevirdi... Əgər yalqız çiçəklərin, buludların çiyninə qaldırılan dərdin varlığını şair dayandığı nöqtədən görürsə, deməli onun içindəki söz bitəsi söz deyil. Sadəcə o fantanla yox, zümzümə ilə süzülüb gəlir. Və mən bir oxucu olaraq o bulağın zümzüməsini dinləyirəm. Dinləyə-dinləyə də ruhumda, varlığımda, düşüncəmdə, həyatımda, bir sözlə, bu anımda səni bir nəfəs məsafəsində görürəm. O məsafədə ki:

***Ruhum, sən ha gəvəzi***
***Bitməz şair həvəsi!***
***Nəfəsi əl əvəzi -***
***çəkim mən yaxasına...***

İndi mənim nələr yaşadığımı, nələri canımdan keçirtdiyimi yəqin siz də gördünüz və yaşadınız. Və hətta inanıram ki, sevgiyə yoluxmuş oxucu indiki anda mənim nəfəsimin onun yaxasında gülə çevrildiyini də görə bildi. Bu gücü, bu təpəri mənə verən isə təbii ki, məni o sevginin oduna atan Allahdı. Allahın iradəsi qarşısında isə bəndə yalnız susur. Mən suduğum anda da ruhumun səninlə danışdığını gizlədə bilmirəm. Çünki hər halınla, hər hərəkətin və münasibətinlə bunu sən məndən istəyirsən, buna sən məni yönəldirsən. Hətta üşüyən, küsən çiçəklərin də, tapdalanan, solan çiçəklərin də halı mənim söylədiklərimin rəsmi kimi təqdim olunsa da, onun buketini Sabir yaradır, Sabir ifadə edir:

***Üşüdü çiçəklər, küsdü çiçəklər,***
***Həsrətdən, kədərdən əsdi çiçəklər.***
***Ayaqlar altında gəzdi çiçəklər,***
***Sənə deyəcəyim sözüm qalmadı.***

Sözün gücü də, istisi, soyuğu da təbii ki, onu deyənin varlığının göstəricisidi. Yəni söz hansı dildən, hansı ruhdan, hansı ürəkdən qanadlanırsa, olduğu və ona təkan verən həmin yerin mahiyyətini də ortaya qoyur. Deməli, nə qədər qaçmağa, qovmağa cəhd etsən də heç bir mənası yoxdur. Axı söz haqdan gəlir. Özü də sevgi sözü və deməli:

***Günüm günə daşına***
***Günümdən gün aşına...***
***Ürəyimin başına -***
***Oxu, o, çaxa...sına...***

Hə, ürəyimin başına sancılan ox da, kürəyimdən vurulan zərbə də, dayanmaq, durmaq qərarını heç ağlımın ucuna da gətirmir. Ona görə ki, döyünən ürək mənzil başına, görüş yerinə can atır. Xatirələrin izi ilə gedir. Yollar da, küçələr də, söykəndiyiniz ağaclar da,



üstündə oturduğumuz daşlar da, bir sözlə, təmasda olduğumuz hər şey, hər kəs məni sənə tərəf çəkir. Bu maqnit gücüdü. Amma biz ikilikdə onu sevginin gücü adlandırmışıq. Bu güc həsrətə qalib gəlir. Ona görə də əlimizdəki çiçəyin də, gülün də ən böyük mənası, ən böyük yaşamı sənin sinənə sığınmaqdı, sənin əlində dəstəyə çevrilməyidi. Bunu da Sabir yazır:

***Çiçəklər həsrətli yoldu, cığırdı,***
***Nəmli gözlərindən yağış yağırdı,***
***Çiçəklər qəfildən məni çağırdı...***
***Sənə deyəcəyim sözüm qalmadı.***

İndi gördünüzmü, çiçək adamı necə çağırır, gül adamın əlindən tutub görüş yerinə necə aparır? Etiraf edin, yaşamısınızmı bu hissləri? Əgər yaşamısınızsa, mənimlə razalaşacaqsınız. Görüşə gəlməyənin çiçək payını görüş yerində qoyub getdiyinizi də yada salacaqsınız. Elə mənim kimi. Onda özümü o qədər kimsəsiz, tənha, atılmış saymışam ki. Yerdən də, göydən də, az qala Allahdan da küsmüşəm onda. Düşünmüşəm ki, atılmış çağa kimi heç kimə gərək deyiləm daha. Bir də ki, əl boyda qundaq kimə gərək ola bilər ki. Özü də kimliyi bilinməyən qundaq. Bax, onda həmin o düşüncələrimi elə dediyim kimi də misralamışam:

***Kömək üçün ün yaya***
***Həftə yaya, gün yaya...***
***Bu hərsifət dünyaya -***
***atılmış çağasına!***

Dünyada hər kəsin günahı və günah payı var. Amma bir məqam da var ki, bəzən günahkar özü bilə-bilə başqasını da günaha batırır, özünə günah şəriki edir. Bu mənada sevənlərin ən böyük günahı da gülləri, çiçəkləri özlərinin günah şərikinə çevirmələridi. Bir soyuq baxış, bir əsəbi anın mimikası, hərəkəti, bəzən güllərin yerə atılmasına, çiçəklərin tapdalanmasına səbəb olur. Axı gülün, çiçəyin günahı nədir? Əgər sən sevginin fövqündə deyilsənsə, sevgini Tanrı dərgahına qədər yüksəltməmisənsə, özündən küs, özünü günahlandır, gülləri, çiçəkləri yox. Və mən bu məqamda Sabirlə həmfikir oluram. O deyir ki:

***Günahsız çiçəklər günaha batdı,***
***Qəlbimdə kədəri, qəmi oyatdı,***
***Çiçəklər alışıb bir ocaq çatdı,***
***Sənə deyəcəyim sözüm qalmadı.***

Bax belə, bu yerdə inanıram ki, Sabirin, bütövlükdə isə sevənin sözü qalmır. Barışıram Sabirlə. Məhz bu məqama görə, bu ana görə və alşıb-yanan çiçəklərin odunda, tüstüsündə mən Səni də, özümü də görürəm. Həmişəki təbəssümlə, həmişəki duruşla, baxışla seyr edirsən məni. Mən də Səni. Bu an üçün sondu bu, bu an üçün nöqtədi. Amma görünən bu andakı yolun soludu. Sevgi yolunun sonu deyil. Mən də bunu bildiyimdən sənə demişəm ki:

***Yolun sonu göründü***
***Hər halımı gör, indi!***
***Keşikçiyəm, könüllü -***
***dərdimin ağasına!..***

Bəli, biz Sabirlə, daha doğrusu, Eyyub Yaqubovla dəniz səyahətinə çıxmaq istəyəndə sevgi tutdu yaxamızdan. Çiçəklərin, güllərin əli ilə. Və biz də bir şair olaraq, könül-könülə, ruh-ruha öz sevgimizin görüşünə getdik. Getdik ki, batdığımız günahı günahımıza şərik etdiyimiz çiçəkləri əfv etdirək. Əgər bacarırsınızsa, əfv edin bizi. Heç olmasa çiçəklərin xatirinə.





Əlövsət BƏŞİRLİ

# Təbəssüm

## Unudulmaz şair dostum, səmimi İnsan Oqtay Rzanın xatirəsinə

Birdən sinəsində nəsə qırıldı elə bil. Başı ağırlaşdı, gözlərinə tor gəldi, qulaqlarında uğultu qopdu...

...Özünə gələndə çırpınıb yerindən qalxmaq istədi. Ağrıdan tərpənə bilmədi, nəfəsi təngidi. Arxası üstə, gözləri tavana zillənmiş halda uzana qaldı. Birdən başının üstündə ona baxan bir cüt göz gördü. Şəfqət bacısının zərif səsini eşitdi:

- Professor, gözlərini açdı.

- Hə, özünə gəlir.

Professorun mülayim səsini eşidib zarıdı:

- Ağrıdan tərpənə bilmirəm heç... Professor onun əlindən tutub yüngülcə sıxdı:

-Narahat olmayın, müalicə edərik, sağalarsınız inşallah.

***

Təcrübəli təbibin müalicəsi tezliklə özünü göstərdi. Xəstə təzəcə ayaq tutub yeriməyi öyrənən uşaq kimi palatada kövrək addımlarını atır, yorulanda yatağına uzanırdı. Professorun məsləhətilə hər gün beləcə təkrar olunurdu. Günbəgün babatlaşırdı. Artıq ona dəyməyə gələnləri yanına buraxırdılar.

Bir gün şair dostu özünəməxsus hay-küylə palataya girdi. Onu bağrına basıb sorğu-suala tutdu:

- Birdən-birə nə oldu sənə, axı? Vallah, eşitdim, inanmadım. Dedim ola bilməz, o ki sapsağlam, civə kimiydi. Həmişəhərəkətdə, tədbirlərdə, xeyir-şərdə, məclislərdə

- Özüm də məəttəl qalmışam. Yaxşı ki, professor müalicəmlə özü məşğuldur. Sağ olsun, hər cür qayğı göstərir. Mən də yavaş-yavaş üzə gəlirəm deyəsən.

- Allaha şükür, görürəm yaxşısan, maşallah. Qardaş canı əlim-ayağım yüngüldür. Bax, əlim əlinə dəydimi, həmişəki kimi sapsağlam olub quş kimi uçmaq istəyəcəksən...

- Haraya? Qazaxa, Şirvana, Muğana?

Təzəcə ayaq tutan xəstənin zarafatyana sualı şair dostunu uğundurdu, çiyinlərini titrədib qəşş elədi:

- Ay sənin məzən olsun. Həmişə deyirəm də, sən başdan ayağa yumorsan, səmimiyyətsən vallah.

O, ani olaraq susub baxışlarını çarpayıda balınca dirsəklənən xəstənin başı üstündən məchul nöqtəyə zilləyib xəyala daldıeləbil:

- Sən deyən yerlərə ilham pərisinin qanadlarında uçarıq inşallah. Amma hələlik gəl yaxından başlayaq. Günü sabah təzə kitabımın təqdimatına aparmaq istəyirəm səni. Rəyini bilmək, sözünü eşitmək, özün bilirsən, necə xoşdur mənə. Heç narahat olma, öz maşınımda aparıb gətirəcəyəm bura.

Şair başını buladı.

- İcazə vermir professor, heç dəhlizə çıxmağa qoymur. Çox ciddidir. - Dərindən köksünü ötürüb üzrxahlıq elədi. - Bağışla sən Allah, mənə qalsa mütləq gedərəm, bilirsən xasiyyətimi. Amma, - əlini ürəyinin üstünə qoydu, - amma qoymur bu, salıb əldən məni. Vaxtında fikir verməmişəm, indi altını çəkirəm. Bu yandan da təzyiq aman vermir, hey oynayır, aşağı-yuxarı...

***

O, professorun tövsiyələrinə, məsləhətlərinə can-başla əməl edir, səylə müalicə olunur, günbəgün gümrahlaşırdı.

Xüsusən gündüzlər şair dostu demişkən, özünü quş kimi yüngül hiss edirdi. Sanki ilhamının qanadlarında gözəlliyinə heyran olduğu yerləri gəzib dolaşır, ədəbi məclislərdə, yubiley təntənələrində, təqdimat mərasimlərində sözünü deyir, şeirinioxuyurdu. Dostları, pərəstişkarları, şeir həvəskarları xasiyyətini yaxşı bilirdilər: ölkənin hansı bölgəsində olur-olsun - yaxın, ucqar onun üçün fərqi yoxdu, ədəbi mərasimlərdə mütləq iştirak edirdi. İndi yaşa dolub ahıllaşsa da bu adətindən əl çəkmirdi. Maşallah, həmişə qıvraq görünür, söz deyib, şeir söyləyəndə isə lap gümrahlaşırdı. Və birdən heç kimin gözləmədiyi halda... ağır xəstələndi. Dərin yuxudan oyanırmış kimi özünə gələndə acı-acı fikirləşdi ki, ürəyi sözünə baxmır, namərdlik eləyir, deyəsən yarı yolda qoyacaq onu. Ancaq professor razılaşmadı onunla, əksinə qınadı şairi: "Ürəyini yormusan, incitmisən, - dedi, - elə bil unutmusan, heç saya salmamısan, ağrıyanda da fikir verməmisən, məhəl qoymamısan, "əşşi keçib gedər", - deyə arxayın olmusan özünə, qorxmusan ki, işin yarımçıq qalar. Həmişə harasa tələsmisən... Və tələsə-tələsə yadından çıxarmısan özünü, ürəyini".

Professor yetərincə dünyagörüşlü, məlumatlı, bilikli, kamil insan, ziyalı idi. Dalğalı gümüşü saçı, yaraşıqlı gülər üzü elə bil palatanı işıqlandırır, hər xəstə ilə "öz adamı kimi" görüşür, "öz dilində" danışır, ürəklərə yüngüllük gətirən ünsiyyət yaradırdı. Şairin xətrini məxsusi istəyir, gərgin iş gününün axırında onunla arxayın ürək söhbəti edirdi. Özünün dediyi kimi "nadir kitabları çıraqla axtaran", mütaliəsiz keçinməyən professorun qibtə edilən hafizəsi vardı. Söhbət əsnasında yaddaşında



daşlaşan aforizmləri, hikmətli sözləri yerli-yerində işlədirdi.

Bir dəfə söhbətin şirin yerində o, şairə zənnlə baxıb özünəməxsus avazla sinədən dedi:

***Vətənin mərd qızı, oğlu qocalmaz,***
***Torpağa köküylə bağlı qocalmaz!***
***Nurlu sifətinə qırış qonsa da,***
***Müdrik adamların ağlı qocalmaz!***

Şair böyük hörmət bəslədiyi təbibə kövrək səslə minnətdarlığını bildirdi:

- Sağ olun, professor, siz mənə sürpriz etdiniz. Heç bilməzdim ki, sinə dəftərinizdə mənim də şeirim, rübaim olar.

- Niyə də olmasın? Gözəl demisiniz: "Nurlu sifətinə qırış qonsa da, müdrik adamların ağlı qocalmaz!"

O, sözünə ara verib nəfəsini dərdi:

- Siz bayaqdan Azərbaycanı qanş-qarış gəzməyinizdən, qələm dostlarınızla birlikdə müxtəlif tədbirlərdə iştirakınızdan, oxucularla görüşlərinizdən elə maraqla danışırsınız ki, adam özünü təbiətin bir-birindən gözəl guşələrində hiss edir.

Amma deyəndə ki, xəstəxanadan çıxandan sonra yenə həmin yerlərə getmək istəyirsiniz, təəccübləndim.

- Burada təəccüblü nə var ki?!

- Əslinə qalsa heç nə! Adam daha çox gəzmək, görmək, gözəllikdən zövq almaq istəyir. İllah da sənət adamı, şair, sizin kimi təbiət, gözəllik vurğunu ola. Ancaq, - o, barmaqlarını daraqlayıb alnına tökülən gümüşü bəyaz saçını yatımına sığalladı, - ancaq sizə dönə-dönə dediklərimi bilmərrə unutmayın: nə yaş o yaşdır, nə də ürək o ürək, enib-qalxan qan təzyiqiniz, duyğulanaraq əsib-coşan əsəbləriniz də həmçinin, - professor ani olaraq susub sözünə davam etdi. - Elə bilməyin ki, sizinlə sərt danışıram. Xeyr, olanı deyirəm, bu mənim təbib kimi borcumdur. Əlbəttə, başa düşürəm sizi, müalicə yaxşı nəticə verir, özünüzü quş kimi yüngül hiss edirsiniz, amma, - onun üzü xoş təbəssümlə işıqlandı, ərklə, - amma uçmaq olmaz quş kimi, sadəcə yerimək gərəkdir, özü də asta, narın addımlarla, tələsmədən. Daha cavan yazarlara qoşulub dağlara dırmanmaq, nəfəsi təngidən uzaq yollar yorğunu olmaq, məclislərdə qədəhləri cingildədib sağlamlığı itirmək yaramaz sizə. Məsləhət görürəm, həyat tərzinizi yaşınıza, səhhətinizə uyğunlaşdırın. Mümkün qədər yaxın yerlərə, tədbirlərə gedin.

Professora diqqətlə qulaq asan şair təvəqqe elədi: - Sözünüzün qüvvəti, buraya, xəstəxanaya ən yaxın yer Natəvan klubudur. İcazə versəydiniz, gedib qələm dostumun yubiley tədbirində iştirak edərdim.

O, özünəməxsus təmkinlə dedi:

- Siz tamam sağalmamısınız hələ. Gündüzlər əhvalınız yaxşılaşsa da, gecələr ağrılarınız olur. Gərək müalicənizi başa çatdıraq.

Şair fikirli halda etiraf etdi:

- Doğrudur, yaxşı yata bilmirəm, gecələr ağrılarım təzədən başlayır elə bil.

Professor onu məhrəm nəzərlərlə süzüb:

- Siz olduqca duyğulu, təbiətən narahat adamsınız, - dedi, - hər şeyi ürəyinizə salır, içinizdə özünüzü qınayır, danlayırsınız: niyə xəstələndim, filan yerə gedə bilmədim, sözümü demədim, işim tökülüb qaldı. - Sual dolu gözlərini şairə dikdi. - Məgər belə deyil?

Şair suçlu-suçlu başını tərpətdi:

- Elədir, ürəyimi oxuyursunuz elə bil.

- Xahiş edirəm, özünüzü ələ alın, səbrli, hövsələli olun. Sizi əmin edirəm, ürəyiniz kimi əsəblərinizin də müalicəsi öz nəticəsini verəcək, tamamilə sağalacaqsınız və... - yarı zarafat, yarı gerçək, - və ilham pərisi yenə yazıb-yaratmağa ruhlandıracaq sizi! - dedi.

***

Professorun söylədiyi kimi də oldu. Şair sağalıb evinə gəldi. Gecə ağrıları daha onu narahat etmirdi. Rahat yatırdı. Bir gecə yuxusunda səmanın ənginliyində quş kimi süzən bəyaz bir gözəl gördü. Gözləri qamaşdı, qəflətən yuxudan ayılıb qeyri-iradi yuxarıya boylandı. "Deyəsən yuxuda gördüyüm ilham pərisi idi", - fikrindən keçirdi, şair dostu ilə söhbətini xatırladı.

Səhər telefon zəng çaldı. Əlini uzadıb dəstəyi götürdü. Rayonda yaşayan şair dostunun səsini eşitdi:

- Sabahın xeyir, a qardaş, olmasın azar-bezar. Eşitdim xəstələnmisən, gəlmişəm sənə dəyməyə. İndicə köşkdən qəzet almışam, təzə şeirlərini görüb çox sevindim. Şair dostumuz Adil Cəmilin sənə ithaf elədiyi şeir yaman xoşuma gəldi. Qoy bir bəndini oxuyum səninçün:

***Bilirəm ki, xəbərin var***
***Yer qatından, göy qatından.***
***Tale səni düşürməsin***
***İlhamının söz atından.***

Son: "O, İlhamının söz altından" düşmədi, xasiyyətini dəyişmədi, ürəyi istədiyi kimi gəzib dolandı, Yazıçılar Birliyinin Natavan klubundan həmişə səsi gəldi, dostları ilə yeyib içdi, evə gəldi, yuxuya getdi, əbədi yuxuya...

Aqil Abbasın dediyi kimi, sağlığında heç kimi incitməmişdi, dünyasını dəyişəndə də belə oldu.

Yazıçılar Birliyinin tədbirlərində onun yeri görünür, Oqtay Rzanı xatırlayanda üzlərə təbəssüm qonur...

# Ağrının sözlə çəkilmiş şəkli

## Mərhum şairimiz Sabir Sarvanın ruhuna ehtiramla

**İnsan özünü ifadə edəndə, yəni yaşamını sözə çevirəndə daxilən bir az yüngülləşir. Yəni elə bil ki, çiynindəki, ürəyindəki yükü bir nəfəslik zaman üçün götürüb qoyursan bir kənara. Həmin o bir nəfəslik zamanda qazandığın rahatlıq səni növbəti anlara doğru çəkib aparır. Bir az da konkret desəm, sənə fürsət verir, şərait yaradır**

Bu mənada söz adamı ağrı-acısını yazanda bir az mövzuya, həyata başqa bir prizmadan baxır. İstəyir ki, özəl, şəxsi ağrısı kiməsə yük olmasın. İctimai, lap sadə şəkildə söyləsəm, elin-obanın ağrısının fonunda görünsün onun ağrısı. Zənnimcə bu da söz adamının cəmiyyətə, məmləkətə, adamlara həm bağlılığını, həm də onları ifadə etmək imkanının sahibi kimi görəvləndirir.

Aldığı bu görəv - yəni vəzifə ictimai olduğundan təqdim etdiyi poeziya və yaxud nəsr nümunəsi də ictimailəşmiş formada ortaya çıxır.

Mən mərhum şairimiz Sabir Sarvanla həyatda qarşılaşmışam, görüşmüşəm, yaradıcılığını izləmiş və bu gün də onun kitabları mənim kitabxanamda öz yerində rahatlıqla "nəfəs alır". Bu da o deməkdir ki, digər müəlliflər kimi Sabir Sarvan da mənim iç dünyamdadı, mənim yaddaşımda, gündəmimdədi.

Onun "Özümü sözə çevirdim" kitabındakı bir şeiri diqqətimi çəkdi. Oxudum və sonra oxuduğum şeirin dalğasında öz yazı masama da nəzər yetirdim. Beləcə növbəti bir şeir işığında yol getmək imkanı qazandım.

"Ağrı" adlanan bu şeiri oxuduqca ağrılarım və bu ağrılardan qaynaqlanan misralarım tutdu əlimdən. Bir də gördüm ki, mən Sabir Sarvanın səsini eşidirəm. Mərhum şairimiz deyir ki:

***Əlləri ağrıyırdı anamın,***
***əlləri.***
***Kol qırmaqdan,***
***çəpər vurmaqdan,***
***Kişi işi görməkdən***
***Əlləri ağrıyırdı anamın,***
***əlləri.***

Şeirin bu bəndini oxuyanda 2020-ci ilin sentyabrın 27-ə qədər yaşadığım Vətəndə vətənsizlik, yurd həsrəti və bir də çadırlarda qocalan ananın çöhrəsi gəlib durdu mənimlə üzbəüz. Xatırladım, doğulduğum kənddə atamın, anamın kiprikləri ilə od götürüb ev qurduqları günlər, anamın bir an da olsun istirahət etmədən çalışması, kənd həyatının şirinli, acılı məqamları. Bu olanların içərisində qışın şaxtasında, yayın istisində çarxlayan, qabarlayan əlləri Təndirin alovundan qarsıyan sifəti

Sabir Sarvan bir bəndlə məni məhz o anlara, o günlərə apardı. O anlarda da mən yaşadıqlarımın ağrılı tərəfini misralayarkən yazmışam ki:

***Ürəyimdəki ağrı,***
***Əllərimə sığışmır***
***Ağrının əl-ayağı -***
***Ürəyimdən yığışmır.***

İnsan nə qədər duyğusal olarsa, bir o qədər də ağrı, acı daşıyıcısına çevrilər. Havadan da nəm çəkər, sözdən də, baxışdan da. Bunlar da sonda həmin o dediyim ağrı kimi formalaşar. Çox təəssüf ki, bu ağrılar bəzən bizim özümüzdən yox, çevrədən, cəmiyyətdən, həyatdan gəlir. Biz də onu qarşılayırıq.



Ona görə ki, qaçmağa başqa bir həyatımız, dünyamız yoxdu. Olan dünyamız da gördüyümüz, yaşadığımız yaddaşımıza, ruhumuza hopan ağrılardı. Onu da xatırlamaq və xatırlatmaq özü də ağrını təkrar köynəkdən keçirməkdi. Necə ki, bunu Sabir Sarvan edib:

***Hər axşam***
***barmaqlarını***
***uşaq bələyən kimi***
***bələyib bağlayırdı.***
***Qan axırdı anamın***
***kişi əllərinin yarasından,***
***Əlləri qan ağlayırdı.***

Bu şeirin bir məqamı da yəqin ki, diqqətinizi çəkdi. O da atasız uşaq böyütməyin, kişisiz evi idarə etməyin yüküdür. Analar namuslarına xələl gəlməsin, ləkə düşməsin deyin hər əzaba, hər ağrıya qatlaşıblar.

Bunu zaman-zaman müşahidə edən və o müşahidəni də ağrılı sözə çevirənlərdən biri də şair Sabir Sarvandı. Ona görə də barmaqları qanayan ananın acısı Sabirin öz ağrısına, acısına çevrilibdi. Onun poetik təqdimatı isə bir növü yaşamın təqdimatıdı. Gerçəkliyin ortaya qoyulmasıdı. Mən də həmin o gerçəkliyin içərisində ağrının necə şaxələndiyini, necə saçaqlandığını izləmişəm, yaşamışam və sonda da pıçıldamışam.

***Saçaqlanır anbaan***
***Münbitdi düşdüyü yer...***
***Sağalmasına inan***
***Və ona sən ümid ver!***

Arzuladığım, qovuşmaq istədiyim ümid o zaman reallaşır ki, gerçəkləşir ki, onun üçün mücadilə edirsən, özünü oda, közə vurursan.

Bax, bu mənada Sabir Sarvan öz acısını, öz ağrısını o qədər reallıqla təqdim edir ki, onu görməmək, ondan yan keçmək mümkün olmur. Çünki ananın sızıldayan barmaqları ümid üçün, sabah üçün, övladının xoş günləri üçün səhərlər unudur axşamkı ağrıları. Bu böyük mənada unutqanlıq deyil, bu məqsədə çatmaq istəyinə qovuşmaq üçün aparılan daxili bir savaşdı, öz iradənin ifadəsidi. Ona görə də:

***Səhərlər unudub ağrısını,***
***göynəyini,***
***Çıxardıb barmaqlarının***
***qanlı köynəyini***
***Gedirdi iş dalınca.***
***Getdi bir gün,***
***Getdi gecənin bir yarısı.***
***Hündür çəpərimizdə***
***Həyətimizin səliqə-sahmanında,***
***Qızıl inəyimizin yelinində qaldı***
***Əllərinin ağrısı.***

Kədərli olsa da, gerçəyin özüdü və elə Sabir Sarvanın şair istedadının gücü də, o gerçəyin söz nərəsini çəkməyindədi. Şeirin hər sözü, hər misrası düşündürür, göstərir və həm də xatırladır. Ona görə də bu ağrı unudulmur. Çünki oxucu olaraq onu mən yaşayıram. Yaşamaqla yanaşı həm də bir zamanlar yaşadığımı əlimin, ürəyimin tutumu gücündə yenə bu günümə qaytarıram. Bu isə dünənə, bu gündən baxış olmaqla yanaşı, həm də dünəni bu günə şeir formasında gətirməkdir...

Bəli, bütün hallarda ağrının ölçüsü ürək boydadır və ürək boyda olan ağrı da səni qovursa da, yandırsa da, həm də bərkidir, dözümlü edir. Sən bu dözümlə bu ağrının özünün çevrəsinin hətta obrazlı desək, hər bir halının ardınca getməyə hazır olursan. Ona görə də mən bu qənaəti özüm üçün təsdiqləyirəm:

***Əllərimin tutumu,***
***İtiribdi ölçüsün***
***Əlimə bax, budurmu -***
***Əllərinin elçisi?..***

İndi ağrının həm fiziki, həm də bioloji, həm də şair dili ilə desək, mövzu baxımından bütün parametrləri sərgiləndi və bir oxucu olaraq gördüm ki, Sabir Sarvanın "ağrı"sı ötəri deyilmiş, əksinə o yaşam imiş.

Yaşam isə həmişə sevincli olmur. Mən də bu sevincli olmayan, bu ağrının ağrısı unudulmayan məqamda durub ağrının dalınca da elçilik etməyə tərəddüdsüz hazıram. Və

Ruhu şad olsun Sabir Sarvanın. Qoşulub ağrısına bir az da öz ağrımdan danışdım. Yəqin ki, dinləyənlər peşman olmayacaqlar.

**Əbülfət MƏDƏTOĞLU**

Azərbaycanın dövlətçilik tarixinin,
milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 25 (2299) 2 iyul 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Bu gündən keçmişimizə baxış

**Məlum olduğu kimi, Makedoniyalı İsgəndərin yürüşü ərəfəsində Əhəmənilər imperiyasının tərkibində olan Qərbi Midiya satraplığı iqtisadi-sosial cəhətdən inkişaf etmiş əyalətlərdən biri idi. Bu əyalətə Azərbaycanın görkəmli dövlət xadimi Atropat başçılıq edirdi.**

Əhəmənilərin sonuncu hökmdarı III Daranın hakimiyyəti (e.ə. 336-e.ə. 330-cu illər) dövründə Atropat Midiya satrapı idi. Mənbələrdə bu ada ilk dəfə e.ə. 331-ci ildə təsadüf edilir. Makedoniyalı İsgəndər İss vuruşmasından (e.ə.333) sonra Kiçik Asiya, Suriya, Finikiya, Fələstin və digər əraziləri işğal etdi. Bu məğlubiyyətdən sonra III Dara yenidən ordu toplayaraq İsgəndərin qarşısını almağa səy göstərdi. Lakin İsgəndər Dəclə və Fərat çaylarını keçərək e.ə. 331-ci il oktyabr ayında qədim Assur şəhəri Ərbilin yaxınlığında olan Qavqamel kəndi yaxınlığında III Daranın ordusuna sonuncu və həlledici zərbə endirib onu məğlub etdi.

Mənbələrdə Atropatın Midiya ordusuna, ancaq Qavqamel savaşında (e.ə.331) başçılıq etməsi haqqında məlumat var.

Makedoniyalı İsgəndərin zəfər yürüşlərini qələmə alan Arrianın yazdığına görə, Qavqamel döyüşündə III Daranın süvari kəşfiyyat dəstəsinə başçılıq edən Atropatın bölməsində kadusilər, albanlar və sisaklar da iştirak edirdi. Atropat yeganə Əhəməni satrapı idi ki, İskəndər onu vəzifədən kənar etmədi, əksinə bəzi qonşu vilayətlərin idarəsini də ona tapşırdı. Atropatena dövlətinin əsası məhz belə bir tarixi şəraitdə qoyuldu. İsgəndərin ölümündən sonra isə bu dövlət qurumu tam müstəqli siyasət yürüdən bir dövlətə çevrildi.

Mənbələrdə Atropatenanın iqtisadi-ictimai həyatı haqqında bilgilər olduqca azdır.

Lakin mənbələrdən məlum olur ki, istər Əhəmənilərin hakimiyyəti dövründə, istərsə də Atropatidlər sülaləsinin hakimiyyəti dövründə Atropatena ərazisi həm iqtisadi, həm də mədəni cəhətdən qonşu ərazilərdən xeyli öndə idi.

Strabonun göstərdiyinə görə Atropatena hakimlərinin Qazaka (Taxtı Süleyman) və Marağa adlı iki paytaxt şəhəri olmuşdur. Qazakada bu sülalənin yay, Marağada isə qış iqamətgahı yerləşirdi. Qazaka şəhərində (indiki Təxti Süleyman) hələ Midiya dövləti dövründən müqəddəs sayılan Azərgüşnasp məbədi mövcud idi.

Tədqiqatçıların əksəriyyəti qəbul edirlər ki, müstəqil Atropatena dövləti Atropatın başçılığı altında e.ə. 323-cü ildə təşkil edilmişdir. Dövlət Atropatının əsasını qoyduğu Atropatidlər sülaləsi tərəfindən idarə edilirdi. Bu sülalə eramızın III əsrinin I rübünə kimi Atropatenada hakimiyyətdə olmuşdur. Həmçinin müəyyən dövrdən sonra Atropatidlər həm də Parfiya hökmdarları olmuşlar.

Belə ki, Parfiya hökmdar III Artabanın anası parflardan (IV Fraatın qızı), atası isə Atropatidlərdən olmuşdur. Beləliklə, III Artabandan başlyaraq Atropatidlər həm də Parfiyaya ağalıq etmişlər. Atropatilər sülaləsindən Atropat, Artabazan, Mitridat, Artabaz, Ariobarzan və Ariobazın adları məlumdur. E.ə. III əsrin 20-ci illərində Atropatena taxt-tacında biz Arazın yalnız cənubunda deyil, şimalında da




çox geniş əraziyə malik olan "ən qüdrətli və ən müdrik hökmdarı", "atropatilər və onlarla həmsərhəd xalqlar üzərində" (Polibi) hökmranlıq edən Artabazanı görürük. Polibinin dediyinə görə, Artabazanın dövləti Kaspi dənizindən Rioni çayının yuxarılarınadək uzanırdı. Bu vilayət, yunan müəllifinin (Polibinin) təsdiq etdiyinə görə, "...Midiya ilə yanaşı olub ondan dar silsiləsi ilə ayrılır, onun bəzi hissələri Fasisdən yuxarıdakı yerlərdə Pontun üzərində yüksəlir; digər tərəfdən o, Hirkan dənizinə qədər çatır. Vilayətdə əsasən at belində vuruşan və müharibə üçün daha nə lazımdırsa hamısına kifayət qədər malik olan güclü bir xalq yaşayır".

E.ə. 223-190-cı illərdə Atropatena Selevkilərin hakimiyyətini tanımağa məcbur oldu. E.ə. 190-cı ildə Maqnessiya ətrafında romalılarla döyüşdə Antiox məğlub olduqdan sonra, Atropatena Selevkilər dövlətinin asılılığından qurtarmışdı.

Parfiyalılarla Atropatenalıların mənafe ümumiliyi, onların mədəniyyət cəhətdən yaxınlığı və dil cəhətdən qohumluğu Mada-Atropatena ünsürləri ilə Parfiya ünsürlərinin Atropatena zəminində etnomədəni baxımdan xeyli yaxınlaşmasına və hətta qovuşmasına səbəb olurdu.

Qeyd edilən dövrdə Atropatenanın və atropatenalıların adları mənbələrdə əsasən qonşu ölkələrin tarixi ilə, yaxud ümumregion xarakterli hadisələrlə əlaqədar olaraq çəkilirsə də, təsdiq etmək mümkündür ki, atropatenalılar Roma əleyhinə sanballı bir qüvvə olub region xalqlarının çağırılmamış "qonaqlara" qarşı mübarizəsində ən fəal bir şəkildə iştirak edirdilər. Strabon məlumat verir ki, Atropatena "hərbi qüvvə mənasında çox sanballı bir ölkədir, çünki o, döyüşə... 10000 süvari və 40000 piyada çıxara bilər".

E.ə. IV əsrdə Azərbaycanın şimal və cənub ərazilərində yaranmış Albaniya və Atropatena dövlətlərinin sərhədləri Araz çayı boyunca keçmişdir. Lakin heç də bu sərhədlərin sabit olduğunu demək olmaz. Belə ki, müasir Naxçıvan və Zəngəzur ərazisini əhatə edən Sünik vilayəti və Balasakan vilayəti gah Albaniyanın gah da Atropatenanın tərkibinə daxil olmuşdur. Bu vəziyyət təxminən bizim eranın III əsrinin əvvəllərinə qədər davam etmiş, III əsrdən isə hər iki vilayət qəti şəkildə Albaniyanın tərkibinə qatılmışdır.

Həmçinin Albaniyanın aparıcı tayfalarından olan albanların da Atropatena ərazisində yaşaması haqqında da mənbələrdə məlumatlar vardır. Görünür bu iki dövlət arasında dinc münasibətlərin olmasını da məhz hər iki dövlətin əsasən eyni etnik ünsürlərdən təşkil edilməsi ilə izah etmək mümkündür (Q. Qeybullayev - Azərbaycan türklərinin təşəkkülü tarixindən, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1994, səh. 133).

Antik müəlliflərin əsərlərində alanların Atropatenaya iki yürüşündən bəhs olunur. Alanlar eramızın 72-74-cü illəri arasında Xəzər sahili əyalətlərə, o cümlədən Atropatenaya da basqınlar etmişlər.

Eramızın ilk əsrləri Atropatenada feodal münasibətlərinin yaranması və güclənməsi dövrü idi. Sasanilər imperiyasına daxil olan müxtəlif vilayətlərin ərazisində, o cümlədən Azərbaycanda aşkar edilən kitabə və bullalarda (dövlət sənədlərinə bağlanan möhürlərdə) qeyd edilən titulların və inzibati terminologiyanın eyniliyi, eləcə də müxtəlif qaynaqlardakı xəbərlər göstərir ki, Adurbadaqan - Cənubi Azərbaycan ərazisində də bütün imperiyaya xas olan ərazi bölgüsü və inzibati idarəçilik qüvvədə idi. Ölkənin iqtisadi həyatına, siyasi və mədəniyyət tarixinə aid yazılı mənbələr və arxeoloji materiallar son dərəcə azdır. Lakin əldən olunan qaynaqlar sübut edir ki, Atropatenanın kənd təsərrüfatı, sənətkarlığı, ticarəti, şəhər həyatı çox inkişaf etdiyi bir ölkə idi. Cənubi Azərbaycan ərazisində müstəqil dövlət yaradılması qədim ənənələrə malik ölkədə təsərrüfat həyatının fəallaşmasına, məhsuldar qüvvələrin yüksəlməsinə, ticarətin və sənətlərin canlanmasına çox kömək etdi.

**Zəngin təbii-coğrafi şəraitə malik olan Atropatena ərazisi tarixən insanın formalaşmasında dünyada ilkin məskənlərdən biri olmuşdur. Bu ərazi cəmiyyət tarixinin müxtəlif dövrlərini özündə əks etdirən abidələr diyarıdır. Urmiya, Ərdəbil, Təbriz, Meşkin, Mərənd, Sərab, Miyanə, Marağa, Zəncan, Maku və digər ərazilərdə dövrümüzə qədər gəlib çatan mağaralardan tutmuş, Həsənli, Göytəpə, Qaratəpə, Muğan, Təxti Süleyman, Mərənd və sair abidələr tarixiliyi, zənginlik və əzəmətinə görə indi də insanı heyran edir.**

**(ardı var)**

***Vaqif Abışov,***
***tarix üzrə fəlsəfə doktoru***

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ

# Sözün, şeirin ərazisində səlahiyyət qazanmış şair...



*Qurban Bayramov,*
*tənqidçi-ədəbiyyatşünas*

*"O, sözün xəcalətin çəkən kişilərdən deyil, çünki xəcalətli sözdən uzaqdır!!"*

*(Qurban Bayramov)*

**Poeziya idrak əhlini ahənrübasına çəkən ilahi sirr dünyasıdır. Və şairlər bu ilahi sirrin daşıyıcılarıdır. Bunlardan biri də, İstedadına, maraqlı yazı üslubuna rəğmən, bir az, diqqətə yavuq düşməyən Dəmir Çeşməlidir. O, poeziya zövqü bəsitlərdən deyil, "sazı-sözü" yerbəyer olanlardandır... Görünür, səbr və təmkin həqiqətin etirafına ən mübhəm yardımçıymış. Bu cəhət onun da yardımçısı oldu, yavaş-yavaş, təmkinlə, istedadına arxalanaraq, qələminə söykənərək poeziya camesinin qapısından sözə "sevgilimdir" deyərək, (onun "Söz sevgimdir" kitabına bax!!") bu möhtəşəm saraya daxil ola bildi, ədəbi-mədəni həyat siferasında tanınmağa başladı...**

*Dediyim adnan adlanan mənəm,*
*Unudulmuş kimi yadlanan mənəm,*
*Acıyıb, acımnan odlanan mənəm,*
*Üfürə- üfürə kül olmaq olar.*

Yusifov (Çeşməli) Dəmir Bayram oğlu, 1950-ci ildə Tovuzun Həsənli kəndində anadan olmuşdur, ixtisasca hüquqşünasdır. 1991-ci ildə onun "Atama məktub" şeiri Xalq şairi Nəbi Xəzrinin təqdimatı ilə "Novruz" qəzetində çap olunmuşdur. Bu ilk çap qranquşu ona dövrü mətbuata yol açmış, "Ulduz", "Azərbaycan" ədəbi jurnallarında, "Ədəbiyyat", "525-ci qəzet", "Ədalət" və digər mətbu orqanlarında təxəllüs götürdüyü Çeşməli imzası ilə şeirləri dərc olunmuş, get-gedə oxucuların diqqətini cəlb etmişdir...

Hər şairin bir kiçik vətəni - oğulduğu yer, məkan var. Şairlərin bir çoxu da öz doğulduqlar məkanın adını təxəllüs götürüblər və bu təxəllüslə də tanınıblar. Daha bu adları sıralamıram. Dəmir Bayramoğlu da, Çeşməlini təxəllüs götürübdür və ha yana fırlansa da, onun istinad nöqtəsi də, mehvəri də Çeşməlidir. Mövzular da, ifadələr də, folklorizmlər də, idiomalar da, ara sözləri də, təbiilik, saflıq və səmimiyyət də başlanğıcını Çeşməlidən götürərərək poeziya axarına - çeşməsinə çevrilir. İtirilmiş ömün, ilk məhəbbətin, torpaq-vətən sevgisinin bütün nostaljiləri Çeşməlidən nəşət edir... Vətən onun üçün Çeşməlidən başlayır və "hardan başlanır vətən?" sualını cavablandırır. Çeşməli coğrafi məkanından başlanan özəl Vətən, müqəddəs, bakir Vətən Dəmir Çeşməlinin bir şair kimi şeirinin bütün obrazlar qatında onun liropisxotipini müəyyənləşdirir.

Onun çox sonralar yazdığı "Tovuza məktub" şeiri nostalji hisslər zümzüməsidir:

*Baş çək Çeşməlinin çəmən yoluna,*
*Üz tut ilk eşqimin güman yoluna,*
*Ömrümün gəncliyə dönən yoluna,*
*Sevgi şimşəkləri çaxırmı yenə.*

Dəmir Yusifov uzun illər Respublikanın Daxili İşlər Nazirliyində və Ədiliyyə orqanlarında səmərəli fəaliyyət göstərmiş, 2002-ci ildə tərxis olmuş, kollecdə müəllimlik etmiş, həyatı dərindən öyrənmək və müşahidə etmək imkanlarına malik olmuşdur. "Yola sal məni" (1998), "Hələ ki, yaz ümidim var" (2010), "Araz axır, Kür baxır" (2012), "Söz sevgilimdir" (2016), "Söz vaxtı gəldim" (2021) şeir kitablarının müəllifidir. 1918-ci ildən AYB-nin üzvüdür.

Onun şeirlərinin ruhu, duyğuları, fikirləri poetik ovqatla yoğrulur, dilin gözəlliyinə, milli dəyərlərin qayım-qədimliyinə bələnir, arınır, durulur və misra-misra ağ vərəqlərə süzülür...

Dəmir Çeşməli zövqülü, duyğulu şeirlər müəllifidir... Türk kardeşlerimizin ləfzi ilə desək, bu şair bəy əfəndilərimizdəndir!! Deyirlər ki, həyatda sevdiyin işlə məşğul olmaq nə qədər çətin də olsa, xoşbəxtlikdir! Bəlkə də, əksinə, əzablı, əziyyətli, məşəqqətli yolardır... İlğımına düşüb gedirsən, gedirsən, elə hey əlin uzanılı qalır, arzuların, istəklərin çin olmayan yuxulara dönür... Amma bu yollar, poeziyanın sehirli şəfəqlərinə bürünür, ahənrüba kimi səni özünə çəkir və poeziya onun "yol yoldaşına" çevrilir, müəllifinə bəxtəvərlik gətirir:

*Gözümə görünmür, gözüm üstədi,*
*Uğurum boylanır, izim üstədi,*
*Deyimim deyilib, sözüm üstədi,*
*Bəxtəvərəm, belə yol yoldaşım var!*

Başqa rakursdan baxanda, Dəmir Çeşməli, sənin barlı-bəhərli, məhsuldar qələminə əhsən! Elə bil sərin meh çəmənlərin ətrinə bələnib insanın ruhunu sarır. Səmimiyyətdən biçilmiş kəlmələr saflığın hənirtisində könülləri sığallayır... Mənəvi saflığın formalaşmasında xüsusi rol oynayan poetik istəyin harmoniyası yaradıcılıqda inamlı qələbə deyilmi?! Dəmir Çeşməli, bu harmoniyanın - məhculdan məluma gedən yolun hənirtisini sənin şeirlərində müşahidə elədim...

*Bir çiçək adına heykəl qoymuşam,*
*Xətrini əzəldən əziz duymuşam.*
*Məchulu döndərib məlum saymışam,*
*Dərdimə naçarmış dərdim, çiçəyim.*

Yaxşı bir cəhət də, budur ki, o, ədəbi mühitümüzdə yaşantılarını poetik dillə dilləndirən, söz qədri bilən, sözə tapınan, sözün müqəddəsliyini, təbiiliyini dərk edən kəslərdəndir... Onun poeziya çeşməsi axarlıdır, durudur, safdır... Onun axarı həqiqət axarına şevrilə bilir və göz önündə daş arasından süzülən, daş ömründə özünü tapan könül bulağına - çeşməsinə çevrilir...

*Daşa daş yapıram indi,*
*Daş ömrü çapıram indi,*
*Özümü tapıram indi,*
*Zülümnən gedib- gəlirəm.*

Mən elə bilirəm ki, bəzən axına qarşı gedərək həqiqətləri deyən, doğru bildiyini, faydalı hesab etdiyini söyləyən, yazan, kütlənin neqativ enerjisini, haqlı-haqsız aqressiyasını öz üzərinə çəkən, nəsillər və sosial təbəqələr arası bağları qırılmağa qoymayan aydınlardandır Dəmir Çeşməli...

Onun şeirlərindən realiativ enerjili, xəfif təbəssümlü, aqressiyasız, sivil milli dünyalı lirik xarakter boylanır...

*Bir çiçəkdi, çiçəkləşib,*
*Ləçək-ləçək ləçəkləşib.*
*Mənə baxıb, göyçəkləşib,*
*Yanağı qanadar məni.*

Dəmir Çeşməli müasir ədəbi prosesdə, dərgilərdə, xüsusən, internet saytlarında, sosial şəbəkələrdə çox fəaldır və bu təqdirediləsidir. Sosial şəbəkə oxucu ilə üzbə-üz dayanmağa, dialoq qurmağa imkan yaradır... Kitabda oxucunu, onun rəyini görmürsən, sosial şəbəkədə isə bu hikmətmöcüzə baş verir... Şeirin intonasiyası və oxucu hissinin intonasiyası paralellik təşkil edir... Bi neçə fakta müraciət edək...

Onun qələm dostlarından, oxucularından Vaqif Bayatlı, Əbülfət Mədətoğlu, Dayandur Sevgin, İsmayıl İmanzadə, Zireddin Cafarov, İlhami Cəfərsoy, prof. Qüdrət İsaqov, Fəxrəddin Meydanlı, Aşıq Tural Tovuzlu, Adil Həsənov, Khanik Berlinski, Xəqani Həsənli, Ulduz Qasim, Əfşan Yusifqızı, Püstə Hüseynova, Zakir Məmmədov, Adil İsmayılov, Arif Ahmedov, Telman Telman, Şiraslan Ösifov, Eltac Elmanoğlu, Abdulla Cəfər, Bəhram Basqallı, Adam Akberov, Urfat Hasanov, Raul Topçu, Bilge Kaqan, və onlarla başqaları Dəmir Çeşməlinin yaradıcılığını bəyənənlərdir, hətta poeziya fanatlarındandır ki, adların təqdim edilən yazılışına toxunmadan təqdim etməyi vacib saydım. Bu adlar sırasında Dəmir Çeşməlinin tanınmış qələm dostları ilə birgə, müxtəlif regionlaran olan oxucularını da görürük. Bu şairə, şeirə rəğbətin hələ də, davamlı olacağına bariz nümunədir və müəllif xoşbəxtliyidir. Məsələn, oxucu Bəhram Basqallı yazır: "Dəmir Çeşməli yenə də, öz dəyərli yenilikləri ilə minnətdar oxucularını diksindirməkdədir. Onun qədim ənənələrə söykənən müasir ruhlu şeirləri gələcəyin poeziyasıdır." Başqa bir oxucusu - Arif Əhmədov yazır: "Əhsən, çox gözəl yazmısız, ürəyinizə sağlıq, şair . Bunun biri də var idi sizin şeriniz ki, "bu daşı qaldıra bilərəm bu gecə, gəl qayıt, gəncliyim." Bu qəbildən onlarla oxucu rəyi sübut edir ki, Dəmir Çeşməli oxucu ruhunu hədəfləyə bilibdir...

Tanınmış tənqidçi, profesor Vaqif Yusifli onun onun yaradıcılığını "Zərif şeir dünyası" adlandırıbdır. Ürəkləri fəth edən, istedadlı şair-publisist Əbülfət Mədətoğlu isə qələm dostunun poeziyası haqqında yazır: "Dəmir Çeşməlinin şeirləri də müəllifin özü kimi sadə, səmimi, bir



az da "ağır taxtalı" təsiri bağışlayır. Oxuduqca elə bilirsən ki, sakit bir guşədə müəlliflə üz-üzə dayanıb onun söhbətini dinləyirsən. Elə bulaq suyunun şırıltısı kimi axıcı, yarpaq xışıldadan meh kimi xəfif. ...Düşünürəm ki, Dəmir Çeşməlinin poeziyası uğurlu bir yolun ağ cığırında öz naxışlarını vurur." Eləcə, bu bayatıda oluğu kimi:

*Əzizim, Araz axır,*
*Təklənib Araz axır.*
*Görən görür, görünmür,*
*Kür baxır, Araz axır.*

Ümumiyyətlə, şeir bizə hansı estetikanı, hansı gözəlliyi təbliğ edir sualına cavab verməlidir. Quru, taftalogiya olan misralar şeirə heç bir gözəllik gətirmir, əksinə, söz yığınına çevirib onu daha da vulqarlaşdırır. Elə olur ki, şeir, yaxud yaxş şeirin arasına düşən bir misra, bir bənd heç bir məna ifadə etmir, söz yığınından ibarət , məramı, məqsədi olmayan ölü ifadələrdir və bu şirin suya qatışan dəniz suyudur... Belə məqamda özünü ifadə tərzi iflasa uğruyur. Təkçə poetik texnika hesabına şeir yazmaq azdır, gərək arı çiçəkdən şirə çəkdiyi kimi sən də istedadının gözü ilə dünyadan məna yığa biləsən. Gərəkdir ki, özünə şair deyən kəs, heç olmasa ildə bir dəfə (yaxud, ömründə bir dəfə) Budda kimi dağlara (inzivaya) çəkilərək ilahi həqiqəti axtarışına çıxa bilsin!! Dərdin böyüyü budur ki, belələrinin şairlik iddiası özlərindən bir neçə qat böyükdür... Adamı yandıran da, budur... Məsələn, "Əlimi ətəyindən götür, Sənə yük olar, Tanrım!!", "Qız havası var havamın!", "Yoxluğun çölündəsən", "Qızıl gülün dəstəsiyəm, Qım-qıması, bəsdəsiyəm", "bıldır-bıldır ağladı", "Dərdimi dərd bilib dərdim dəridim", "İçimnən ovuluram, çölüm çöldən uçulur", "Kəməndinə düşmüşəm, Özüm öz xəyalımın", "Ayrılıq kəlməsini dolayıbsan boynuma", "Sinsiyir əldə qələm", yaxud:

*"Yaxında uzaq adamam,*
*Buzlamış sazaq adamam,*
*Kimsəsiz yazıq adamam,*
*Kərəm eylə, kərəm olum."*

- qəbildən onlarla poetik deyimlər orjinaldır. Təsadüfi deyil ki, qələm dostu, tanınmış şair və folklorşünas, professor İslam Sadıq onun "Söz sevgilimdir" kitabına yazdığı "Ön söz"də, haqlı olaraq, onu "söz sevdalısı" adlandırır.

İstedadlı şair-alim İslam Sadıq onun haqqna yazdığı məqaləsini "Dəmi Çeşməlinin ipək misraları" adlandırıb ("Ədalət" qəzeti, 09 yanvar 1016) onun şeirlərini xalı naxışlarına, ilmələrinə bənzədərək yazır: "Dəmir Çeşməlinin şeirlərini oxuyanda düşündüm ki, onun ürəyi bir şeir hanasıdır. O da, sözləri seçib öz hanasında şeir toxuyur. O da, sözləri ilmələyib şeirlərinə güllər, naxışlar vurur."

Elə "yaradıcılıq" var ki, ilk baxışda, hər şey yerli-yerindədir, mövzu aktualdır, fikir-məntiq var, təkcə poetik düşüncədən başqa... Hər şey uyardır, "ülgüdədir", ölçülü-biçilidir, amma yenilik, yeni yanaşma, yeni, fərqli münasibət yoxdur... Bu cür şeirlər adi oxucu səviyyəsindən də aşağıdır, sözçülük baş alıb gedir, şeirin məna və mətləbi nədən ibarətdir, bilinmir. Yazşı ki, bu cəhətlər Dəmir Çeşməlinin yaradıcılığında gözəgörünməz dərəcədə cüzidir, əksinə, həyatın müşahidə etdiyi kədərini və ironiyasını içdən, öz ustalığına uyğun yazıya gətirə bilir və bunun özü də müvəffəqiyyətdir, vallah!! Yenilədiyi klassik - folkloristik "durna" obrazında olduğu kimi:

*...Durna qatarıyla köçüb getmişdi,*
*Mənim ürəyimdən keçib getmişdi.*
*Öz yolunu özü seçib getmişdi,*
*Durnalar qayıtdı… durnam dönmədi.*
*Yaxşıya baxmadı yamana düşdü,*
*Çovğuna, borana, dumana düşdü.*
*İnamdan şübhəyə - gümana düşdü,*
*Durnalar qayıtdı… durnam dönmədi.*

**("Durnam dönmədi")**

Qeyd etdiyimiz kimi, müasir dövrün mükəmməlliyə yönəli şair kimi tanınan ziyalılarından biri də Dəmir Çeşməlidir. O, oxucüsunu cəlb etməyi, müəyyən məqamlarda "ovsunlmağı" bacarır.

Onda qondarma ibarələr, demək olar ki, yoxdur, yavan-yanlışlığı olar, bunun özü də özününküdür, özüdür və yenidir… Dəmirin özünəməxsus ifadə vasitələri ilə zəngin şeirlərini oxuduqca, sanki müəllifin özü ilə söhbət edirsən, iç dünyasna səyahətdə bulunursan. Çeşməli camaatının leksikonundan süzülüb gələn sadəlik, elat şivə nazlamaları, səmimiyyəti və ifadələri, saz havaçatı harmoniyasındakı bayatıları, gəraylıları, qoşmaları şirin poetik ləfzi ilə cəlbedicidir:

*Seli sellənib gözləyir,*
*Gülü güllənib gözləyir.*
*Daşı dillənib gözləyir,*
*Aparın dağlara məni…*

Tanınmış şair-publisist, ədəbi zövqün xridarı Sərvaz Hüseynoğlu onun yaradıcılığı haqqında yazdığı "Sözə xidmət işi..." məqaləsində bica yerə yazmayıbdır: "Dəmir Çeşməli sözünün yerini və çəkisini bilən qələm əhlidir. Onun səmimi, kövrək şeirlərini oxuyursan və könlündə, ruhunda doğurduğu təəssuratlar uzun müdət hafizəndən çəkilib getmir. Çünki təsvirlər canlı, xalq təfəkküründən süzülüb gəlir." Və Sərvaz bəy qələm dostunun aşağıdakı misralarını misal gətirir:

*"Sırsıra bağladım qar qalağında,*
*Dözümü görmədim gördüyüm yerdə.*
*Göyə calaq etdim gödəklərimi,*
*Düzümü görmədim gördüyüm yerdə.*

*...Dağ enib, qayalar yerində qalıb,*
*Dərə dərinlikdə dərində qalıb,*
*Vallah, mənim yerim birində qalıb,*
*Özümü görmədim gördüyüm yerdə..."*

Bu gətirilən misalda müşahidə edilən bədii ifadələrin obraz yeniliyi, "göyə calaq etdim gödəklərimi", "dərə dərinlikdə, dərində qalıb", "özümü görmədim gördüyüm yerdə" misralrının yaratdığı assosiasiya, bədii tezis və antitezislər", sözlərin təstiq və inkar ifadəliliində istifadə ("görmədim - gördüyüm") bədii üsul təkin onun digər şeirlərində də sıx-sıx görsənir və şairin özünəməxsus üslub elementinə şevrilir...

**Dəmir Çeşməlinin zəngin məzmunlu yaradıcılığı imkan yaradır ki, onun əsasında müəllifin daxili dünyasına və onun təfəkkür tərzinə, sözdən istifadə bacarığına, biliyinə, dünyagörüşünə bələd olasan. Məncə, şair üçün bu dəyərli məziyyətdir və elə şair ünvanı buradan başlayır - iç dünyandan dış dünyaya açılan pəncərə… Öz söz, şeir, poeziya pəncərəsi, özü də yüksək mərtəbədən - genişliyə açılan pəncərə… Dəmir Şeşməlinin yaradıcılığı məndə o qənaəti doğurdu ki, onun müasir poeziyamızda hələ də, dəyərincə dəyərləndirilməyən öz poetik yeri, öz poetik statusu mövcuddur!! Yəni, o, öz statusu olan - söz yiyəsi olan, sözə yiyə çıxan söz adamıdır!! Deməyim odur ki, Dəmir Çeşməlinin poeziya gülzarlığında öz çeşməli gülzarlığı, çəmənzarı var!! Və bu poeziya çəmənzarlığında "Dağ döşü gül dəstəsi, Hər biri bir sevgidir!" Poetik məntiqlə, elə, şirin bütün yaradıcılığı mühitinə, ətrafına daşıdığı, bəxş etdiyi "sevgi gülləri"dir!! Və o, bu sevgi güllərini "Sevəndə qoru" şeirindəki kimi yamanlıqdan qorumağı bacarır:**

*"Sevənini dünyada sev,*
*Canı-cana qıyanda sev,*
*Dönə-dönə doyanda sev,*
*Sevgini sevəndə qoru.*

**(ardı 8-ci səhifədə)**

## "Araz Naxçıvan" ÇL-ə əsas mərhələdən başlayacaq

**UEFA Çempionlar Liqasının 2022/23-cü il mövsümünün ilkin və əsas mərhələsinin püşkü iyulun 7-də atılacaq.**

Qol.az xəbər verir ki, artıq iştirakçı klubların reytinq cədvəli açıqlanıb. Ölkə çempionu "Araz-Naxçıvan" mübarizəyə əsas mərhələdən start verəcək.

Təmsilçimiz B yolunda mübarizə aparacaq ki, reqlamentə əsasən, yer aldığı qrupdan elit-raunda yalnız qrup qalibi vəsiqə qazanacaq. İlkin mərhələdə 32 komanda 8 qrupda yarışacaq.

Yalnız öz qrupunda birinci pilləni tutacaq komandalar əsas mərhələnin B yolunda iştirak etmək hüququ qazanacaq.

"Araz-Naxçıvan"ın oyunları 25-30 oktyabrda keçirləcək.



Oktay ABDULLA

## DEDİM

*Son demədin bu həsrətə, nisgilə,*
*Yenə çağla, gözlərimdən ax dedim.*
*Bir yaxın gəl, ürəyimin dincinə,*
*Sıralanıb dərd sinəmdə, sıx dedim.*

*Vətənimin, torpağımın daşıyam,*
*Yaşatmadın ömür sürəm, yaşıyam.*
*Bu sevgimin daş heykəli-daşıyam,*
*Şimşək olub, gözlərimə çax dedim.*

*Xəyalımda qollarına büründüm,*
*Kölgələrtək hey arxanca süründüm.*
*Dönə-dönə torpaqlara gömüldüm,*
*Can atımmı, intahara, çox dedim.*

*Ruhum, könlüm sevməyəni sevmədim,*
*Qəlbə dəyən bircə söz də demədim.*
*Qoynun cənnət, bəharini dərmədim,*
*Məndə dözüm, səndə insaf, yox dedim.*

*Gül camalın divanəsi, eşqi mən,*
*Şam yanırsa, pərvanəsi, eşqi sən!*
*Yerin, göyün mehrabı sən, eşqi sən,*
*Yandı bağrım, neçə kərə of, dedim!*

*Gah yuxumda, gah aşkarda görün sən,*
*Can mülkümün təpərisən, mehrisən,*
*Sən günəşsən, kainatın sehrisən,*
*Daha öldür, yandır məni, yax dedim.*

## AY KÖNLÜM!

*Dərd verənə, dərd qənimdi,*
*Sən dərd çəkmə, dərd mənimdi.*
*Dərd sevgilim, həmdəmimdi,*
*Dilim tutmur söz, ay könlüm!*

*Sinə gərdim çox sitəmə,*
*Məndən şeir, söz istəmə.*
*Ocağın var, köz istəmə,*
*Bağrım ataş, köz, ay könlüm!*

*Ötən aylar, il nə dedi?*
*Baxışların, dil nə dedi?*
*Gülməz üzüm, gül nə dedi?*
*Dözə bilsən, döz, ay könlüm!*

*Elə yandım, döndüm külə,*
*Gur çaylara axıt selə.*
*Sığal çəkməz, gümüş telə,*
*Yalvarsan da yüz, ay könlüm!*

*Kimsəsizə kim həyandı?*
*Günəş çıxdı, ay dolandı.*
*Göylər ulduz - çıraqbandı,*
*Tək-tək qopar, üz ay könlüm!..*

## MƏNİ

*Üyütməz dərdimi dəyirman daşı,*
*Ayrılıq həsrətin göynədir məni.*
*Hər gecə sübhəcən qonağım olur,*
*Könlümə gəlişin söylədir məni!*

*Əlvida deməyə dilim gəlmədi,*
*Son sözü düşüncəm, əqlim demədi.*
*Ölən ki, cismimdir, ruhum ölmədi,*
*Camalın özünə öyrədir məni!*

*O günəş surətin yandırıb-yaxır,*
*Çağlayan çayların gözümdən axır.*
*Baxışın şimşəktək gözümdə çaxır,*
*Ah odlu çaxışın teylədir məni!*

*Bülbülün sevdası, o gülü sənsən,*
*Nəğməkar dodağı, o dili sənsən.*
*Könlümün həm bəmi, həm zili sənsən,*
*Sinəm dərd talası, bellədir məni!*

*Dəhrdə qüdrətim, sənsən təhərim,*
*Göylərin ulduzu axşam-səhərim.*
*Varlığım, fərəhim, könül əsərim,*
*Sabahın, axşamın kövrəldir məni!*

## NEYNİM?!

*Söz məni ovudur, mən də dərdimi,*
*Oturub-dururam sözünlə, neynim?!*
*Yurd salan gözümdə amanın nə xoş,*
*"Davamız" bir ayrı, özünlə, neynim?!*

*Ömrümün payızı, ömrün qışında,*
*Bir səba yelləri əsir başımda.*
*Durmusan könlümün astanasında,*
*Dur doydur gözümü, gözünlə neynim?!*

*Ruhuma toxuyub, hörürəm səni,*
*Allaha əmanət verirəm səni.*
*Baxdığım hər yerdə görürəm səni,*
*Çəmənli, çiçəkli düzünlə neynim?!*

*Yaratmış nə gözəl səni yaradan,*
*Gecələr nur saçır ay camalından.*
*Qor düşüb bağrıma baxışlarından,*
*Yandırıb de yaxan közünlə, neynim?!*

*Dərdlərim hamilə həddən ziyada,*
*Əlacı, şəfası ulduzda, ayda.*
*Sən məndən çox uzaq, mən də piyada,*
*Oktayı öldürən, tezinlə, neynim?!*

## Fahrettin Cüreklibatur necə Cüneyt Arkın oldu?



**Cemal Süreyya vergi müfəttişi idi.**
**Bir gün Eskişehir vergi idarəsinə gedir.**
**Cüneyt Arkın isə Tibb Fakültəsində tələbə idi.**

O xeyli vaxt idi ki, Cüneyt Arkını görmürdü. Sonuncu dəfə dövrün prezidenti Fahri Korutürkün sənətçilərlə görüşü zamanı rastlaşmışdılar. Ən azı on iki il. Amma ondan əvvəl də uzun müddət görüşməmişdilər. Ayrı dünyaların insanları idilər.

O, Cüneyt Arkını adı hələ Fahrettin Cüreklibatur olanda tanımışdı. 1957-ci ildə Eskişehirdə vergi idarəsini təftiş edərkən Cüneyt Arkın ədəbiyyat və şeirə marağı olan dostları ilə onu tapmışdılar.

Onların dostluğu sonralar İstanbulda da davam edir. O vaxtlar tibb fakültəsində tələbə idi. Hekayələr yazırdı. Bunlardan bir neçəsini Cemal Süreyya Ankaraya Muzaffer Erdosta yollamışdı ki, "Pazar postası" dərgisində dərc etsin.

Hava qüvvələrində ehtiyatda olan zabit idi. Halit Refiğin diqqətinə cəlb edir. Halit bəy "Şafak bekçileri"ni tərcümə edərkən bu yaraşıqlı gizirdən yararlanmaq istəyir. Ancaq qaydalar buna izn vermir. Bir müddət sonra Fahrettin tərxis olur, daha sonra Halit Refiği tapır və onun "Qürbət quşları" işində rol alır.

Əvvəlcə sentimental filmlərdə oynadı.

60-cı illərin sonunda vurdu-yıxdı və macəra filmlərində görünməyə başladı. Məsələn, Malkoçoğlu serialı... Tanqo emosionallığı ilə tərbiyə olunmaq istəyən gəncin dəyişməsini necə təsvir etmək olar? Cemal Süreyya bunu sonradan anladığını yazır. Cüneyt Arkın bir müddət Medrano Sirkinə daxil olub. Bir müddət orada pulsuz işlədi. Torları və kəndirləri qaldırmaq işini öz üzərinə götürdü. Bu ərəfədə o, salto vurmağı, bəzi akrabatik hərəkətləri öyrəndi və inkişaf etdirdi.

Halit Refiğ ilk filmlərində onu Alen Delona bənzədirmiş, amma vurdu-yıxdı filmlərdən sonra avroplalılar onu Burt Lancesterə bənzətdilər.

O, Medrano sirkində pulsuz işlədi. At sürməyi, at minməyi ən yaxşı bilən aktyor idi. O, karateni asan öyrənmədi, özünəməxsus olmasaydı, sevilməyəcəkdi. Fahrettin adının Cüneytə necə çevrilməsini Cemal Süreyya dostu Halit Refiğdən öyrənir. Sən demə qəzetçi Vecdi Benderli tapıb bu adı. "Cüneyt Gökçer"in adından Cüneyti, "Ramazan Arkın"dan da Arkını.

Cüneyt Gökçer ö dövrün məşhur opera rejissoru, Ramazan Arkın isə şair idi.

Beləcə, gənc Fahreddindəki teatr və ədəbiyyat sevgisini filmdə bir araya gətirmək istəyiblər.

***"Qazax sirkində at sürməyi və iki atın arasından keçməyi öyrənmişəm. 1,5 il Medrano Sirkində işləmişəm. Gecələr adamların dəsmallarını, şərabını daşıyırdım. Altı ayda dayaqla tullanmağı öyrəndim, altı il karate ilə məşğul oldum. Sən çəkdiyin dramla qəhrəman olursan, amma süjetin qəhrəmanı olursan, mən etdiklərimlə qəhrəman olmuşam".***

***Cüneyt Arkın***

**Hazırladı: Eminquey**
**Mənbə:Cemal Süreyyanın Cüneyt Arkın xatirələri**

# Düzgün reabilitasiya işi günün tələbidir

## "Mədinə" Tibb Mərkəzinin bu sahədəki kadr potensialı və tibbi yanaşma tərzi xüsusi alqışa layiqdir

**Mənbələrdən bilirik ki, reabilitasiya - insanın anadangəlmə və ya sonradan hər hansı bir səbəbdən meydana çıxan, qalıcı və ya keçici çatışmazlıqlarının itirilmiş, bəzən də limitlənmiş funksional fəaliyyətinin araşdırılaraq müalicə edilməsi, psixoloji-sosial cəhətdən sərbəst vəziyyətə gəlməsini təmin etməkdir. Forma və metod baxımından dəyişilən reabilitasiya prosesi ölkəmizdə də diqqət mərkəzindədir və bu istiqamətdə uğurlu nəticələr əldə olunur. Açığı, "Mədinə" Tibb Mərkəzinin direktoru bu sahədəki kadr potensialı və tibbi yanaşma tərzi xüsusi alqışa layiqdir. Onun reabilitasiya işinin ictimai təzahüründə başlıca rolu var desək, yanılmarıq.**

Mərkəzin direktoru doktor Kamran Salayev fərdlə aparılan psixoloji reabilitasiya işini müasir tibbin bu sahədə ən önəmli prosesi kimi dəyərləndirir. Çünki o, tibbi təsirlə yanaşı, deontoloji zəmini - həkim-xəstə münasibətlərini də çox vacib resurs hesab edir və bunun xəstələrdə psixoloji vəziyyətin stabilləşməsi, mövcud gərginliklərin aradan qalxmasında ümdə rol oynadığını vurğulayır. "Mədinə" Tibb Mərkəzində reabilitasiya işinin kompleks yanaşma tələb edən bir proses kimi qəbul olunur və məhz bu effektiv nəticə verilə bilir.



Biz öz prizmamızdan çıxış edərək demək istəyirik ki, doktor Kamran Salayev əsasən də, uşaqların cəmiyyətə sağlam adaptasiyası, fiziki imkanları daxilində onları əməyə cəlb etməklə istedadlarını üzə çıxarmaq üçün ciddi cəhdlər edir, bir sıra müsbət nəticələr qazanır. Elə bunun nəticəsidir ki, o, xüsusi qayğıya ehtiyacı olan uşaqların reabilitasiyası və müalicəsi sahəsində mühüm töhfələr verib. Bəlkə də bu sahəyə dərin məhəbbət hissindəndir ki, o, ölkədə xüsusi ehtiyacı olan insanlara kömək etmək məqsədi daşıyan ilk özəl ambulator tibb mərkəzi olan "Mədinə" Tibb Mərkəzini yaratmışdır. Artıq geniş ictimaiyyət adıçəkilən tibb mərkəzinin vacib və önəmli işlər gördüyünü yaxşı bilir.

Doktor Kamran Salayev rəhbəri olduğu mərkəzdə kadrların düzgün seçilməsi, reabilitasiya qrupunun məqsədlərinin müəyyən edilməsi, yeni reabilitasiya proqramlarının seçilməsi və təşkilini şəxsən özü nəzarətdə saxlayır, bunun üçün məsuliyyət daşıyır. "Reabilitasiya sahəsi bir yerdə qalmır, əksinə daima inkişafdadır. Biz də çalışırıq onun ən son və effektiv yanaşmalarından istifadə edək" - Kamran Salayev mərkəzin missiyasını bu sözlərlə ifadə edti. O, autizmli uşaqların və onların ailələrinin həyatında dəyişiklik etmək istəyən peşəkar, istedadlı və həvəsli insanlardan ibarət komanda yarada bildiyi üçün də özünü xoşbəxt sanır. Onun rəhbərliyi altında "Mədinə" Tibb Mərkəzi uşaqlar üçün üç mühüm proqram hazırlayıb həyata keçirmişdir: (1) 2-4 yaşlı uşaqlar üçün Erkən Başlanğıc İnkişaf Modeli, (2) 4-8 yaşlı uşaqlar üçün Tətbiqi Davranış Analizi qrupları və (3) 8 yaşdan yuxarı uşaqlar üçün bütün reabilitasiya gün proqramı. Uşaqlar üçün müalicəvi idman və su prosedurları üçün şərait yaradılıb. Bu proqramlar bütünlükdə, autizmli uşaqların yaş və simptom spektrini əhatə edir və kompleks xarakteri daşıyır. Mərkəzin fəaliyyəti ölkəmizdə tibbin çətin sahəsi olan reabilatisya sahəsinin bir çox aspektində ciddi dəyişiklərə səbəb etmişdir. Belə deyək, Kamran Salayevin şəxsi iştirakı olmadan bu inanılmaz nailiyyətlərin heç biri mümkün olmazdı.




Haqqında yazılanlardan bilirik ki, "Mədinə" Tibb Mərkəzi Azərbaycanda öz daimi töhfəsinə və bu sahədə lider mövqeyinə görə seçilən təşkilat hesab olunur. Bir çox nəşrlərin sübut etdiyi kimi, adıçəkilən mərkəz eyni rütbəli digər qurumlardan daha çox tədqiqatla məşğul olur.

Həmçinin, ölkədə əvvəllər heç vaxt istifadə edilməmiş yeni yanaşmaların tətbiqi, mühüm vasitələrin tərcüməsi və peşəkarlar arasında yayılması ilə əlaqədar olaraq bu sahədə müsbət təsir əhəmiyyətlidir. Doktor Kamran Salayevin autizmli uşaqların reabilitasiyası və müalicəsi üzrə işinin nəticələri "Mədinə" Tibb Mərkəzinin hüdudlarından kənara da yayılıb və həmin mərkəzdə çalışan personalın da işinə böyük təsir göstərməkdə davam edir.

**Yazıya əlavə olaraq qeyd edək ki, autizm sosial münasibət sferasında çatışmazlıq və təkrarlanan davranışlarla müşahidə olunan beyindəki nevroloji inkişaf pozuntusudur, ən çox da uşağın ətraf mühitlə kifayət qədər sosial münasibət qurmaması, ünsiyyətdə əhəmiyyətli dərəcədə inkişaf problemləri və təkrarlanan stereotiplər ilə xarakterizə olunur. Nəzərə alsaq ki, dünyadakı hər 59 uşaqdan biri autizmdən təsirlənir, bu fəlakətin aradan qaldırılması işində əmək sərf edənləri sadəcə, alqışlamalıyıq. Bu alqışların da ən çoxu doktor Kamran Salayevə və onun rəhbərlik etdiyi tibb mərkəzinə düşür.**

**Raqif Nazimoğlu,**
**Şair-publisist, AYB və AJB-nin üzvü, Prezident mükafatçısı**

# "Komedixana" və Ənvər Abbasovun səs-küyü

**Azərbaycan yumoru haqqında yazdıqlarımıza o yumoru xalqa təqdim edənlər bir yumor kimi baxır, əllərini qarınlarına qoyub şaqqanaq çəkəndən sonra üstümüzə acıqlanırlar.**

Əslində başa düşürəm.

Hegelsin fəlsəfəsi bu prosesdə öz təsdiqini tapır.

Göz yaşı pik həddə çatanda yerini kədərə verir. Eynilə doğmasını itirən bir adamın ağlamaqdan havalandığı, qəfil durub oynadığı, güldüyü kimi.

İndi bizə şaqqanaq çəkəndən sonra qəzəb, hirs sərgiləyən o yumor icraçıları da eyni fəlsəfəni bizə bir daha isbat etmiş olurlar.

Keçək əsas məsələyə.

Bir ildən çoxur ki efirdə yayımlanan "Komedixana"ya.

Bu layihə hələ efiə getməmişdən Türkiyə efirində yayımlanan "Gülür güldür", "Çok güzel hareketler bunlar" kimi layihələri izləmiş və "niyə bu əjdahadan bizdən yoxdur?" kimi suallarla həşir-nəşir olandan sonra aktyor, rejissor dostlarımla bunu Azərbaycanda həyata keçirmək barəsində müzakirələr etmişdim.

Açığı, çox düşünsək də, hərənin ağzından bir söz çıxdı və bir ortaq nöqtəyə gələ bilmədik. Üstündən bir müddət keçdi,"Komedixana" efirə getdi. Artıq kimlərsə bunu düşünüb və reallaşdırıb. Sevinmişdim.

Şükr, kimlərsə belə bir addım atdı. Amma...

Bu layihə haqqında teztez statuslar yazılır, bayağı olub-olmadığı müzakirə edilir.

"Komedixana" efirdə illərdir at oynadan, hara daş atsan oradan çıxan aktyorların, vaynerdəndönmə aktyorların oynadığı, ssenaristlərindən biri Ənvər Abbasov olan bir layihədir. Bizi Türkiyənin "Güldür güldür"ündən, "ÇGHB"-dan fərqləndirən təkcə bayağılıqdırmı? Bütün dərdimiz yumorun keyfiyyətidirsə, bəs bunun səbəbi nədir?

Fərqi izah etmək üçün paralellər aparaq. "Güldür güldür"ə Kamal Sunalın oğlu Ali Sunal, "Çok güzel hareketler bunlar" isə Yılmaz Erdoğanın rəhbərlik edir.

Format budur ki, hər iki rejissor skeçlər təqdim olunandan sonra fikrini bildirir, müdaxilə edir, zal ilə interaktiv söhbət aparır və skeçlər tamaşaçı tərəfindən "ən yaxşı" olaraq qiymətləndirilir, "zəng" çalınır. Və bütün bunlar hamısı ayrı-ayrılıqda yumora çevrilə bilir. Bəzən taşaçılardan birinin söylədiyi fikir skeçdə improvizə kimi istifadə olunur.

Amma biz "Komedixana"da bunu müşahidə etmirik. Tamaşaçı sadəcə alqış üçündür, skeçlər müzakirə olunmur, nə rejissor ortadadır, nə də ssenaristlər. Bax, gülə bilsən gül, bilməsən də, olanımız budur.

Fərqin biri bundadır ki, türklərdə teatr heyəti əksərən heç yerdə tanınmayan istedadlı gənclərdən ibarətdir.

Onlar sırf bu skeçlərin hesabına püxtələşir, tanınır, daha sonra filmlərə rol belə ala bilirlər. Hər iki layihənin rəhbəri birbaşa yumorun içində olan, sözünü demiş, peşəkar, mütaliəli insanlardırlar. Ali Sunal atasından gördüyü ənənəni davam etdirir, Yılmaz Erdoğan isə artıq özü bir ənənədir.

"Komedixana"da isə bu ənənələr yoxdur, layihə sırf tanınmış, kütlə tərəfindən ən çox baxılan, izlənilən insanlar tərəfindən təşkil olunub.

Bəzən çox yaxşı skeçləri olur, baxmışam, güldüklərim də olub, amma ümumilikdə nədənsə mənə elə gəlir ki, bu layihə səs-küy doğurmaqdan çox səs-küylə daha çox baş ağrıdır.




Buna misal kimi təkcə Ənvər Abbasovun qışqıra-qışqıra danışmağını çəkə bilərəm.

Skeçlərin bir çoxusu realda baş verən, gündəm olan gülməli şeylərin səhnədə hansısa skeçə daxil olmasından ibarətdir. O hadisələrə fərqli baxış yoxdur.

**"Komedixana" bu templə tez gülünüb qurtaracaq və ənənəyə çevrilməyəcək. Bəlkə heç bu heyətin dediyim şeyə iddiası da yoxdur. Sadəcə mövsümi layihədir.**

**Sponsor olmadı, it-bat olacaq. Amma çox istərdim ki, çox fərqli, yeni bir tərzdə, başqa bir adla, başında bəlli bir ənənəsi olan, yumor adına danışa bilən bir adamla yeni layihələr işlənsin. Ali Sunal-Yılmaz Erdoğan dostluğu və rəqabəti bizdə də olsun.**

**Vəssalam...**

**Eminquey**

# Sözün, şeirin ərazisində səlahiyyət qazanmış şair...

**(əvvəli 7-ci səhifədə)**

**Yaradıcılığına bələd olduqca görürsən ki, Dəmir Çeşməli sözə məsuliyyətlə yanaşan söz adamlarımızdandır. Və elə onun nəticəsidir ki, onun yaratdığı şeirlər maraqlıdır, səmimidir, şeirləri oxucuya asanlıqla çatır, özünə cəlb edə bilir… Eynən, "la-məkan" böyük şair Məmməd İsmayıla həsr elədiyi "İsmayıl qağa" şeirində olduğu təkin:**

***Zirvəyə boylandım, boyu tanışdı,***
***Yarpağı oxşadım nağıl danışdı,***
***Havalar bulaşdı, külək qımışdı,***
***Yel döyən, sazaqdə, İsmayıl qağa!***

Şeirdəki sətiraltı mənalar, dövrə-zamana ironiya, şairin dərdkeşliyi, ictimai məzmunu bir yana qalsın, buradakı ifadələrin yeniliyi - "zirvənin boyunun tanışlığı", "yarpağın nağıl danışması","bulaşıq sazaqlı havaların, küləyin (zamanın) qımışması", "qapanmış gözün görməkliyi", "yeldöyən ("skvazniyak") sazaq", "arzuların, istəklərin daşa dirənməsi ("dönməsi" yox), "dərdin yazıqlığı", "gizli qalan mətləblərin - hali olan dərddən hali olmamağımız" və s. bu qəbildən sözlərinin ifadə yeniliyi, daşıdığı məna yükü, şairin şairə məhəbbətini, istəyini ifadə edən "İsmayıl qağa" xitabının xəlqi təbiiliyi, səmimiyyəti qürbət şairi Məmməd İsmayılın lirik xarakterini canlandırır, keçirdiyi psixoloji iztirabları təsəvvürə gətirir…

Onu da, qeyd edim ki, Dəmir Çeşməlinin şeirlərdə xatirə qarışıq həzin bir nisgil var, sevda dolu hıçqırıq var. Bu şeirlər müəllifin yaşadığı, iştirakçısı, şahidi olduğu hadisələrin, onun yaddaşında ilişib qalmış və heç vaxt unutmayacağı, qəlbə hopan kövrək xatirələrin poetik ifadəsidir. Müəllifin yaşam tarixidir, yaddaşıdır. Ömrünün - gününün təqvimidir, "canından çıxmayan qəhəridir", "ömrünə bağdır xatirələr":

***Ağı dağdır xatirələr,***
***Ömrə bağdır xatirələr,***
***Qara-ağdır xatirələr,***
***Qatıldım qatımlı yerə.***

Şeirlərinin mühüm bir qismində kövrək xatirələr dil açıb "Balam balası" adlandırdığı oxucuya bir elin, bir obanın, bir şəhərin, xalqın bir parçasının xarakterini, yaşam tərzini qələminə, varağına söykənərək danışır:

***"Ürəkdən-ürəyə ürəklənmişəm,***
***Ürəkdən yıxılıb dirəklənmişəm,***
***Qələmin ucuna sürəklənmişəm,***
***Varağınan gəlirəm, balam balası!"***

Və yaxud, "Yada salmadı" şeirində yazdığı kimi, "yada salmadı" desə də, bu məcazidir və onun şeirlərinin bir qismində yaşanılan ömürün " xatirələri xətir-xətir əriyir", dünəndən sabaha yeriyərək "ilmə-ilmə, düzüm-düzüm" düzülür:

***Xatirələr xətir-xətir əridi,***
***İlmə-ilmə, düzüm-düzüm kiridi,***
***Dünən deyib, sabah-sabah yeridi,***
***Aldığını aldı, yada salmadı…***

Çoxlarımız 1990-cı ilin əvvəllərindən taa, 2020-ci ilin noyabrınadək Azərbaycandan kənarda, "haralısan" söhbəti düşəndə həmişə söhbətdən yayınırdıq.

Qeyrət boğurdu bizi. Çünki uduzmuşduq müharibədə, doğma vətənimizdə qaçqına, köçgünə dönmüşdük, köçkünlük dərdi qəddimizi əymişdi:

***Bu dərd ki, ilahi, çəkilən deyil,***
***Bağrı qara daşdı, sökülən deyil,***
***Dizləri əyilər, bükülən deyil,***
***Köşkünlük dərdidir bizim dərdimiz.***

Torpaqlarımızın 20 faizi işğal altında, Müqəddəs Qarabağın, Zəngəzurun bir hissəsi düşmən tapdağında - işğalında idi.

O illərdə şairlərimizin, ədəbiyyat adamlarımızın da əksəriyyəti bu mövzuda həsrətli, nisgilli şeirlər, əsərlər yaradırdılar:

***Qarabağa gedən yolun,***
***Cığırı yox, izi bağlı,***
***Tutan əlin, vuran qolun,***
***Təpəri yox, özü bağlı.***

Özlərini Qarabağsız təsəvvür edə bilmirdilər. Qarabağın itirilməsini bağışlaya bilmirdilər özlərinə, Dəmir Çeşməli kimi… Məsələn, 2017-ci ilin 8 mayında, Şuşanın işğalı günündə yazılmış "Şuşa adlı şəhər vardı…" ağı ahəngli şeir buna bariz nümunədir:

***… Qaya üstə kəhər vardı,***
***Yurd adında bəhər vardı,***
***Şuşa adlı şəhər vardı,***
***Nəsə çatmır bu şəhərdə.***

Bu şəhərdə çatmayan, hamının ürəyində qövr-yara bağlayan Azadlıq idi. Ali Baş Komandan Azadlıq bayrağını Şuşadan asdı və Türkün Şuşaya "dönhadönüşü" başladı!..

Onun şeirləri xalq şeirində olduğu kimi yığcamdır, lakonikdir. Lakin bu yığcamlıqda və lakoniklikdə o, həyat hadisələrini poetik təxəyyülündən keçirərək, insanın psixologiyasını, sevgisini, yaşam tərzini özünəməxsus çizgilərlə, yeni məna və mahiyyətdə əks etdirə bilir... Başqa sözlə, Dəmir Çeşməli bu bayatılarında olduğu kimi, milli, folkloristik fəlsəfi düşüncəyə meyilli müəlliflərimizdəndir.

***Aşiqəm, gələn gəlsin,***
***Dərdimi bölən gəlsin.***
***İtirmişəm özümü,***
***Yerimi bilən gəlsin.***

Nəbzi hər zaman çağdaş Azərbaycan poeziyasının nəbzi ilə bir vuran şairin poeziyasının folklor yaddaış işə düşür. Bu da təsadüfi deyil. Çünki ən mükəmməl yaddaş da folklor yaddaşıdır. Dəmir Çeşməli folklor janrına müraciət edir, Qarabağı nərmə-nazik bayatı janrı ilə vəsf edir… Müasir ruhlu, qədim formatlı gəraylılar, qoşmalar yazır… Yaxşı cəhət budur ki, Dəmir Çeşməlinin əksər şeirləri mojordan minora, minordan mojora keçsə də, pozitiv nota köklənir, Bu hal onun şeirlərinin məzmununa fenomenal olmasada, xoş bir ovqat gətirir. Məsələn:

***Azdığın yolu azmışam,***
***Azdığını mən yozmuşam.***
***Ağ kağıza ağ yazmışam,***
***Söznən gəlmişəm gələndə.***

...Onun şeirlərində türk-islam mədəniyyəti daşıyıcılarının milli qürur və dini inanc duyğusuna müasir münasibət var. O, müasir Azərbaycan şeiri fonunda klassik formatı, ölçünü saxlayan, improvizəsiz poetik fikrini, hissini yeni nəfəslə, ortaqsız tərtibləməyi bacaran, müxtəlif çalarlı, iztirablı, amma hüzurlu məhəbbət lirikasında el qızlarında ziqiymət olan isməti, həyanı zövqlə qiymətləndirərək qoruyan, dünyəvi ehtirasdan, şımardıcı erotizmdən uzaq müəlliflərdəndir. Deyəsən, Platonun fikridir: "Əgər sevirsənsə, deməli, şairsən!!" Mənim fikrimcə, mövzusundan, məzmunundan, ifadə tərzindən, bədiiliyindən asılı olmayaraq sevgisiz şeir yoxdur!! Şeir şairin ətrafına, mühitinə, həmcinsinə, təbiətə, insanlığa, cəmiyyətə, vətəninə və s. və ilaxır, dünyada nə varsa, ona sevgisindən, məhəbbətindən yaranır... Şeirin heyrətedici sirri və gücü də, təlqin etdiyi, ötürdüyü enerji də, bundadır... Ona görə də, dünya söz sənətinin dahiləri, bica yerə deməyiblər ki, "Dünyanı xilas etsə, sevgi və məhəbbət xilas edəcəkdir!!" Şeirin fəlsəfi, poetik gücü, sehri, ğözəlliyi və özəlliyi də buradadır!! Şair haqq açiqidir, haqqın qoruyucusudur, haqqın sözçüsüdür, haqqın gözçüsüdür!!

***Yol gedirəm yoldan ötə,***
***Nə tükənə nə də bitə.***
***Mənzil deyib sənə yetə,***
***Məhəbbətin səsi gələ***
***Səhərdən axşama qədər.***

**Deməyim budur ki, Dəmir Çeşməli sözün, şeirin ərazisində səlahiyyət qazanmış qələm əhlidir!! Əlbəttə, onun şeirləri zərgər cilal deyil və təbiidir ki, bu şeirlərdə kələ-kötürlük də, xaric səslənən ifadələr də, ölçüyə-mizana sığmayan məqamlar da var, amma nə varsa, patetikadan, süni pafosdan, səsgücləndirici intonasiyadan uzaq, təbii axarda olan özününküdür. O, sözün xəcalətin çəkən kişilərdən deyil, çünki xəcalətli sözdən uzaqdır!! Başqa sözlə, sözün, şeirin ərazisində səlahiyyət qazanmış Dəmir Şeşməli öz statusu olan sözübütöv şairdir!!**

**Elan**

**Yəhyayeva Mirayə Babulla qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 85**
Çapa imzalanmışdır:
01.07.2022